www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15 yanvar 2019-cu il Çərşənbə axşamı № 10 (7180) Qiyməti 60 qəpik

**Xəbər**

## Şamaxıda dəhşətli qəza - sürücü maşını ağaca çırpdı, arvadı öldü

yazısı səh.2-də

**Gündəm**

### Prezident struktur islahatlarına başladı - mühüm fərmanlar



Müdafiə Sənayesi Nazirliyinin əsasında "Azərsilah" ASC yaradılır; Strateji Araşdırmalar Mərkəzi, digər bir sıra qurumlar ləğv olunur, bəzi təşkilatlar yenidən təşkil edilir

yazısı səh.2-də

### İqtidar müxalifətlə necə davransın...

yazısı səh.5-də

### Tahir Kərimlinin ayların adını dəyişmək ideyası başına bəla oldu

yazısı səh.6-da

### Fazil Məmmədovun korrupsiya araşdırmasından kənar qalmasının ilginc təfərrüatları

yazısı səh.12-də

### Xidmət və iaşə sektorundakı qiymət xaosu

yazısı səh.7-də

### Kürd məsələsi növbəti dəfə Ankara-Vaşinqton böhranını yarada bilər

yazısı səh.9-da

### Zaxarovanın özünü Rusiyanın lideri kimi aparmasının pərdəarxası

yazısı səh.9-da

### BP-nin Xəzərdə böyük ümid bəslədiyi qaz yatağı

yazısı səh.12-də

### Qətər ABŞ və Avropaya yatırımları artırır - səbəb...

yazısı səh.13-də

### Əmanətlərin tam sığortalanması dövrü başa çatır

yazısı səh.14-də

### Azərbaycanda donuz qripinə qarşı tədbirlər gücləndirildi

yazısı səh.15-də

### Moskva Krımı Rusiya ərazisi kimi tanıtmağa çalışır

yazısı səh.13-də

# ZİYA MƏMMƏDOVUN OĞLUNA GÖRƏ LONDONDA XÜSUSİ KOMİSSİYA YARADILIR

Zamirə Hacıyevanın oğurladıqları üzə çıxdıqdan sonra İngiltərədə daxili işlər nazirinin rəhbərliyi ilə Azərbaycandan gələn pul vəsaitlərini araşdırmaq üçün qrup fəaliyyətə başlayır; Anar Məmmədov bu ölkədə ən çox varidatı olan azərbaycanlı hesab olunur




yazısı səh.3-də

# İrəvanın İran ümidi basdırılır - Bakının şansı

Ermənistanın yeni baş naziri təsdiqləndi: problemlərlə yola davam; erməni **politoloq:** "Son aylar ərzində izolə edilmiş ölkəyə çevrilmişik..."

yazısı səh.8-də



*Rasim Balayev:*

### "Dünyaya və elə özümüzə də Nəsimini tam çatdıra bilməmişik"

yazısı səh.6-da



### Sərdar Cəlaloğlundan Müsavat, AXCP və REAL-la bağlı sərt mövqe

yazısı səh.5-də



İrşad Hacıyev

### "İrşad Telekom"un sahibi ilə bağlı yeni sensasion iddia: "Öldürüblər..."

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 10 (7180) 15 yanvar 2019

# Prezident struktur islahatlarına başladı - mühüm fərmanlar

## Müdafiə Sənayesi Nazirliyinin əsasında "Azərsilah" ASC yaradılır; Strateji Araşdırmalar Mərkəzi, digər bir sıra qurumlar ləğv olunur, bəzi təşkilatlar yenidən təşkil edilir

**Prezident İlham Əliyev Nazirlər Kabinetinin yanvarın 11-də keçirilən iclasında Azərbaycanda dövlət idarəetmə orqanlarında struktur islahatlarının aparılması zərurətindən bəhs etmişdi. Dövlət başçısı bildirmişdi ki, ölkədə daha çevik idarəetmə strukturunun yaradılması ilə bağlı işlərə başlanacaq. Yanvarın 14-də artıq prezident bu prosesə start verib.**

Belə ki, yanvarın 14-də prezident İlham Əliyev "Azərsilah" Açıq Səhmdar Cəmiyyətinin (ASC) yaradılmasına dair fərman imzalayıb.

Fərmana əsasən, ölkədə dövlət idarəetmə strukturunu optimallaşdırmaq, müdafiə sənayesinin inkişafının dayanıqlılığını təmin etmək, bu sahədə idarəetmə mexanizmlərini daha da təkmilləşdirmək, habelə sənayeləşmənin yeni mərhələsində mövcud potensialdan səmərəli istifadə etməklə Azərbaycanın regionda silah istehsal edən əsas sənaye mərkəzlərindən birinə çevrilməsinə nail olmaq məqsədilə Müdafiə Sənayesi Nazirliyinin əsasında "Azərsilah" ASC yaradılır.

Cəmiyyətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti üç üzvdən - Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi İdarə Heyətinin sədrindən və onun iki müavinindən ibarət İdarə Heyəti həyata keçirəcək.

Fərmana əsasən, üç ay müddətində Müdafiə Sənayesi Nazirliyinə tabeliyindəki müəssisələrin "Azərsilah" ASC-nin tabeliyinə verilməsi və s. məsələlərlə bağlı təkliflərini hazırlayıb Prezidentə təqdim etmək tapşırılıb. Nazirlər Kabinetinə, həmçinin Müdafiə



Sənayesi Nazirliyinin balansında olan dövlət əmlakının cəmiyyətin balansına verilməsinin bir ay müddətində təmin edilməsi barədə də tapşırıq verilib.

Sənədə əsasən, "Azərsilah" ASC "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunla müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündək Müdafiə Sənayesi Nazirliyi öz fəaliyyətini davam etdirəcək.

Bundan başqa, prezident İlham Əliyev Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında fərman imzalayıb.

Fərmanda qeyd edilir ki, Prezident yanında Elmin İnkişafı Fondunun və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyətləri özünümaliyyələşdirmə prinsipi əsasında həyata keçirilməklə yenidən təşkil edilsin.

Fərmanın ikinci bəndində qeyd edilir ki, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, Prezident yanında Bilik Fondu və Prezident yanında Strateji Araşdırmalar Mərkəzi ləğv edilsin, Prezident yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın Katibliyi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupu, habelə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının Katibliyi ləğv edilsin və onların fəaliyyəti ictimai əsaslarla həyata keçirilməklə yenidən təşkil edilsin.

Nazirlər Kabinetinə və digər qurumlara fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Prezident İlham Əliyev habelə, "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" da Fərman imzalayıb.

Fərmana əsasən, Kənd Təsərrüfatı Nazirliyi yanında olan Dövlət Fitosanitar Xidmətinin, Dövlət Baytarlıq Xidmətinin, Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin və Baş Dövlət Texniki Nəzarət Xidmətinin əsasında Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi yaradılıb.

Agentlik baytarlıq və fitosanitar xidmətlərinin təşkilini və idarə edilməsini, keyfiyyətinə nəzarəti həyata keçirir, bu sahədə dövlət aqrar inkişaf mərkəzlərinin (DAİM) fəaliyyətini əlaqələndirir, kənd təsərrüfatı texnikasının qeydiyyatını, texnikaya nəzarət fəaliyyətini və bu sahədə dövlət xidmətlərini DAİM vasitəsilə həyata keçirir, aqrokimya, toxum və bioloji laboratoriyalar, sort sınaq məntəqələri və toxum sertifikatlaşma mərkəzlərində xidmətlərin təşkilinə və göstərilməsinə nəzarət edir.

Agentliyin aparatının işçilərinin say həddi 85 nəfərdir.

**❑ E.MƏMMƏDLİ**
**"Yeni Müsavat"**

# Azərbaycanla Türkiyə birgə hərbi təyinatlı rabitə vasitələri istehsal edəcək

**Türkiyədə səfərdə olan Müdafiə Sənayesi Nazirliyinin nümayəndə heyəti bu ölkənin müdafiə sənayesi üzrə aparıcı şirkətlərindən olan "Aselsan"ı ziyarət edib.**



Nazirlikdən «Trend»ə verilən məlumata görə, nümayəndə heyətinin "Aselsan" şirkətinin rəhbərliyi ilə görüşü təşkil olunub.

Görüşdə Müdafiə Sənayesi Nazirliyinin müəssisələri ilə "Aselsan" şirkəti arasında icra olunmuş layihələrin əhəmiyyətindən danışılıb və yeni layihələrin icrasının önəmliliyi vurğulanıb. Eyni zamanda uzun müddətdi müzakirəsi aparılan müxtəlif növ rabitə vasitələrinin birgə istehsalının təşkilini nəzərdə tutan layihə üzrə qarşılıqlı razılıq əldə edilib.

Sonda Müdafiə Sənayesi Nazirliyinin "Cihaz" İstehsalat Birliyi ilə "Aselsan" şirkəti arasında rabitə vasitələrinin birgə istehsalına dair müqavilə imzalanıb.

# Bakının bu hissələrində qaz olmayacaq

**Binəqədinin Cavadxan küçəsində diametri 159 mm-lik orta təzyiqli yeraltı qaz kəmərində aşkar olunmuş qaz sızmalarının ləğv edilməsi və yeni çəkilmiş qaz xəttinin qaz təchizatı mənbəyinə birləşdirilməsi ilə əlaqədar, yanvarın 15-də saat 10:00-dan təmir işləri tamamlananadək rayonun 6, 7, 8 və 9-cu mikrorayonlarının, Rəsulzadə, Xutor, Biləcəri qəsəbələri və Motodrom yaşayış sahəsinin bir hissəsində təbii qazın verilişində fasilələr yaranacaq.**

"Azəriqaz" İstehsalat Birliyindən Trend-ə verilən məlumata görə, görülən zəruri təmir işləri gün ərzində yekunlaşdırılaraq təbii qazın verilişində yaranacaq fasilə aradan qaldırılacaq.

İstehsalat Birliyi bütün istehlakçılardan təbii qazdan istifadə zamanı xüsusilə diqqətli olmalarını və texniki təhlükəsizlik qaydalarına riayət edilməsini xahiş edir.



# Abşeronda yeniyetmə qız yoxa çıxıb

**15 yaşlı Abşeron rayon sakini itkin düşüb. «Trend»in məlumatına görə, Abşeron rayon, Qobu qəsəbə sakini, 2004-cü il təvəllüdlü Kifayət Vəlicanova 7 gündür itkin düşüb.**

Bu barədə yeniyetmə qızın yaxınları məlumat verib. Onların bildirdiyinə görə, K.Vəlicanova yaddaş pozğunluğundan əziyyət çəkir. O, evdən çıxarkən əynində qara şalvar və mavi köynək olub.

İtkin düşən şəxslə bağlı artıq Abşeron Rayon Polis İdarəsinə məlumat verilib.

# Vurduğu gənci huşsuz halda yol kənarına atıb qaçan sürücü tutuldu

**Yanvarın 12-də saat 21 radələrində Sabunçu rayonunun Kürdəxanı qəsəbəsi ərazisində müəyyən edilməmiş avtomobillə Sabunçu qəsəbə sakini 18 yaşlı İntiqam Məmmədov vurulub. Sabunçu Rayon Polis İdarəsi (RPİ) əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində yol-nəqliyyat hadisəsini törədərək hadisə yerindən yayınmaqda şübhəli bilinən "Mercedes" markalı avtomobilin sürücüsü, paytaxt sakini Eldar Əliyev saxlanılıb.**



DİN mətbuat xidmətindən "Report"a daxil olan məlumata görə, araşdırma zamanı müəyyən edilib ki, qəzadan sonra sürücü piyadanı hadisə şahidlərinin köməkliyi ilə idarə etdiyi avtomobilə mindirib və onu xəstəxanaya aparacağını bildirib. Amma sürücü hadisə yerindən bir neçə yüz metr kənarlaşandan sonra piyadanı maşından düşürüb. Daha sonra isə E.Əliyev huşu özündə olmayan zərərçəkəni köməksiz vəziyyətdə yol kənarına ataraq oradan uzaqlaşıb.

Zərərçəkənin yaxınları Sabunçu Rayon Polis İdarəsinə məlumat verəndən sonra piyadanın axtarışlarına başlanılıb. İ.Məmmədov qəzanın səhəri günü polislər tərəfindən yaralı halda atıldığı yerdən tapılaraq xəstəxanaya yerləşdirilib, hazırda vəziyyəti ağır olaraq qalır.

İstintaq zamanı o da müəyyən olunub ki, E.Əliyev bir neçə il əvvəl piyadanın vurulması ilə nəticələnən yol nəqliyyat hadisəsi törətdiyi üçün məhkəmənin qərarı ilə məhkum olunub.

Qeyd olunan faktla bağlı cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.
**Telefon: (012) 434 93 01**

# Şamaxıda dəhşətli qəza - sürücü maşını ağaca çırpdı, arvadı öldü

**Şamaxıda bir nəfərin ölümü, iki nəfərin ağır xəsarət alması ilə nəticələnən yol qəzası baş verib.**

ARB TV xəbər verir ki, hadisə Bakı-Şamaxı- Yevlax avtomobil yolunun 127-ci km də, rayonun Meysəri kəndi yaxınlığında qeydə alınıb. Qəbələ rayon Əmirvan kənd sakini 36 yaşlı Dəyanət Zəkəryayevin idarə etdiyi "Mercedes" markalı avtomobil yoldan çıxaraq ağaca çırpılıb. Qəza nəticəsində avtomobildə olan sərnişin, sürücünün həyat yoldaşı 30 yaşlı Pərvanə Zəkəryayeva hadisə yerində dünyasını dəyişib. Digər sərnişin İsmayıllı rayon Yenikənd sakini 32 yaşlı Orxan Mirzəyev və sürücü Şamaxı rayon Mərkəzi Xəstəxanasına çatdırılıb. Onların vəziyyətinin orta ağır olduğu bildirilir.

YENİ MÜSAVAT
N 10 (7180) 15 yanvar 2019

# Ziya Məmmədovun oğluna görə Londonda xüsusi komissiya yaradılır

**Zamirə Hacıyevanın oğurladıqları üzə çıxdıqdan sonra İngiltərədə daxili işlər nazirinin rəhbərliyi ilə Azərbaycandan gələn pul vəsaitlərini araşdırmaq üçün qrup fəaliyyətə başlayır; Anar Məmmədov bu ölkədə ən çox varidatı olan azərbaycanlı hesab olunur**

**Böyük Britaniyada fırıldaqçılıq, korrupsiya və çirkli pulların yuyulmasına qarşı mübarizə üzrə xüsusi qrup yaradılacaq.**




Bu barədə "Report" "Deutsche Welle"yə istinadən xəbər verir.

Qrupa maliyyə naziri Filip Hammond və daxili işlər naziri Sacid Cavid rəhbərlik edəcək. "Santander", "Lloyds" və "Barclays" banklarının nümayəndələri isə qrupun tərkibində yer alacaq.

S.Cavidin sözlərinə görə, rəsmi London korrupsiyaya qurşanmış fırıldaqçılara qarşı bütün cəbhələrdə addımlar atmaq niyyətindədir. Yeni antikorrupsiya strukturu əsasən Rusiyadan, MDB ölkələrindən, Nigeriyadan və Asiya ölkələrindən gələn pul vəsaitlərinə diqqət yetirəcək.

Britaniya Maliyyə Nazirliyinin hesablamalarına görə, ölkədə hər il ümumi dəyəri 14,4 milyard funt sterlinqə bərabər olan iqtisadi cinayətlər törədilir.

İngiltərə bir neçə il bundan əvvələdək oliqarxlar üçün cənnət sayılırdı və bu ölkəyə yönləndirilən pulların mənbələri ilə rəsmi London maraqlanmırdı. Amma dünyada çirkli pulların yuyulmasına göz yuman ölkə kimi tanınması Britaniyanı narahat etməyə başladı. Məlumdur ki, Britaniyada Azərbaycan Beynəlxalq Bankının keçmiş rəhbəri Cahangir Hacıyevin xanımı Zamirə Hacıyevaya qarşı vəsaitlərin mənimsənməsi ittihamı üzrə iki cinayət işi qaldırıblar. Ev dustağı edilən xanım Hacıyevanın dəyəri milyonlarla funt-sterlinqlə ölçülən əmlaklarına həbs qoyulub. Qərardan da göründüyü kimi, Britaniya hökuməti adları korrupsiyada hallanan əcnəbilərin, eləcə də Azərbaycandan bu və ya digər səbəbdən qaçmış digər oliqarxların yaxasını buraxmaq fikrində deyil.

Londonda bəzi azərbaycanlı oliqarxların və iş adamlarının dəyəri milyonları aşan malikanələrinin olması sirr deyil. Amma məlumatlara görə, onlar arasında ən çox varidatı olan sabiq nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovdur. Britaniyanın Cinayətkarlığa qarşı Mübarizə Agentliyinin ("National Crime Agency") yaydığı hesabatda bildirilirdi ki, Londonu çirkli pulların yuyulması və qanunsuz daşınmaz əmlakın alınması mərkəzinə çevirən şirkətlər və dövlətlər arasında Azərbaycanın da adı var. Həmçinin digər beynəlxalq hesabatlarda deyilirdi ki, sabiq MTN şefi Eldar Mahmudovla oğlu Anar Mahmudovun, eləcə də sabiq nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovun Londonda mənbəyi şübhəli olan əmlakları var. Britaniyada Məmmədovların "BROOKWOOD INTERNATIONAL IIMITED" şirkəti olduğu rəsmi mənbələrlə təsdiqlənmiş məlumatdır. Şirkətin təsisçisi və direktoru A.Məmmədovdur. Şirkətin yerləşdiyi özəl mülkiyyət isə A.Məmmədov tərəfindən hələ bir neçə il bundan əvvəl 2 milyon 700 min funt sterlinqə alınıb. Bir il əvvəl isə Məmmədovlar bu malikanəni 9 milyon 500 min funta satışa çıxarmışdılar. Malikanənin yerləşdiyi küçə Londonun bahalı ərazilərindən hesab olunur. Malikanənin satılıb-satılmadığı məlum deyil. Bilinən həm də budur ki, Məmmədovların rusiyalı və səudiyyəli oliqarxlarla Britaniyada şərikli daha bir neçə şirkətləri var.

Londonun mərkəzində tikilmiş çox bahalı "One Hyde Park" yaşayış kompleksində mənzil sahiblərindən biri Anar Məmmədovdur. Təxminən 1,7 milyard dollara başa gələn dünyaca məşhur dəbdəbəli kompleksdə mənzillərin kvadrat metri 100 min dollardan başlayır. Kompleksdə ən ucuz mənzilin dəyəri 29 milyon dollardır.

Tanınmış vəkil Əkrəm Həsənov hələ bir müddət əvvəl yerli mediaya açıqlamasında demişdi ki, "Britaniya yaxın vaxtlarda sabiq spiker Rəsul Quliyevin və keçmiş nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovun əmlakına da həbs qoymaq niyyətindədir". Güman ki, yeni yaradılacaq qrupun "qara siyahısı"na varidatının mənbəyi şübhəli olan bir neçə azərbaycanlı oliqarxın adı da salınıb. Bu sırada isə Məmmədovların başda olacağı gözlənilləndir. Yada salaq ki, A.Məmmədov iki ildən çoxdur ki, Azərbaycanı tərk edib və Bakıya hələ də bilinməyən səbəblərdən qayıtmır.

❑ **"Yeni Müsavat"**

# Nazirlərin Paris görüşü-nə gözləyək…

**Politoloq Arzu Nağıyev:** "Məhz bu görüşdən sonra 2019-cu il üçün müəyyən proqnozlar vermək mümkündür"

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistanın xarici işlər naziri vəzifəsini icra edən Zöhrab Mnatsakanyan arasında növbəti görüş yanvarın 16-da Fransa paytaxtı Parisdə keçiriləcək.**



XİN-dən axar.az-a verilən məlumata görə, danışıqlar ATƏT-in Minsk Qrupunun həmsədrlərinin (İqor Popov - Rusiya Federasiyası, Stefan Viskonti - Fransa və Əndrü Sxofer - ABŞ) vasitəçiliyi ilə baş tutacaq.

Görüşdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Andjey Kasprşik də iştirak edəcək. Görüş zamanı Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə danışıqlar prosesi müzakirə olunacaq.

Qeyd edək ki, bu, Ermənistan parlamentinin formalaşdırılmasından və hökumət başçısı seçiləndən sonra tərəflər arasındakı ilk təmasdır. Azərbaycanı hərbi əməliyyatlardan çəkindirmək istəyən qüvvələr Ermənistanda yeni hakimiyyətin iş başına gəlməsinə istinad edərək, sülh çağırışları səsləndirirdilər. Eyni zamanda müharibə partiyasının üzvü olmayan N.Paşinyan da ayrı-ayrı davranışları ilə sələflərinin səhvlərini təkrarlasa belə, son nəticədə daha məntiqli davranacağı barədə bəzi çevrələrdə inam yarada bilmişdi. Üstəlik, Azərbaycan prezidenti də dəfələrlə Ermənistanın yeni hökumətini keçmiş rəhbərliyin səhvlərini təkrarlamamağa çağırmışdı. Elə bu günlərdə dövlət başçımız Azərbaycan ordusunun istənilən tapşırığı icra etməyə hazır olduğunu deməklə yanaşı, işğalçını düzgün qərar verməyə çağırıb. Bütün bunlar qarşıdakı görüşlə bağlı müəyyən ümidlər yaradır.

Yeri gəlmişkən, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, yanvarın 15-də Tərtər rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilməsi planlaşdırılır. Bu barədə "Report"a Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster keçirəcəklər. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçirəcəklər.

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a dedi ki, Paşinyanın parlamenti formalaşdıracağına heç bir şübhə yox idi:** "Baxmayaraq ki, vəzifə bölgüsündə problemlər mövcuddur, faktiki olaraq artıq Paşinyan hökumətə rəhbərlik edəcək. Hətta bir müddət öncə Putin tərəfindən təbrik edilməməsi də bununla bağlı idi. Artıq bu təbrik də var. Eyni zamanda artıq onun istər KTMT, istər iqtisadi problemlər və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı cavabdehliyi artdı və öz vətəndaşını qışdan çıxarmaqla yanaşı həm də bu problemlərin həlli proqramını ortaya qoymalıdır". **Xarici işlər nazirlərinin yanvarın 16-da baş tutacaq görüşünə gəldikdə isə, A.Nağıyev dedi ki, burada həm də ATƏT-in Minsk Qrupunun həmsədrləri iştirak etməlidirlər:** "Doğrusu, bu görüşdən münaqişənin həlli ilə bağlı hər hansı irəliləyiş gözlənilmir, lakin yeni hakimiyyətin münaqişə ilə bağlı planlarını dəqiqləşdirmək üçün bir platformadır. Məhz bu görüşdən sonra 2019-cu il üçün müəyyən proqnozlar vermək mümkündür. Düşünürəm ki, 2019-cu il münaqişənin həllində bir dönüş ili ola bilər və olmalıdır da, əks halda, yenə də deklorativ bəyanatlar problemin həllini antiterror əməliyyatlarına və hərbi müdaxilələrə gətirib çıxara bilər. Bu haqda bütün regional aktyorlar da düşünməlidirlər". **Politoloq dedi ki, bu proseslər həm də separatçılarla Paşinyanın münasibətlərində özünü göstərəcək:** "Paşinyan Qərb və Rusiya arasında konkret seçim etməlidir, əks halda, onun fikirləri nəzərə alınmaya da bilər". A.Nağıyev qeyd etdi ki, Azərbaycan prezidenti cənab İlham Əliyev də öz çıxışlarında bir sıra mühüm mesajları səsləndirib: "Paşinyan hakimiyyəti bundan mühüm nəticələr çıxarmalıdır".

Məlum olduğu kimi, son zamanlar Azərbaycan-Ermənistan sərhədində təxribatlar törədilməkdədir. Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən verilən xəbərə görə, yanvar ayında iki dəfə Qazax və Ağstafa istiqamətindən mülki vətəndaşlarımız və texnikalarımız ermənilər tərəfindən atəşə tutulub.

Təxribatların iki ölkənin sərhədində törədilməsinin nəticələri isə düşmən üçün sarsıdıcı ola bilər. Deyəsən, ötən ilin Naxçıvan əməliyyatı dərs olmayıb...

❑ **E.PAŞASOY,
"Yeni Müsavat"**



# Ter-Petrosyan Sərkisyanı əvəz edərsə...

Hüseynbala SƏLİMOV

**Görünür ki, Ermənistanda bu həftə nəhayət ki, yeni hökumətin qurulması ilə səkkiz aydır ki, davam edən "inqilabi proseslər"in başa çatacağını zənn edənlər bir az tələsirlər. Hiss olunan budur ki, Paşinyan həzrətlərinin arsenalında hələ başqa hədəflər də var.**

Bəli, məsələ bundadır ki, erməni baş nazirini dilxor edən təkcə Ermənistanın katolikosunun hələ də öz postunda qalması deyil, onun prezident Armen Sərkisyanla da münasibətləri alınmır. Bu haqda artıq təkcə erməni mediası deyil, bu ölkədəki prosesləri araşdıran rus mediası da yazmaqda davam edir.

Maraqlısı budur ki, Paşinyanın Sərkisyanın yerinə eks-prezident Levon Ter-Petrosyanı gətirmək istədiyi, hətta gələcəkdə konstitusiyaya düzəliş edərək prezidentin xarici siyasət və müdafiə məsələləri ilə məşğul ola bilməsi üçün onun səlahiyyətlərinin artırılacağı haqda söhbətlər dolaşır.

Bu xəbərlər nə qədər inandırıcıdır? Məsələ bundadır ki, Ermənistanda "məxməri inqilab" başlayandan hamı kölgədəki liderlərdən birinin məhz L.Ter-Petrosyan olduğu deyilirdi.

Sonradan Paşinyan Ter-Petrosyanla bir neçə dəfə görüşsə də eks-prezident elə bil qeybə çəkildi, onun rəhbər olduğu siyasi təşkilat hətta növbədənkənar parlament seçkilərinə belə qatılmadı. Amma ən müxtəlif təhlilçilərin fikrincə, eks-prezidentin belə müəmmalı gedişinin də yozumu var. Onların fikrincə, Ter-Petrosyan ona görə kənara çəkildi ki, birincisi, Paşinyana mane olmasın, çünki onun ön sıralarda olması nə az, nə də çox, Qarabağı klanının əlinə əlavə bir dəlil verərdi - onlar dərhal belə bir fikri dövriyyəyə buraxacaqdılar ki, Paşinyan Ter-Petrosyanla bir olub Qarabağı Azərbaycana qaytarmağı düşünür...

İkincisi, bir sıra təhlilçilər bu fikirdədir ki, Paşinyanla Ter-Petrosyan arasında razılaşma olub və həmin razılaşmaya görə Paşinyan baş nazir olandan sonra, təxminən bu ilin yaz aylarında Ter-Petrosyan da prezident postuna gətirilməlidir. Hazırkı prezident Armen Sarkisyan "məxməri inqilab" dövründə özünü müstəqil bir siyasətçi kimi aparsa da və inqilabi proseslərə hər hansı formada əngəl olmasa da, hər halda, o, Paşinyanın tərəfdarları cərgəsinə daxil deyil, üstəlik, bir daha deyirik ki, dövriyyədə dolaşan ehtimallara görə Paşinyanla Ter-Petrosyan arasında anlaşma mövcuddur.

Yeni hökumət kabineti formalaşandan sonra prinsipcə, Paşinyan üçün prezident postunda da öz adamını əyləşdirmək elə də çətin olmayacaq və biz qısa müddətdə onun L.Ter-Petrosyanla bağlı planlarının nə dərəcədə doğru olub-olmadığını biləcəyik.

Məsələnin sırf mahiyyətinə gəldikdə isə, bu, N.Paşinyan tərəfindən atılmış ən düzgün addım olardı, çünki bu adamın özü kabinet siyasətçisi deyil və böyük siyasət meydanında hətta ötəri baxışla belə dərhal sezilən nabələdlik və naşılıq nümayiş etdirir. Ter-Petrosyan təcrübəli və həm də praqmatik siyasətçidir.

Biz burada bir daha onun Dağlıq Qarabağ problemilə bağlı məşhur açıqlamasını xatırlatmaq istəmirik, bunu hamı bilir. Məsələ bundadır ki, bizim ərazilərimiz Ter-Petrosyan dövründə işğal olundu və bu adam da uzun müddət Kremlin direktivlərilə oturub-durdu, Moskvanın vədlərinə inandı, amma sonra başa düşdü ki, bu yolun perspektivi yoxdur və o heç bir halda Ermənistana yaxşı nəsə vəd etmir və nəticədə məşhur məqalə işıq üzü gördü. Amma Kreml dərhal prosesi tənzimlədi və Ter-Petrosyan devrildi, onun yerinə R.Köçəryan gətirildi.

Bildiyiniz kimi, sonrakı dövrlərdə Ter-Petrosyan bir neçə dəfə böyük siyasətə qayıtmağa cəhd etdi, amma alınmadı. Onun qayıdışı haqqındakı növbəti söhbətlər "məxməri inqilab"la başladı ki, bunu da bir az əvvəldə ərz etdik. İndi qalır gözləmək.

Əgər Paşinyan həqiqətən də ölkəsinin real vəziyyətini anlayırsa o, mütləq Ter-Petrosyan kimi siyasətçi ilə ittifaqa getməlidir. Söhbət heç ondan da getmir ki, Ter-Petrosyan mütləq hansısa post almalıdır, bizə elə gəlir ki, ən azı yaşı ona bunu israr etməyə imkan verməz, söhbət daha çox siyasi-ideoloji ittifaqdan gedir; hazırda Ermənistan siyasətində praqmatizm çatışmır, realist düşüncə azlığı var, üstəlik ölkə olduqca çox çətin durumdadır. Onun nə iqtisadi, nə hərbi-siyasi, nə də ki, demoqrafik imkanları Azərbaycanla qarşıdurmanı davam etdirməyə imkan vermir və bizə elə gəlir ki, Paşinyan da bunu anlamaq iqtidarındadır.

O ki qaldı Ermənistan cəmiyyətin "müqavimət"inə, Dağlıq Qarabağın işğalının davam etdirilməsilə bağlı çağırışlara, bununla bağlı hansısa ciddi sosioloji sorğu yoxdur, biz dəqiq bilmirik ki, erməni cəmiyyəti bu xüsusda əslində nə düşünür.

Bildiyimiz tək budur ki, Ter-Petrosyanı heç də cəmiyyət devirmədi, üstəlik sonradan cəmiyyət K.Dəmirçiyan kimi daha praqmatik siyasətçilərə səs verdi, amma Kreml bu ssenarilərin hamısını bir-bir pozdu. Odur ki, Paşinyan da ölkəsi və cəmiyyəti üçün həqiqətən bir iş görmək istəyirsə, onun da cəmi bircə yolu vardır: Kremlin ssenarisini pozmaq...

# "İrşad Telekom"un sahibi ilə bağlı yeni sensasion iddia: "Öldürüblər..."

**Hazırda Praqada yaşayan Qadın Krizis Mərkəzinin rəhbəri Mətanət Əzizova "İrşad Telekom"un mərhum sahibi İrad Hacıyevin öldürülməsi haqda sensasion status paylaşıb.**

## Mərhumun Praqada yaşayan əmisi qızı Mətanət Əzizova sensasion status paylaşıb: "İradın biznesi və pulları kimə maraqlı idi..."

Mətanət Əzizova İrad Hacıyevin öz əcəli ilə dünyadan getmədiyini, onun məhz öldürüldüyünü iddia etməklə istintaqı ittiham edir.

Həmin statusu təqdim edirik: "İrad Hacıyev əmim oğludur. "İrşad Telecom"un təsisçisi və rəhbəri idi. Ayrı uğurlu biznesləri də var idi. Devalvasiyaya baxmayaraq, işi normal gedirdi. Son vaxtlar anasının sağlamlığı ilə məşğul idi. Ümumiyyətlə, anasına çox bağlı idi. Ölüm günündən 2 gün sonra anasını İsrailə növbəti müayinəyə aparmali idi. Biletlər əlində idi. Şəxsi həyatı isə şəxsi həyatdır-öz sevincləri və kədəri ilə. Və birdən-birə bu insan həyatdan yox oldu. 4 ay əvvəl müəmmalı şəkildə rəhmətə getdi. KİV-lər müxtəlif versiyalar yazdı, qohumlar susdu ki, istintaq gedir, səhv buraxmayaq. Və deyəsən, nahaq susduq. Bu gün mən Əzizova Mətanət hüquq-mühafizə orqanlarını ittiham edirəm. Bəli, ittiham. İrad Hacıyev intihar etməyib. İrad Hacıyevi öldürüblər və maraqlı şəxslər bunu ört-basdır etməyə çalışırlar.

Təsəvvür edin, insanın meyitini evdə tapırlar, amma hüquq-mühafizə orqanlarının nümayəndələri evdə heç bir istintaq addımları atmırlar, hadisə yerindən əl izləri götürülmür, yaxın qohumların ifadəsi dinlənilmir, nə də ki, yaxınları tərəfindən onlara təqdim edilən versiyalar araşdırılmır. Təsəvvür edin ki, "sudmedekspertiza" rəy verir və rəsmi sənəddə ölümün səbəbini intihar yazır. Ay həkim, tibbi səbəbini yaz, a bala, ürəyimi dayanıb, beynimi, axı sən həkimsən, istintaq orqanı deyilsən, intihar və ya qəsdən öldürülmə müstəntiqin işidir, həkimin yox. Və həkimin rəy əsasında cinayət işində ölümün səbəbi kimi intihar göstərilir.

### Kimlər maraqli idi onun ölümündə?

İradın biznesi və pulları kimə maraqlı idi, onlar da onu öldürüblər.

Bəli, mən ittiham edirəm ki, İrad Hacıyevi öldürüblər və hüquq-mühafizə orqanları bu işin araşdırılmasında maraqlı deyil".

Mətanət Əzizovanın paylaşımı geniş müzakirələrə səbəb olub.

"İrşad Telekom" MMC-nin rəhbəri İrad Ağahüseyn oğlu Hacıyevin meyiti yaşadığı evdə ötən il sentyabrın 14-də aşkar olunub. Həmin vaxt yayılan məlumatlarda deyilirdi ki, İrad Hacıyevin cansız bədəni yaşadığı ünvanda vanna otağında aşkar olunub, vannanın yanında çoxlu sayda dərman qutusu aşkar edilib. İrad Hacıyevin ölümü ilə bağlı Bakı Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci - özünü öldürmə həddinə çatdırma maddəsi ilə cinayət işi başlanmışdı.

Ölümündən sonra yayılan xəbərlər isə mərhumun intiharında olduqca şübhəli məqamların varlığına dəlalət edirdi. İrad Hacıyevin həyatla öz xoşu ilə vidalaşmasına böyük şübhələr vardı. Onun əmisi qızı Mətanət Əzizovanın aylar sonra yazdığı status bir daha bu şübhələrin əsassız olmadığını təsdiqləyir. Telekommunikasiya satışı sahəsində qurduğu biznesin uğurlu inkişafı İrad Hacıyevi bütün ölkəyə tanıtmışdı. Məşhur iş adamının müəmmalı ölümü haqda "Yeni Müsavat"ın 26 sentyabr 2018-ci il tarixli sayında "İrşad Telekom" sahibinin ölümündə kriminal izlər - yeni iddialar" sərlövhəli yazı dərc etmişdik.

### Həmin yazıdan sitat:

"Yeni Müsavat" xəbər verir ki, 1978-ci il təvəllüdlü İrad Hacıyev dünyasını dəyişəndən sonra onun intihar etməsi xəbəri ilə yanaşı, infarktdan ölməsi xəbəri yayılıb. Son xəbərlər isə məşhur mağazalar şəbəkəsinin sahiblərindən birinin ölümündə mübhəm məqamların olduğuna dəlalət edir. Məşhur biznesmen infarktdan ölübsə, məhkəmə tibb ekspertinə bunu müəyyən etmək üçün 1 ay vaxt lazım deyil. 1 saatın içində daxili müayinə, ürəyin ətraflı yoxlanılması konkret fikir söyləməyə imkan verir. Azərbaycanda bilik səviyyəsi yüksək olan kifayət qədər məhkəmə tibb eksperti var. Yəni iş adamının infarktdan dünyasını dəyişməsi xəbərlərinin ömrü məhkəmə tibb ekspertlərinin mərhumun meyitini xarici və daxili müayinədən keçirənə qədər olmalı idi.

Bəs nə baş verib? Onu özünü öldürmə həddinə kim çatdırıb? 40 yaşında belə bir məqama çatmış iş adamı evinə çəkilib vanna otağında özünü öldürmək niyyəti ilə niyə dərman içsin ki?"

İrad Hacıyevin müəmmalı ölümündən sonra onun qardaşı, tanınmış rejissor Əhəd Hacıyev publika.az-a açıqlamasında bildirmişdi ki, həkimlər qardaşının infarktdan dünyasını dəyişdiyini deyiblər. Ə.Hacıyev qardaşının hər hansı problem, sıxıntısı olmadığını da dilə gətirmişdi: "O, neçə il idi ki, anamızı xaricdə müalicə etdirirdi və hadisədən 2 gün sonra ora uçmalı idi. Necə ola bilər ki, bu qədər mübarizə aparan, həyata bağlı olan insan intihar etsin? Həm də onun maddi sıxıntısı, problemi yox idi. Şirkətin işləri də normal gedirdi. Ailəsi, övladları, hər şeyi qaydasında idi və onun psixologiyasına təsir edə biləcək bir şey baş verməmişdi".

Mərhum iş adamının qardaşının açıqlaması da əmisi qızı Mətanət Əzizovanın ittihamları ilə üst-üstə düşür.

40 yaşında böyük biznes uğurları qazanmış, maddi sıxıntısı, problemi olmayan, şirkətinin işləri normal gedən, ailəsi, övladları, hər şeyi qaydasında olan bir iş adamı niyə intihar etməli idi? Psixologiyasına təsir edə biləcək bir şey baş verməyib.

Maraqlıdır ki, baş verən olaydan sonra "İrşad Telekom"in digər sahibləri hər hansı açıqlama verməyiblər. Ən azı onlar da mövqelərini bildirə, İrad Hacıyevin işlə bağlı, bizneslə əlaqəli problemlərinin olub-olmamasına aydınlıq gətirə bilərdilər.

**Mətanət Əzizova şərhlərdən birinə cavab olaraq İrad Hacıyevin şəriki haqda yazır:** "İrşad - İrad və Rəşad deməkdir. 2 dost idilər. İrad və Rəşad iki təsisçidirlər. Amma əsas İrad idi. Bu gün Rəşad, deyəsən, öz dostunu unudub, baxmayaraq ki, İrad öz oğluna onun adını qoyub".

İrad Hacıyevin ölümündən sonra "Yeni Müsavat"ın əməkdaşı bu və digər iddiaların nə dərəcədə doğru olmasına aydınlıq gətirmək üçün "İrşad Telecom"la da əlaqə saxlamışdı. Həmin vaxt suallarımızı dinləyib münasibət açıqlayacaqlarını bildirsələr də, sonradan hər hansı bir açıqlama verilməmişdi.

Qeyd edək ki, İrad Hacıyev biznes şəbəkəsini 22 yaşı olanda, 2000-ci ildə Rəşad adlı şəriki ilə yaradıb. 2007-ci ilə qədər "İ&R Telecom" kimi fəaliyyətdə olan şirkət həmin ildən "İrşad Telecom" (İrşad İ.R. MMC) adı altında fəaliyyətini davam etdirməkdədir. İrşad sözünün İrad və Rəşad sözlərinin birləşməsindən yaranması haqda da xəbərlər var. Bildirilir ki, bir müddət əvvəl şirkətdə daha bir nəfər rəhbər şəxs peyda olub. İrad Hacıyevin həmin şəxslə münasibətləri o qədər də isti olmayıb. Belə xəbərlər də var ki, 2000-ci ildən bu günə qədər şirkətin 31 mağazaya qədər böyüməsində İrad Hacıyevin böyük əməyi olub. Şirkətin bundan sonrakı dövrdə digər bir holdinqin daxilində fəaliyyəti haqda da ona təkliflər edilibmiş. Lakin İrad Hacıyevin bu təklifləri qətiyyətlə rədd etməsi iddiası da var.

**Bakı Şəhər Prokurorluğundan iddialara münasibət öyrənə bilmədik. Bununla belə, prokurorluğun da mövqeyini dərc etməyə hazırıq.**

❑ E.MƏMMƏDƏLİYEV,
"Yeni Müsavat"



Matanat Azizova
1 ч. ·

Paylashsaniz minnetdar olaram.
ITTIHAM edirem!
Irad Haciyev emim ogludur. Irshad telecomun tesischisi ve rehberi idi. Ayri ugurlu biznesleri de var idi. Devalvasiyaya baxmayarag ishi normal gedirdi. Son vaxtlar anasinin saglamligi ile meshgul idi. Umumiyetle anasina chox bagli idi. Olum gunnen 2 gun sonra anasini Izraile novbeti muayineye aparmali idi. Biletler elinde idi. Shexsi heyati ise shexsi heyatdir, oz sevicleri ve kederi ile. Ve birden bire bu insan heyatdan yox oldu. 4 ay evvel muemalli shekilde rehmete getdi. KIVler muxtelif versiyalar yazdi, qohumlar susdu ki istintag gedir, sehv buraxmayag. Ve deyesen nahag susdug.
Bu gun men Azizova Matanat huquq muhafize organlari ittiham edirem. Beli, ittiham. Irad Haciyev intihar etmeyib. Irad Haciyevi oldurubler ve maragli shexsler bunu ort basdir etmeye chalishirlar.
Tessevvur edin, insanin meyitini evde tapirlar, amma hugug muhafize organlarin numayendeleri evde hech bir istintag addimlari atmirlar, hadise yerinnen el izleri goturulmur, yaxin gohumlarin ifadesi dinlenilmir, ne de ki yaxinlari terefinden onlara tegdim edilen versiyalar arashdirilmir. Tessevur edin ki sudmedekspertiza rey verir ve resmi senedde olumun sebebini intihar yazir. Ay hekim, tibbi sebebini yaz, a bala, ureyimi dayanib, beyni mi, axi sen hekimsen,istintag organi deyilsen, intihar ve ya gesden oldurulme bu mustentigin ishidir, hekimin yox. Ve hekimin reyin esasinda cinayet ishinde olumun sebebi kimi intihar gosterilir.
Kimler maragli idi onun olumunde? Iradin biznesi ve pullari kime maragli idi onlar da onu oldurubler.
Beli, men ittiham edirem ki, Irad Haciyevi oldurubler ve hugug muhafize organlari bu ishin arashdirmasinda maragli deyiller.



YENİ MÜSAVAT
N 10 (7180) 15 yanvar 2019

# İqtidar müxalifətlə necə davransın...

## Müxalif partiya sədrindən dialoq təklifi: "Münasibətlərin sivil müstəviyə keçməsinin vaxtı çoxdan çatıb"

**Azərbaycanda iqtidar-müxalifət münasibətlərində uzun illərdir gərginlik yaşanır. Zaman-zaman gərginlik azalsa da münasibətlərdə istiləşmə mümkün olmur. Tərəflər bir-birini hər fürsətdə ittiham edir. İqtidarın bütün dövlətlərdə olduğu kimi resurslarının müxalifətlə müqayisədə çoxluğu isə mübarizədə ikincinin daha ciddi zərbələr almasına gətirib çıxarır. Nəticədə bir sıra müxalifətçilər xarici ölkələrdə yaşamağa üz tutur. Xaricə üz tutan müxalifətçilər gedib oradan hakimiyyəti daha kəskin formada hədəfə alırlar. Bir çoxları isə təkcə iqtidara qarşı deyil, bütövlükdə dövlətə qarşı iş aparırlar.**

Ölkədə qalanların sırasından isə kim həbs edilirsə azadlıqda olduqlarından daha çox problem yaradırlar. Belə ki, həbsdə olan müxalifətçilər hakimiyyət üçün daha böyük başağrısına çevrilir. Bunu artıq hakimiyyət deputatları da müsahibələrində, açıqlamalarında etiraf etməkdədirlər.

Bəs vəziyyətdən çıxış yolu nədir? Müxalifət iqtidardan müxalifətlə bağlı siyasətində dəyişiklik gözləyirmi?



**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev "Yeni Müsavat"a bildirdi ki, iqtidar-müxalifət münasibətlərinin sivil müstəviyə keçməsinin vaxtı çoxdan çatıb, artıq ənənəvi taktika iqtidarın xeyrinə işləmir:** "Təbiət elmlərindən fizikada İsaak Nyutonun 3-cü qanunu var: təsir əks təsirə bərabərdir. Hakimiyyət uzun illərdir ki, öz siyasi rəqiblərini bütün mümkün vasitələrlə sıxışdırmaq istəyir. Burada fizikanın başqa qanunu işləməyə başlayır: birləşmiş qablar prinsipi. Qabların birindən maye sıxıldıqda, digər qabda onun səviyyəsi yüksəlir. Kimlərsə düşünürdü ki, neft pulları hesabına opponentləri susdurmaq, sıradan çıxarmaq, ölkədən qaçırmaq yolu ilə problem həll ediləcək. Zaman göstərdi ki, bu, yanlış taktikadır, get-gedə hakimiyyətin özünü zərbə altında qoyur. Müxalifəti ölkədə sıradan çıxarmağın mümkün olmadığı artıq hər kəsə məlumdur. Sübut edildi ki, nə qədər sərt metodlar tətbiq edilsə də müxalif mövqe harada olsa özünü göstərəcək".

**Partiya sədri hesab edir ki, vəziyyətin sivil münasibətlər müstəvisinə keçməsi mümkündür. Bunun üçün isə ilk növbədə iqtidar tərəfindən addımlar atılması lazımdır:** "Fikrimcə, taktika dəyişməli, mədəni siyasi münasibətlər, siyasi mübarizə formalaşmalıdır. Bunun isə yolu dialoqdur. İqtidardakılar inkarçılıqdan imtina etsə, ölkədə siyasi müxalifətin mövcudluğunu qəbul etsə münasibətlər sivil müstəviyə keçəcək. Bundan isə həm ölkəmiz, həm iqtidar, həm müxalifət qazanacaq".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# QAT ABŞ səfirliyi önündə aksiyalara başlayır

## Akif Nağı: "Separatçıların "Artsax TV" açması Amerika rəhbərliyi səviyyəsində razılaşdırılıb"



**Xəbər verildiyi kimi, "İntelsat 33" peyk operatoru Dağlıq Qarabağdakı qondarma rejimin "Artsax TV" adlı telekanalını yayımlamağa başlayıb. Belə ki, erməni separatçılarının telekanalı bu peykdə yanvarın 6-dan görünməyə başlayıb və HD formatında yayımlanmaqdadır. Hətta belə məlumatlar var ki, "Artsax TV" Qarabağa turist cəlb etmək üçün təbliğat xarakterli reklam proqramları, verilişlər təqdim edir.**

Amerika peykində olan "İntelsat 33" peyk operatoru 2017-ci ildən fəaliyyət göstərir və Avropanı, Asiyanı, Yaxın Şərqi, Afrikanı, Aralıq dənizi və Hind okeanı regionlarını əhatə edir. Bu isə o deməkdir ki, Qarabağın separatçı ermənilərinin telekanalına Türkiyə, Gürcüstan, İran, Rusiyanın bir hissəsi, Ukrayna, bir sıra Avropa və Yaxın Şərq ölkələrində baxa bilərlər.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin mətbuat katibi Zamirə Ədilova mediaya açıqlamasında bu mövzu ilə bağlı cavab veriləcəyini qeyd edib. Xarici İşlər Nazirliyindən də hələlik rəsmi münasibət olmayıb.

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı** isə "Yeni Müsavat"a bildirdi ki, dövlət tərəfindən ciddi addımlar atılmasa, ABŞ səfirliyi qarşısında bir həftə aksiya keçirəcəklər. Onun sözlərinə görə, ermənilərin telekanal açması ABŞ rəhbərliyi səviyyəsində razılaşdırılıb: "Azərbaycan bu məsələdə sərt mövqe tutmalıdır. Sözsüz ki, Amerikaya qarşı sərt addımların atılmasının nəticəsi olmayacaq. Bəllidir ki, ABŞ qondarma rejimi himayə edirsə, bu telekanalın fəaliyyətə başlaması da dövlət səviyyəsində həll olunub. Amma Azərbaycan danışıqlardan imtina etməlidir".

**QAT sədri hesab edir ki, Ermənistan mövqeyindən çəkilmir, ATƏT-in Minsk Qrupu tərəfindən anti-Azərbaycan addımlar atılır:** "Bu halda biz nəyi müzakirə edirik? Yanvarın 16-da nazirlərin görüşü keçiriləcək. Ermənistan bəyan edir ki, Qarabağ məsələsini bitirmişik. Onda hansı danışıqları aparırıq? Azərbaycan amerikalı həmsədrin olduğu ATƏT-in Minsk Qrupundan danışıqlardan çıxmalıdır. Eyni zamanda Türkiyədə ermənilər telekanal açdılar. Adını qoyublar ki, guya erməni mədəniyyətinin təbliğatına hesablanıb. Amma əmin olun ki, Azərbaycana qarşı siyasət aparacaqlar. Türkiyə niyə buna şərait yaradır, başa düşülmür. Bundan əvvəl də "Aqos" qəzeti nə oyunlardan çıxırdı. Bilmirəm bu, yanlış siyasətin nəticəsidir, yoxsa Türkiyə ikili standartlarla oynayır. Hər halda, Azərbaycan dövlətindən ciddi addımlar gözləyirik. Əgər addım atılmasa, QAT ABŞ səfirliyi önündə bir həftə aksiya keçirəcək".

**A.Nağı onu da bildirdi ki, teleməkanda bir yox, bir neçə Qarabağ telekanalı fəaliyyətə başlamalıdır:** "Həm də internet telekanalları olmalıdır. Niyə Qarabağla bağlı televiziyamız olmasın? Üstəlik, bir neçə dildə fəaliyyət göstərməlidir ki, daha geniş auditoriya qarşısına çıxa bilsin".

Bildirək ki, beynəlxalq telekommunikasiya nəhəngi "İntelsat" 50 süni peyki idarə edir və mənzil-qərargahı ABŞ-da və Lüksemburqda yerləşir. "İntelsat 33" peyki Amerikanın "Boeing" korporasiyası tərəfindən istehsal edilib.

Deputatlar Aqil Abbas və Elman Məmmədov, ekspert Osman Gündüz rəsmi Bakının Qarabağ ermənilərinin telekanalının ABŞ peyki ilə yayımlanmasına qarşı təcili hərəkətə keçməsinin vacibliyini vurğulamışdılar.

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Sərdar Cəlaloğlundan Müsavat, AXCP və REAL-la bağlı sərt mövqe

## "Onların hərəkatda olmaması fəaliyyətimizə heç bir kölgə sala bilməz..."

**Son aylarda Azərbaycan müxalifətində bir canlanma müşahidə edilir. Bunu isə daha çox "Müxalifətin zirvəsi"ndə görmək mümkündür. Yanvarın 26-da "Müxalifətin zirvəsi" xalq hərəkatını elan edəcək. Artıq bu istiqamətdə fəaliyyət genişlənməkdədir.**

Müsavat, AXCP və REAL-ın xalq hərəkatını boykot etməsi də müzakirələr sırasındadır. Məsələ ilə bağlı "Müxalifətin zirvəsi"ndə təmsil olunan **ADP sədri Sərdar Cəlaloğlu** səslənən fikirlərlə bağlı "Yeni Müsavat"a öncə bunları dedi: "Azərbaycanda mövcud və proqnozlaşdırılan iqtisadi vəziyyət ölkəmizi ciddi şəkildə təhdid edir. Azərbaycanı sosial sahədə ciddi problemlər gözləyir. Xalq hərəkatının yaranmasının əsas səbəblərindən biri isə bu kataklizmləri önləmək, ölkəmizdə xalqın etirazlarını nizamli şəkildə təşkil etməkdir. Bu xalq hərəkatı xalqın özü-özünü qorumaq hərəkatı olacaq. Artıq hərəkatın hədəfləri, məqsədləri, planları tam məlumdur".

**ADP sədri Müsavat, AXCP və REAL-ın özlərini "Müxalifətin zirvəsi"ndən kənarda tutmasına da toxundu:** "Bundan bir neçə il əvvəl həqiqətən də Müsavat və AXCP ölkənin əsas aparıcı siyasi qüvvələrindən sayılırdı. Təşkilatlanma və lider potensiallarına görə digər siyasi partiyalardan irəli getmişdilər. Bir müddət Müsavat və AXCP müəyyən qədər təşəbbüsü ələ almağı bacarmışdılar. Son hadisələr göstərdi ki, hər iki partiya bu imkanları itirib. REAL-a gəlincə, bu təşkilat bir partiya kimi formalaşmayıb, Azərbaycanın ictimai-siyasi həyatına onun heç bir təsiri yoxdur, partiya kimi fəaliyyətləri belə görünmür. REAL-ı AXCP və Müsavatla bir sıraya qoymaq bu iki partiyanı heçə endirmək deməkdir. Bunlar arasında heç bir bərabərlik işarəsi yoxdur. REAL, sadəcə, təşəbbüskar insanlardan ibarət təşkilatlanmamış bir qurumdur. Aparıcı dediyiniz bu qurumlar aparıcı deyillər. Əslində ölkəni gözləyən bu təlatümlərin qarşısını almaq üçün təşəbbüsü onlar qaldırmalı idilər. Əgər onlar mövcud vəziyyətdə təhlükəni dərk edə bilmirlərsə, təhlükəni önləmək üçün konkret addımlar atmırlarsa, demək, onlar aparıcı partiyalar deyil. Hərəkətləri və fəaliyyətləri bunları sübut edir. Demokratiyanın nə olduğunu anlamayan insanları üzv kimi yazıb bu qədər üzvüm var deməklə heç nə həll olunmur. Belə məşhur bir fikir var ki, kəmiyyət heç zaman keyfiyyəti əvəz edə bilməz, amma keyfiyyət daim kəmiyyəti əvəz edə bilər. Yəni üzvlərin sayı siyasiliyi müəyyən edə bilməz. Amma siyasilik üzvlərin sayından da artıq iş görə bilər. Belə bir məşhur fikir də var ki, tarixin təkərini tək-tək adamlar döndərib, kütlələr yox. Hansısa bir partiyanın üzvlərinin çoxluğu, siyasi cəhətdən yetkin olmayan insanları öz tərəfinə yığması hələ onun aparıcı partiya olması deyil. Əgər təhlükəni görüb, bu istiqamətdə addımlar atan qurumlar varsa, deməli, ölkədə əsas aparıcı qurumlar da onlardır. Fəaliyyət kimlərin aparıcı olduğunu göstərir. Təşəbbüs irəli sürənlər aparıcı olurlar. Xalq hərəkatı təşəbbüsü irəli sürüləndə onlar da təşəbbüs göstərdilər, birləşmək istədilər. Hər kəs gördü ki, heç bir nəticəsi olmadı. İmkanları, potensialları olmadı ki, heç olmasa üçü bir araya gəlsin. Bu baxımdan hesab edirəm ki, Müsavat, AXCP və REAL-ın hərəkatda olmaması fəaliyyətimizə heç bir kölgə sala bilməz. Hərəkatın taleyini hərəkatda təmsil olunanlar verdikləri qərarlarla müəyyən edəcəklər".



**Partiya sədri "Müxalifətin zirvəsi"nin demokratik düşərgədə təşəbbüsü ələ ala bilib-bilməyəcəyinə də toxundu:** "Hər şey xalqdan asılıdır. Əgər xalq hərəkatı tam şəkildə dəstəkləyəcəksə, avtomatik olaraq hərəkat təşəbbüsü ələ alacaq. Xalq burada olmayandan sonra təşəbbüskarlığın bir əhəmiyyəti qalmır. Hərəkatın iki hədəfi olacaq: Qarabağın müdafiəsi və Azərbaycanda demokratikləşmə. Biz nəzərdə tutmuşuq ki, Qarabağın müdafiəsini Qarabağ Komitəsi daxilində aparaq. Xalq hərəkatının yaranmasında Qarabağ Komitəsi stimul rolunu oynayıb. Demək olar ki, hərəkatda və komitədə təmsil olunanlar eyni adamlardır. Müzakirələrdə fikir ayrılıqlarının olması tamamilə normaldır. Eyni cür düşünməyin özü bir anormallıqdır. Burada elə şəxs var ki, heç nədən xəbəri, yaxud təcrübəsi yoxdur. Dünən partiya yaradıb meydana çıxan adamla 30-40 il siyasətlə məşğul olan adam eyni xidməti verirsə, bu, sadəcə, anormallıq olar. Hərəkat daxilində heç bir fikir ayrılığı yoxdur. Sadəcə, hər birimizdə ciddi məsuliyyət hissi var. Bu baxımdan hər kəs öz düşündüyünü açıq şəkildə deyir. Nəticədə bəzi fikirlər haçalaşır. Buna da normal baxmaq lazımdır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

**... İmaddədin Nəsimi deyəndə göz önündə qeyri-ixtiyari xalq artisti Rasim Balayev canlanır. Azərbaycan tamaşaçısının Nəsimi yaddaşı, Nəsimi cizgiləri R.Balayevin simasında öz əksini tapır.**

*Sevimli aktyorumuz Nəsimi obrazını eyniadlı filmdə elə məharətlə, ustalıqla yaradıb, elə möhürünü vurub ki, 1973-cü ildən bəri heç bir aktyor bu obraza yaxınlaşa bilmir.*

*Ona görə də prezident İlham Əliyevin 2019-u "Nəsimi ili" elan etməsindən sonra sosial şəbəkə istifadəçiləri R.Balayevin şəkillərini paylaşırlar, həm aktyora, həm şairə rəğbətlərini nümayiş etdirirlər.*

*Bu mövzuda hörmətli aktyorumuzla söhbətləşdik. Onun "Yeni Müsavat"a müsahibəsini təqdim edirik:*

# "Dünyaya və elə özümüzə də Nəsimini tam çatdıra bilməmişik"

## Rasim Balayev: "Prezidentin qərarı çox gözəldir, yaxşı olardı Nəsimi haqda 2-3 seriyalı film çəkilsin"

***- Rasim müəllim, "Nəsimi ili" elan olunmasını necə qiymətləndirirsiz?***

- Mənim fikrim qətidir ki, çox gözəl addımdır. Prezident sağ olsun ki, Nəsimi ili elan edib. Onun tanıdılması istiqamətində bu günə qədər bir çox işlər görülüb. Amma dünyaya və elə özümüzə də Nəsimini tam çatdıra bilməmişik. O baxımdan əhəmiyyətli qərardır. Güman edirəm ki, Nəsimi ilə bağlı müəyyən konfranslar, tədbirlər keçiriləcək. Gah Nizamini fars şairi elan edirlər, gah Füzuli haqda danışırlar. Ona görə Nəsimini daha geniş auditoriyaya tanıtmaq lazımdır.

Xatırlayıram, müəyyən qəbil insanlardan sorğu keçirirdilər, Bakıda heykəlləri göstərirdilər, görürdüm ki, şairlərimizi tanımırlar. Mən başa düşə bilmirəm, orta məktəblərdə ədəbiyyat keçirilmir? Kitablarda Nəsimi, Nizami, Füzuli haqda məlumat vermirlər?

***- Bu mənada "Nəsimi" filminin çəkilməsi şairin tanıdılması işində nə dərəcədə rol oynadı?***

- Nəsiminin 600 illiyi, səhv etmirəmsə, 1969-1970-ci illərə düşürdü. Elə 1973-cü ildə filmə çəkildik. O vaxt 40 Nəsimi portreti çəkilmişdi.

Amma rəhmətlik rəssam Mikayıl Abdullayevin "Nəsimi"si qəbul olundu. Mənə deyirdilər ki, sən Mikayıla təşəkkür etməlisən, Nəsimi portretini sənə oxşadıb.

Həmin dövrdə Mikayılın paxıllığını çəkən rəssamlar danışırdılar ki, o portret bədii təxəyyülün nəticəsi deyil, Rasim Balayevə baxıb çəkib. Halbuki Mikayıl Abdullayev məni tanımırdı, mən onu tanıyırdım.

Ona görə təsadüfən olan bir işdir. Ononla görüşdüm, dedi ki, Rasim, mənə də eyni sözü bildiriblər. Amma təsadüfən portretə oxşamışdım, ondan əvvəl artıq filmə dəvət edilmişdim.

Bu filmdən sonra Nəsimi haqqında poemalar yazıldı, Azərbaycanda daha geniş tanındı. O vaxta qədər müəyyən səviyyədə tanınırdı.

Yadımdadır ki, orta məktəbdə Nəsimidən yarım səhifə verilmişdi, şəklinin altına "Zahidin bir barmağın kəssən dönər, haqda qaçar" misrası verilmişdi. Film isə İmadəddin Nəsimini xeyli tanıtdı.

***- "Nəsimi ili" elan olunması ilə yenidən bu filmi fərqli şəkildə çəkmək olarmı?***

- Mən sizə deyim ki, Moskva Azərbaycana iki seriyalı film çəkməyə icazə vermirdi. Sonra biz "Dədə Qorqud"u iki seriyalı çəkdik, Moskvada göstərdilər. Ondan sonra iki seriya "Babək" filminə icazə verildi. Əslində "Nəsimi" filminin materialı də iki seriyalı idi, amma icazə yox idi deyə məcbur olub onu yığcamlaşdırıb bir seriya çəkdilər.

Fikrimcə, prezidentin bu qərarından sonra indi Nəsimi haqda 2-3 seriyalı geniş, ətraflı film çəkilməlidir. Nəsiminin tanıdılması üçün çox əhəmiyyətli hadisə olar.

***- Siz yenidən "Nəsimi"ni oynamağa hazırsınızmı?***

- İndi onun cavanlığını yox, qocalığını oynaya bilərəm. Amma gəncliyini hansı aktyor oynaya bilər, onu demək çətindir. Yəqin ki, belə aktyor var - yetişdirilməlidir, tapılmalıdır. Necə ki, məni tapmışdılar. Amma yaxşı olardı ki, 2-3 seriyalı film çəkilsin.

***- Rasim müəllim, siz "Nəsimi"də bir möhür vurmusuz, ona görə indi 2019 "Nəsimi ili" elan olunduğu üçün şəkillərinizi sosial şəbəkələrdə paylaşırlar. Bundan xəbəriniz varmı?***

- Mənim üçün çox xoş mənzərədir. Çox sevindirici haldır ki, Nəsimi deyəndə yada düşürəm. Bu, həm yaşlı bir adam, həm sənət insanı üçün çox xoşdur. Ümumiyyətlə, "Nəsimi ili"ndə xeyli işlər görülə bilər, onun şeirləri gəncliyə, məktəblilərə öyrədilməlidir. Nəsiminin şeirlərində məhəbbət var, vətənə vurğunluq var, ilahiyə vurğunluq var. Hər şey var. İstəyən adam orada çox məna tapar.

***- Nəsimi üsyankar, ideya şairi idi. Siz müasir ədəbiyyatımızda ikinci belə şairin adını çəkə bilərsinizmi?***

- Yəqin ki, belə üsyankar şairlərimiz olub, var. Amma mən yəqin tanımıram. Yeni zülmlərə qarşı mübarizə aparan şairlər olub. Axtarsaq tapılardı.

***- Rasim müəllim, bu gün çox insanlar maraqlanırlar, tez-tez soruşurlar ki, Nəsiminin edam səhnəsi necə çəkilib, hansı şəkildə ərsəyə gəlib...***

- Açığı, o dövr edam səhnəsini necə oynamaq lazımdır bilmirdim. Ona qədər film sahəsində eşitməmişdim ki, insanın dərisi soyulsun.

Hansısa filmdə yandırmaq, güllələmək səhnələri olub. Amma soyulan adam necə olmalıdır, bilmirdim. Fikirləşirdim ki, axı mən necə edim.

O zaman İsa Hüseynov (Muğanna - E.S.) dedi ki, Rasim, əllərinə mıx batır, sıx və ağrını hiss elə. Mən də cavan, enerjili adam idim.

Götürüb mıxı basdım əlimə, ayağıma, gördüm ki, qan çıxır, amma ağrını elə də hiss etmirəm. Məsələn, mənim dərimi soysalar qışqırığıma dünya çıxar (gülür - E.S.)

Axı bu Nəsimidir! Nəsimini dar ağacında yaratmaq üçün həm dözümlülük, həm ağrıları vermək, o əzəməti nümayiş etdirmək lazım idi.

Nəhayət, rejissorla tapdıq ki, səsindəki iniltini verək. Yeni şairin əzəmətini saxladıq. Ona görə də inildəmək ən uyğun variant idi. Və mən sizə danışım ki, filmdə soyulan ayaq mənim deyil, başqa ayaq idi.

***- Bəs kimin ayağıdır?***

- Həmin çəkilişlər Özbəkistanın Xivə şəhərində gedirdi. Oradakı meydanda edam səhnəsini çəkdik. Nəsimi yeganə filmdir ki, dekorasiya yoxdur.



### "Mənim dərimi soysalar, qışqırığıma dünya çıxar"

Məsələn, "Babək", "Dədə Qorqud" filmlərində həm dekorasiya, həm natura var. Ancaq "Nəsimi" filmində dekorasiya yoxdur. Mən də ayağın soyulması səhnəsinə çəkilmək üçün geyinib gözləyirdim. Bu vaxt gəlib dedilər ki, yaxşı qarpız gətiriblər. Biz də isti hava idi, sərin qarpız yeməyə getdik. Bu vaxt məni axtarıblar ki, başımı və ayağımı çəksinlər. Rəhmətlik Həsən Seyidbəyli də hirslənirdi, şəkər xəstəliyi varı idi. Biz də qarpız yeməyə getmişik, məni tapa bilməyiblər. Bizim rəhmətlik, çox gözəl operatorumuz Rasim İsmayılov var idi. Çox sakit adam idi. "Babək", "Dədə Qorqud" filmlərində də operator olub. Sonra rejissorluğa başladı. Rasim İsmayılov görüb ki, mən yoxam, Seyidbəyli bərk hirslənib, deyib ki, gəl belə edək, başqa ayaq tapaq çəkək.

Qayıdanda gəldim gördüm ki, bizdə işıqçı Rüstəm var idi, onun ayağını soyundurub çəkiblər. Film ekrana getdi, böyük tamaşaçı kütləsi qazandı.

Bir dəfə çimərlikdə gəzirdim. Gördüm ki, adamlar mənim ayağıma baxırlar və deyirlər ki, Rasim Balayevin normal ayaqları var axı oradakına oxşamır (gülür - E.S.)

Ən əsası çox gözəl film alındı, tamaşaçı tərəfindən qəbul olundu. Mənim üçün çox xoşdur ki, insanlar sosial şəbəkələrdə indi "Nəsimi ili" ilə əlaqədar fotolarımı qoyurlar. Hər kəsə nəsib olmayan xoşbəxtlikdir. Mən o insanlara təşəkkürümü bildirirəm.

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# Tahir Kərimlinin ayların adını dəyişmək ideyası başına bəla oldu

## "Görünür, o, sahəsində özünü göstərə bilmir və belə təkliflər irəli sürür"

**Deputat, Vəhdət Partiyasının sədri Tahir Kərimli bu dəfə təqvim aylarına milli adların verilməsi təklifi ilə çıxış edib. Deputat bir sıra dövlətlərin təqvim adlarını dəyişmək cəhdlərinin uğursuz olmasının, həmçinin qarışıqlaşa biləcəyimiz digər çətinlikləri nəzərə alaraq, Qriqorian təqvimini saxlamaqla, paralel olaraq, təqvim aylarına aşağıdakı milli adların təklif edib:**

İlk ay (yanvar); Soyuq (çillə ay) ay (fevral); Boz ay (mart); Yağış ayı (aprel); Çiçək ayı (may); Əkin ayı (iyun); İsti ay (iyul); Biçin ayı (avqust); Məhsul ayı (sentyabr); Qızıl ay (oktyabr); Xəzəl ayı (noyabr); Son ay (dekabr).

Kərimli deyib ki, sadə və anlaşılan bu sözlər 100 illərlə xalq dilində işlənib. Və mənasını hamı anlayır: "Ukraynalılar "Serpen", "Jovtnya", "Listopada" ay adları işlətməklə özlərinə böyük hörmət aşılatdıra biliblər. Biz də ən azı məişət və ədəbiyyatda bu adlardan istifadə edə bilərik".

Qeyd edək ki, ötən il Tahir Kərimli Azərbaycanın dövlət himninin sözlərində və musiqisində bəzi dəyişikliklərin edilməsi təklifi ilə gündəmə gəlmişdi. Onun bu təklifi ölkə ziyalıları tərəfindən sərt təpki ilə qarşılandı və deputatın yanlış fikir söylədiyi bildirildi. Onun növbəti təklifinə də reaksiyalar birmənalı deyil. Sosial şəbəkələrdə xeyli gülüş doğuran reaksiyalara rast gəlinir...



**"Yeni Müsavat"a danışan Dil komissiyasının üzvü Muxtar İmanov bildirib ki, yaxşı olar Tahir Kərimli öz sahəsi üzrə təkliflər irəli sürsün:** "Bu, Tahir Kərimlinin subyektiv fikridir. Belə bir təklif irəli sürürsə, qoy sürsün. Lakin arzu edərdim ki, bizim deputatlarımız, xüsusilə də hüquq sahəsində çalışan mütəxəssislərimiz öz işləri ilə məşğul olsalar, bu sahədə dövlətə, xalqa xeyir versələr daha yaxşı olar. Onun fikirlərinə hörmətlə yanaşıram. Ancaq bu, mənə son dərəcə şairanə təklif təsirini bağışlayır. Arzu edərdim ki, Tahir Kərimli şairanə təkliflə yox, hüquq müstəvisində ciddi təkliflərlə gündəmə gəlsin. Parlamentdə onun çox ciddi missiyası var. Bu missiya ilə məşğul olarsa, daha yaxşıdır. Bir adam hansısa təklifi etməklə, ayların adı dəyişməz. Hər yerindən duran bu cür təklif edəndə ayların adı dəyişmir axı. Asif Əfəndiyev də ayların adının dəyişməsi ilə bağlı təklif vermişdi. İndi kimsə belə təklif verirsə, o demək deyil ki, ayların adı dəyişəcək. Görünür, Tahir Kərimli sahəsində özünü göstərə bilmir. Ona görə də bu cür qeyri-adi fikirlərlə isə gündəmdə olmaq istəyir. Məndən bu fikirlərimə görə inciməsin. Sadəcə, hər kəs öz sahəsi ilə bağlı yeniliklər, təkliflər irəli sürərsə, daha yaxşı olar. Nəinki gündəmdə qalmaq və ya nəyinsə xatirinə bu cür qeyri-adi təkliflər irəli sürülsün".

**Deputat Fazil Mustafa da bildirib ki, onda belə çıxır ki, dindarlar da aylara fərqli ad qoysunlar:** "Açığı, bu cür təklif mənim üçün təəccüblüdür. Ancaq hər bir şəxsin hansısa təklifi irəli sürmək ixtiyarı da var. Ayların adını dəyişməklə nə dəyişəcək? Ona görə də bu təklifi dəstəkləmirəm. Sadəcə olaraq, bu fikirlərə saygı ilə yanaşıram. Ən azından bir şəxs təklif irəli sürübsə, bunu müzakirə etmək olar. Lakin ayların adlarının dəyişməsi üçün heç bir zərurət görmürəm".

**AĞ Partiya sədri Tural Abbaslı bildirib ki, Tahir Kərimlinin fikirlərini uğurlu hesab etmir:** "Ona görə yox ki, ideya uğursuzdur. Bu gün cəmiyyətimizdə ayların adını dəyişməkdən, himninin mətnini qısaltmaqdan daha vacib işlər var. Yeni əhalinin dolanışığı, gəlirləri, yaşayış vəziyyəti, müxtəlif sahələrdəki problemlər daha lazımlıdır. Bu kimi məsələlərlə bağlı Milli Məclisdə deputatlar tərəfindən təkliflər səslənib, çıxış yolu göstərilsə, məncə, daha yaxşı olar. Belə olarsa, təkliflər cəmiyyət tərəfindən də daha yaxşı qarşılanar və ironiya ilə müşahidə olunmaz. Siyasətçi üçün unudulmaq, yaddan çıxmaq bəlkə də ən təhlükəli məsələdir. Tahir bəyə də yəqin ki, ciddi mövzulardan danışmaq yasaq olduğu üçün belə absurd, yersiz təkliflər səsləndirib. Ümumi vəziyyəti sistemin günahı kimi dəyərləndirirəm. Çıxış yolları, qanunvericilikdə dəyişikliklərə insanların həyatını yaxşılaşdırmağa çalışmalı olan millət vəkillərimiz görün hansı mövzulara toxunurlar. Bunun özü məyusedici haldır. Əminəm ki, bu gün parlamentin 90 faizi belə vəziyyətdədir. Təklifim odur ki, ya bu şəkildə parlamentə getməsinlər, ya da oturduqları kürsülərin haqqını verib, xalqa faydalı işlərlə məşğul olsunlar".

❑ **Əli Rais,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 10 (7180) 15 yanvar 2019

**Azərbaycanın xidmət və iaşə sektorundakı qiymət xaosu xarici və yerli turizmin inkişafına mənfi təsirini göstərməkdədir. Belə ki, zaman-zaman mətbuatda eyni menyunun turistlərə 2-3 dəfə artıq qiymətə satılması, bəzi istirahət mərkəzlərində yarım litr adi suyun 5 manata təklif olunması, həmçinin kafe və restoranlarda 1 stəkan çay içmək istəyən müştəriyə 30 manatlıq dəsgahın sırınması məsələsi müzakirəyə çıxarılıb.**

# Xidmət və iaşə sektorundakı qiymət xaosu

## Ölkə turizminə zərbə vuran fürsətçiləri necə durduraq; **iqtisadçı:** "Qiymət özbaşınalığına son qoyulması üçün dövlət kompleks tədbirlər həyata keçirməlidir"



Nəticədə son 3 ildə yaşanan turist axını getdikcə zəifləməkdədir. Yeni il ərəfəsində turizm məkanlarında turist az olduğu kimi, Novruz bayramına da öncədən edilən rezervlərin sayında azalma var. Bəzən hotellərdə bir gecəlik qonaqlama və qidalanmaya elə qiymət qoyulur ki, onunla Gürcüstanda 1 həftə və ya Türkiyədə 3 gün dincəlmək mümkündür. Yaxud da yerli müştərilər restoran-kafelərdə dincəlmək istəyərkən onlara yemək və çay fantastik qiymətə təklif edilir.

**Mövzu ilə bağlı "Yeni Müsavat"a açıqlama verən iqtisadçı ekspert Vüsalə Əhmədova da vurğuladı ki, turizm, xidmət və ictimai iaşə sektorundakı qiymət özbaşınalığı ölkəmizin ən ağrılı yeri olaraq qalmaqda davam edir:** "Demək olar ki, vətəndaşlarımızın əksəriyyəti bu vəziyyətdən son dərəcə şikayətçidirlər. Şəxsən özümün vaxtaşırı xaricdən qonaqlarım olur. Şəhərimizin hətta ən yaxşı sayılan ictimai iaşə müəssisələrindəki mövcud xidmət səviyyəsindən dəfələrlə olub ki, utanc hissi keçirmişəm. Xarici vətəndaş gördükdə hesabın dərhal bir neçə dəfə yüksədilməsi isə digər bir problemdir. Buna görə də Dünya İqtisadi Forumu tərəfindən turizm, aviadaşımalar və səyahətlər üzrə hesablanan rəqabət reytinqində Azərbaycan heç ilk yüzə daxil olmağı bacarmır. Ölkəmizə gələn turistlər dünyadakı turistlərin cəmi 0,003%-ni təşkil edir ki, bu səbəbdən də turizmdən götürülən gəlirlər qənaətbəxş deyil. Azərbaycan hökuməti qeyri-neft sektorunun prioritet sahələrindən biri kimi turizmi seçdiyi halda bu sektorun inkişafı üçün real addımlar atılmır".

**Ekspert hesab edir ki, ilk növbədə mövcud qiymət və tariflər yerli və xarici turistlər üçün optimal həddə endirilməlidir:** "Qiymətlərin süni artırılması vətəndaşlarımızın, o cümlədən də turistlərin hüquqlarını pozur. Ən əsas problem Azərbaycanda istirahətin xarici ölkələrlə müqayisədə baha başa gəlməsi, xidmətlərin səviyyəsinin aşağı olması və turist cəlb etmək üçün lazımi işlərin görülməməsidir.1950-ci ildə fransalı bir üzgüçünün üzərək İspaniya adası olan Mayorkaya gəlib çıxması və burada kamp qurması, bunu görən İspaniya hökumətinin isə həmin şəxsə qidalanması, gecələməsi və digər ehtiyacları üçün tək bir qiymət təklif etməsi, bildiyiniz kimi, dünyada tək tarifli (all inclusive) turizm fikrinin ortaya çıxmasına səbəb oldu. Eynilə bu modelin, tarixi və mədəni cazibədarlığa malik olmayan Kariblərə 1960-1970-ci illərdə turist cəlb etmək üçün böyük qatqısı olmuşdu. Hazırda İtaliya, Yunanıstan, Fransa, Tayland və Dominikan Respublikasında bu konsept geniş tətbiq edilir".

**Türkiyə təcrübəsini nümunə göstərən ekspert bunun Azərbaycanda tətbiqinin də fayda verəcəyini açıqladı:** "Son dövrlərdə Türkiyədə daha da inkişaf etdirilən "all inclusive" (oll inkluziv) modeli digər ölkələrdəki nümunələrindən demək olar ki, fərqlənir. Nəzərinizə çatdırım ki, türk turizm sektoru terror aktları, baş verən güclü zəlzələ və qonşu ölkələrdəki hərbi əməliyyatlar səbəbilə 3 dəfə böyük böhran yaşadı. Bu böhranlardan çıxmaq üçün ölkənin əksər turistik müəssisələri 1990-cı ildən etibarən növbə ilə "all inclusive" konseptinə keçdi. Sistemin standartlaşdırılması üçün bir çox fikirlər ortaya atılmış, bu ölkənin Mədəniyyət və Turizm Nazirliyi isə yaratdığı bir peşəkar komanda ilə turistik müəssisələrin riayət edəcəkləri qaydaları müəyyən edərək, sistemin standartlaşdırılmasını təmin etmişdi. Klassik HD, imperial HD, maksimum HD və "ultra hight class HD" konsepti olaraq bir neçə növə ayrılan bu model hazırda dünya ölkələrindən ən çox Türkiyədə tətbiq edilir və bu günədək ölkə qazanclı çıxıb demək olar".

**V.Əhmədovanın fikrincə, "All inclusive" xidmət növündən hotellər, səyahət agentlikləri, hotel personalı, ölkənin ictimai iaşə müəssisələri, ən çox isə müştərilər məmnun qalır:** "Müştərilər üçün ən cazibədar olan, bu növ xidmət təklif edən turistik mərkəzlərdə qiymətlərin digərlərində olduğundan aşağı olmasıdır. Həmçinin müştəri üçün istirahətin bütün büdcəsinin əvvəlcədən planlaşdırılmasına imkan yaranır ki, tətil zamanı əlavə xərclər ortaya çıxmır. Onu da qeyd edim ki, bu model xüsusilə ailələrin böyük rəğbətini qazanmaqdadır. Bir neçə ailə fərdi ilə birgə ölkəmiz kimi bir yerə səyahət edən birini düşünün, həmin şəxsin nə qədər xərcinin çıxacağını əvvəlcədən müəyyən etməsi qeyri-mümkündür. Qeyd etdiyiniz kimi, adi 40 qəpiklik suyun əyləncə məkanlarında 2-5 manata satılması, uşaq əyləncə parklarındakı bahalıq buna əyani sübutdur. Vətəndaşlara 20-50 manatlıq çay dəsgahlarının təklif olunması və ya "Bu məkanda yemək yeməyənlərə çay verilmir" deyilməsi isə biznes təfəkkürümüzün yüksək "inkişafından" xəbər verir. Halbuki 2 nəfərlik 31 çeşidli səhər yeməyi süfrəsinə Türkiyədə cəmi 25-36 TL (7-11 AZN) ödəyəcəksiniz. İqtisadi faydanı ən yüksək həddə çatdırmaq üçün keyfiyyət və fərqlilik mütləqdir. Əsas deviz yüksək xidmət, münasib qiymət, müştəri məmnuniyyəti olmalıdır. Qiymət özbaşınalığına son qoyulması üçün dövlət kompleks tədbirlər həyata keçirməlidir. Bir vacib məqamı isə heç vaxt yaddan çıxarmaq olmaz. Güclü turizm üçün daxili bazar şərtdir. Orta və aşağı gəlirli vətəndaşlarımızın bütün turizm xidmət növlərindən faydalanması təmin olunmalıdır".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Dostluq platformasında düşmənçilik



**Xalid KAZIMLI**

**Azər Həsrət sosial şəbəkədəki səhifəsində bir adamın şəklini paylaşıb və izahat verib ki, bu şəxs onun daxili poçtuna dilə gətirilməsi mümkün olmayan söyüş yazıb.**

Əvvəlcə o, yəni Azər Həsrət istəyib ki, məsələnin həllini hüquq-mühafizə orqanlarına həvalə etsin, sonra fikrindən daşınıb və həmin şəxsin yazdıqlarını kağıza çap edərək, təhqir edənin ailə üzvlərinə, konkret olaraq, anasına göndərməyi qərara alıb.

A.Həsrət yazıb: "Yazacam ki, ana, necə oldu ki, sənin övladın belə əxlaqsız birisi kimi yetişdi? Necə oldu ki, bu adama normal tərbiyə verə bilmədin? O sualları yazıb o xanıma göndərəcəm ki, qoy oğluna görə cəmiyyətə izahat versin".

Bu, effekt verəcəkmi, verməyəcəkmi, bilinmir. Çünki yeni mübarizə üsuludur. İndiyədək heç kim belə etməyib. Hamı ya susub, ya da söyənə beşqat artıqlaması ilə söyüb.

O gün məşhur telejurnalist Mirşahin isə bu kimi situasiyada klassik addım atıb - hüquq-mühafizə orqanlarına müraciət edib, onun ünvanına söyüş yazan və ya söyüş yazanlara dəstək verən ictimai fəalın cəzalandırılmasını istəyib.

Bu hərəkətinə görə sosial şəbəkədə onu bir az da çox söydülər. Elə Mirşahin özü də əlinin altındakı telekanalın efirindən başqalarını vaxtaşırı söyür. Məhz söyür. Bu yazıda onun dediklərindən bir neçə sitat gətirmək istədim, biədəb alınacağından, təhqiri tirajlamaqda ittiham olunacağımdan çəkindim.

Bu qovğada Mirşahini söyən adam haqsızdır. Mirşahin də efirdən istifadə edərək başqalarını təhqir edəndə haqlı deyil.

Azər Həsrəti söyən də haqsızdır. Azər Həsrət hansısa bir fikir söyləyərkən haqsız ola bilər, amma onun haqsızlığını ona söyüşlə, təhqirlə bildirmək olmaz.

Deputat Araz Əlizadə məhbus blogger Mehman Hüseynovun mərhum anası ilə bağlı o sayaq fikirlər söyləyərkən haqsız idi. Ancaq "Feysbuk" istifadəçiləri kütləvi şəkildə deputatın mərhum anasının adını təhqiramiz şəkildə hallandırarkən eyni duruma düşdülər.

Bir sözlə, ictimai-siyasi polemikalarda söyüşə, təhqirə əl atan, yol verən hər bir şəxs haqsızdır. Onun o həddə çatmasının, ifrat halda əsəbiləşməsinin haqlı səbəbləri ola bilər, amma ağzına söyüş aldığı, barmaqları klaviaturada söyüş düzəldən hərfləri ard-arda sıxdığı andan haqsızdır.

Bütün bunlar ona görə belə olur ki, müasir insanlar həddən artıq əsəbi və hiddətlidirlər, öz fikirlərini başqa cür ifadə edə bilmirlər, haqsız hesab etdikləri bir mövqenin, ifadənin cavabını dərhal, həm də çox sərt şəkildə, rəqib saydıqlarını yaralayaraq, incidərək verməyə çalışırlar.

Bu ifrata varmış söyüşcüllüyün artmasının bir səbəbi də cəzasızlıq mühitinin olmasıdır. İnsanlar bir-birini məsafədən, gendən-genə təhqir edir və buna görə məsuliyyət daşımırlar. Məsuliyyət, cavabdehlik olmadıqca, təhqir-söyüş çoxalır.

Bu cür təhqir selləməsi 100 il əvvəl olsaydı, qan su yerinə axar, hər gün yüzlərlə adam ya duellərdə, ya da evinin kandarında öldürülərdi. Günümüzdə isə bu cür təhqirlərə görə üzbəsurət görüşən, aralarındakı problemi silahla həll edən və ya buna cəhd edən adamlar çox azdır. Onlar da əsasən hələ yeni-yeni təhqir olunan yeniyetmələr və gənclərdir.

Bir az təcrübəli şəxslər təhqirə başqa cür cavab verməyi, ya da ümumiyyətlə, cavab verməməyi üstün tuturlar.

Bəzən bu durumun adına "ictimai qınaq" deyirlər. Amma bir insanı qınamaq üçün onun vəfat etmiş valideynlərini, əzizlərini, övladlarını təhqir etməyə ehtiyac yoxdur, düşüncəsinin, mövqeyinin yanlış olduğunu sərt dillə tənqid etmək yetər.

Bu, olsa-olsa, çarəsizlikdən, acizlikdən doğan mübarizə üsuludur. Həm də qarşı tərəfdə daha böyük hiddət və nifrət doğurur, adamlar nəinki öz yanlışlarını düzəltmirlər, hətta daha da üstünə qoyurlar və təhqir edənlərə açıq-aşkar düşmən kəsilir, amansız qisas almaq üçün fürsət gözləyirlər.

Bəli, biz dünyanı əhatə edən xəbərləşmə, paylaşım, müzakirə, dostluq platforması olan "Feysbuk"u söyüşmə və düşmənçilik şəbəkəsinə çevirmişik. Artıq hər gün hamı bu şəbəkəyə o məqsədlə daxil olur ki, yeni gündə kimin söyüldüyündən xəbərdar olsun.

Söyüş və təhqir ustalarının əlindən bu lazımlı platforma minlərlə mədəni adam üçün haram bir yerə çevrilib.

Bir gün bu şəbəkə bağlansa, minlərlə insan dərindən ah çəkərək, "əcəb oldu" deyəcək. Ancaq peşəkar medianın çərçivəsinin daraldığı bir zamanda bu cür sosial şəbəkələr, ictimai media quruluşları cəmiyyət üçün ən etibarlı və mühüm nəfəslikdir. Onun qədrini bilək və o nəfəslikdən içəriyə üfunət axmasına imkan verməyək.



# Bulvar Dövlət Universiteti

**Zamin HACI**
zaminhaci@gmail.com

"Öz aramızdır, siz yaramaz, pis tərbiyə olunmuş və o qədər alçaq adamlarsınız ki, səyyah cəngavər yaraqçılarına olan nifrətinizi gizlədə bilmirsiniz"

***(Migel de Servantes, "Lamançlı Don Kixot")***

**Dünyada sorğu keçiriblər, ən ağıllı camaatın Yaponiyada yaşadığını tapıblar. Prinsipcə, bu sorğunu keçirənlərin idiot olduğunu düşünə bilərik, çünki yaponların ağıllı olması rəhmətlik nənəmə də məlum idi. Elementar bir misal: Tokioda görürsən 7 bal zəlzələ oldu, 7 nəfərin burnu qanamadı, eyni zəlzələ İranda olur, bütöv şəhər batır. Yaxud texnika, maşın almaq istəyəndə hamı istəyir yapon istehsalı olsun. Çünki bunlar bir işi görəndə ağılla görürlər. Özü də sizə deyim ki, "yapon alimi" əslində bir az şişirdilmiş ifadədir, yaponlar daha çox başqalarının, ayrı xalqların nəzəriyyəçi alimlərinin kəşflərini qanuni şəkildə mənimsəyib praktikaya tətbiq edirlər.**

Uzun sözün qısası, yaponların intellektual millət olmağı aləmdə məşhurdur. Hamının bildiyi şeyi tapmaq haçandan sosioloji sorğu olubdur? Əgər o sorğuda, misal üçün, Azərbaycan Dəymədağıldı orta məktəbinin şagirdləri birinci yeri tutsaydı, bax bunu aləmə yaymağa dəyərdi. Bu olardı sensasiya. Belə sensasiya isə baş verməyibdir, hətta biz heç o siyahıya düşməmişik. Səbəb isə paxıllıq, qabağa gedən, alim olanlarımızın ayağından dartmaqdır.

Dünən bütün camaat orada-burada mızıldanırdı ki, Bakı Dövlət Universitetinin Abel müəllimdən sonrakı şefi kadrlar şöbəsi müdiri (el dilində, təmiz azərbaycanca yazsaq otdelkadr) vəzifəsinə bulvarın rəis müavinini qoyubdur. Guya bu, mənfi haldır. Guya BDU-nun bulvara dəxli yoxdur. Təhsildən, pedaqoqikadan, metodikadan, canım sənə desin, misirmərdanoqikadan və kurrikulumdan xəbərsiz insanlar belə danışanda adam yanıb kökülür. Çox da əsas partiyamızı Yaponiyanın şərəfinə adlandırmışıq, bizdən yapon olmaz, atam. Ya da şair demişkən: "atam balası". Bulvarın gənclərimizin təlim-tərbiyəsində böyük rolunu danmaq mümkün deyildir. Nə qədər insan orda qucaqlaşıb, öpüşüb, sevgilisi ilə əl-ələ tutaraq Yeni Azərbaycanımızı qurmağa mətin addımlar atmışdır, bu zaman onları dövlət tərəfindən ayrılan xüsusi polis nəfərləri müşayiət etmişdir.

Bəli, dövlətimiz bulvarın milli əhəmiyyətini dərk edərək ora Milli Park adı vermiş, dəfələrlə ərazisini uzatmışdır. Nəinki uzatmış, eninə də vermişdir. Məhz bu artımlar sayəsində indi milli dənizkənarı bulvarımız Qarabağdan Dərbəndə, Kərkükdən Uyğur Sintszyan Muxtar Vilayətinə, Gəmiçatdayan-dan (Kamçatka) Rotterdama (bu şəhəri Almaniyadan maşın gətirməyə gedən ağdamlı uşaqlar salıblar) qədər uzanmaqdadır. Bulvarda baobab, sekvoyya, ekvalipt, banan, meskalin kaktusu və sairə flora nümunələri ilə yanaşı anakonda, begemot, kaftar, antilop qnu, Monqolustan çöl eşşəyi, Asiya fili, Qalapaqos kərtənkələsi və başqa fauna nümayəndələri ilə rastlaşırıq. Bunlar isə tələbə gənclərimizin, həmçinin BDU zoologiya, botanika, filologiya, yurfak, jurfak, fizfak və sairə fak-ultələrin bakalavrları, magistrləri üçün əyani tədris vəsaiti rolunu oynayır.

Sosiologiya fakültəsinin tələbələri bulvarda özünü dənizə atıb boğan insanlarımızı müşahidə edirlər. Bu da Bolonya prosesinə qoşulmuş universitetlərimiz üçün vacibdir. Nəinki vacibdir, həm də zəruridir.

Ümumiyyətlə, biz insana diplomuna görə deyil, bacarığına görə qiymət verməliyik. Misal üçün, görürsən adam karateistdir, ancaq yaxşı deputat olur, seçicilərin hamısı şpaqat açır. Yaxud manıslar jurnalistika ilə məşğul olub yaxşı mətbəx verilişi aparırlar, studiyada qlobal istiləşmədən Amerikada seçkilərə qədər müzakirə gedir. Jurnalistlər isə əvəzində mahnı oxuyurlar, klip çəkdirirlər. Narxozun nazirlik ixtisasını qurtaran adam qul bazarında laqonda dalında durub, sərbəst halda iki eşşəyin arpasını bölə bilməyən isə nazir işləyir. Deməli, əsas iş bacarmaq, qabiliyyətdir. Bu temada yaxşı ata sözü də vardır: "Ağız yeməklə, insan əməklə sınanar". Hərçənd bunu indicə özümdən uydurdum, bu da mənim qabiliyyətimdir.

# İrəvanın İran ümidi basdırılır - Bakının şansı

## Ermənistanın yeni baş naziri təsdiqləndi: problemlərlə yola davam; **erməni politoloq:** "Son aylar ərzində izolə edilmiş ölkəyə çevrilmişik..."



**Dünən Ermənistanın yeni parlamenti öz işinə başlayıb. Eyni gündə prezident Armen Sərkisyan Nikol Paşinyanın baş nazir təyin edilməsi haqda fərman imzalayıb. Paşinyan 15 gün ərzində hökuməti formalaşdırmalıdır. Böyük ehtimalla, onun komandasında ciddi dəyişiklik baş verməyəcək.**

Xatırladaq ki, budəfəki parlamentdə Nikol Paşnyan və tərəfdarları, bütövlükdə qərbpərəstlər 2/3 çoxluqdadır. Ermənistanın təzə konstitusiyasına görə, baş naziri parlament seçmir, parlament çoxluğunun təklifi əsasında prezident təsdiqləyir. Bu ərəfədə Paşinyanın "Mənim addımım" bloku onun namizədliyini prezidentə təqdim eləmişdi.

*****

Beləliklə, Ermənistan, erməni xalqı Paşinyanla və ölkənin ağır problemləri ilə yola davam edəcək. Problemlər isə təkcə sosial-iqtisadi yox, eyni zamanda geosiyasi xarakterlidir və təhlükəsizlik sahəsini əhatə edir. Bəs təzə-köhnə hökumət bu problemlərin öhdəsindən gələ biləcəkmi? Sualın cavabı yəqin ki, xeyli dərəcədə hökumətin elan edəcəyi proqramdan məlum olacaq. Ancaq yerli ekspertlər bu yöndə nikbin deyillər.

**"Bu hökumət ölkə qarşısında duran problemlərin çoxunu həll edə bilməyəcək". "Yeni Müsavat"ın məlumatına görə, tert.am saytına açıqlamasında erməni politoloq Qrant Melik-Şahnazaryan belə deyib. Xarici siyasətdən danışan erməni şərhçi bu sahədə böyük kadr potensialı görmədiyini deyib.**

"Bütövlükdə xarici siyasəti qiymətləndirərkən deməliyəm ki, Ermənistan son aylar ərzində izolə edilmiş ölkəyə çevrilib. İnqilab nəticəsində biz strateji müttəfiqlərimiz və tərəfdaşlarımızla münasibətləri korlamışıq. Mahiyyət etibarilə Avropa Birliyi ilə əlaqələrdə heç bir inkişaf yoxdur, əksinə, onunla imzalanmış müqavilənin Avropa ölkələrinin parlamentində ratifikasiyası dayanıb, Ermənistan isə götürdüyü öhdəliklərə əməl eləmir, ABŞ-la heç bir əlaqə yoxdur. Yəni hər şey artıq qırılıb", - deyə o qeyd edib.

**Melik-Şahnazaryana görə, burada fiaskodan daha çox, reabilitasiya mümkünlüyündən danışmaq lazım gəlir:** "Ancaq əgər biz eyni yanaşmalara üstünlük verməyə davam eləsək, o zaman heç bu da mümkün olmayacaq". Erməni politoloqun qənaətincə, xarici siyasət sahəsində hamıda sanki gözləməyə mövqeyi yaranıb, yəni hamı bilmək istəyir ki, ölkə hansı istiqamətə gedəcək.

*****

Ermənistan hökumətinin ən ciddi problemlərindən biri isə Rusiyadan alınan qazla bağlıdır. Çünki qaz əsas ərzaq məhsullarının qiymətinə, demək, həm də Paşinyanın əhaliyə rifahla bağlı verdiyi vədin aqibətinə birbaşa təsir edən faktordur.

"Ermənistan İran qazının idxalı ilə bağlı məsələnin müzakirəsini davam etdirir. İran qazı mövzusu müzakirə edilib, edilir və həmişə də ediləcək, çünki konkret sərfəli qərara gələ bilməmişik". "Yeni Müsavat" xəbər verir ki, dünən bunu dünən jurnalistlərə açıqlamasında artıq baş nazir qismində olan Paşinyan söyləyib və əhalini sakitləşdirmək üçün onu da əlavə edib ki, Rusiya ilə əlverişli qiymətlə bağlı müzakirələr davam edir.

Lakin energetika və təhlükəsizlik sahəsi üzrə ekspert Vaqe Davtyan mövcud şərtlər daxilində İranın Ermənistana təbii qaz ixracını artıracağını və İrəvana Rusiya qazı ilə müqayisədə daha sərfəli qiymət təklif edəcəyini az ehtimallı sayır. O, bunun bir səbəbini sanksiyalar və neft hasilatının azalması, habelə neftin ucuzlaşması üzündən Tehranın özünün pula ehtiyacının artması ilə izah edib.

**Məsələnin geosiyasi aspektlərinə gəlincə, erməni şərhçi deyib:** "İran və Rusiya Suriya məsələsində ortaq hərbi-siyasi alyansdadır. Necə deyərlər, onlar eyni "sanksiya klubu"nun üzvləridir və xüsusilə də energetik sektorda olduqca iri layihələrin reallaşmasına başlayıblar. O cümlədən söhbət İran-Azərbaycan-Rusiya energetik dəhlizinin yaradılması təşəbbüsündən, Rusiya tərəfindən İranda "Buşehr-2" AES-in inşasından gedir. Bundan əlavə, bu ilin avqustunda imzalanan Xəzər konvensiyası İran-Rusiya əməkdaşlığının daha da dərinləşməsi üçün əlavə platformaya çevrilib və iki ölkə arasında Xəzər hövzəsi resurslarından istifadə ilə bağlı bütün problemləri aradan qaldırıb. Bu isə o deməkdir ki, əgər biz qaz məsələsinin iqtisadi və geosiyasi komponentlərini işə salsaq, o zaman belə bir situasiya ilə üzləşəcəyik ki, İran öz qazını yaxın zamanlarda Ermənistan kimi kiçik bazarda Rusiya təbii qazına rəqib edib, bununla da Moskva ilə münasibətləri pisləşdirmək istəməyəcək".

*****

Beləliklə, qənaət hasil olur ki, Paşinyan hökumətinin ölkəsinə əlverişli qaz almaq istəyi və bu məqsədlə İrandan alternativ kimi istifadə cəhdi Rusiya-İran münasibətləri və İranın öz daxili ağır iqtisadi durumu səbəbindən daşa dirənəcək. Bu isə o anlama gəlir ki, soyuq qış günlərində Moskvanın İrəvana qarşı qaz şantajı davam edəcək.

Ermənistan-Rusiya əlaqələrində yaşanan gərginlik isə Azərbaycanın xeyrinədir. Ən azından, ona görə ki, geosiyasi planda ölkəmiz Moskva üçün daha böyük önəm kəsb etməyə başlayacaq. Üstəgəl, qeyd edildiyi kimi, strateji əhəmiyyətli Azərbaycan-İran-Rusiya ortaq enerji və Şimal-Cənub nəqliyyat layihələri var.

**"Rusiya-Ermənistan münasibətlərinin belə davam etməsi bizim xeyrimizədir". Bunu hüquq elmləri professoru, siyasi şərhçi Rüstəm Məmmədov teleqaraf.com-a müsahibəsində deyib.** "Ermənistan yanlış yoldadır. Ermənilər ABŞ və NATO-dan dəstək umurlar. Bu, faktiki, Rusiyanı çox qıcıqlandırır. Sonunda da nə ABŞ, nə də NATO Ermənistana dəstək verəcək", - deyə politoloq qeyd edib.

**Onun fikrincə, münasibətlər Ermənistanın əleyhinə işləyən istiqamətdə inkişaf edəcək.** "Əslində rus-erməni münasibətlərinin belə davam etməsi bizim xeyrimizədir. Azərbaycanın Rusiya ilə münasibətləri düzgündür, yaxınlaşma və inkişaf var. Bu münasibətlər davamlıdır. Ona görə də hazırkı mərhələdə Ermənistan-Rusiya münasibətlərində yaranan problemlər Azərbaycanın nəfinədir" - politoloq əlavə edib.

*****

Buna Bakının şansı da demək mümkündür. Çünki belə görünür, Nikol Paşinyan səlləfləri kimi Rusiyaya həddən ziyadə bağlanmağa da hazırlaşmır. Əks halda, "məxməri inqilab"ın anlamı qalmazdı - hansı inqilab ki, hələ də ermənilərin durumunu yaxşılaşdırmayıb...

**❑ Siyasət şöbəsi, "Yeni Müsavat"**

**ABŞ prezidenti Donald Tramp bildirib ki, ordu qüvvələri Suriyadan çıxarılır. O, eyni zamanda İŞİD-ə qarşı mübarizəni davam etdirir. Qeyd edək ki, ötən həftə Pentaqon nümayəndəsi ordunun Suriyadan çıxarılmağa başladığını bildirmişdi.**

# Kürd məsələsi növbəti dəfə Ankara-Vaşinqton böhranını yarada bilər

## Tramp Türkiyəni yenidən sanksiyalarla təhdid edib, Ankara isə YPG-yə qarşı əməliyyat aparmaqda israrlıdır



Eyni zamanda ABŞ prezidentinin Suriya kürdləri ilə bağlı açıqlaması qalmaqala səbəb olub. ABŞ prezidenti sosial şəbəkə hesabından növbəti dəfə Suriya kürdləri barədə yazıb. O qeyd edib ki, əgər Türkiyə kürdləri vurmağa başlasa, Vaşinqton Türkiyəni iqtisadi embarqolarla məhv edər. Eyni zamanda o, Türkiyə və Suriya kürdləri arasında 20 mil uzunluğunda ayırıcı zona yaradılacağını, kürdlərin Türkiyəyə qarşı təhdid yaratmasını istəmədiyini deyib.

Türkiyə prezidentinin sözçüsü İbrahim Kalın Trampın iddialarına cavab verib. Kalın bildirib ki, Türkiyə kürdlərlə yox, terrorçularla mübarizə aparır. Məlum olduğu kimi, Ankara PYD/YPG-ni Türkiyədə fəaliyyət göstərən PKK terror təşkilatının Suriya qolu adlandırır. Bu təşkilatların ideoloji və siyasi bağlarının olduğunu bildirir. Ancaq Vaşinqton bu iddiaları qəbul etmir. ABŞ dövlət rəsmiləri isə YPG-ni İŞİD-ə qarşı mübarizədə ABŞ-ın əsas müttəfiqlərindən biri hesab edir. Bu səbəbdən də Trampın ordunu Suriyadan çıxarmaq haqda qərarı ilk növbədə Vaşinqtonda ciddi etirazlara səbəb oldu. Çünki əksər siyasətçi və dövlət adamına görə ABŞ ordusu Suriyadan çıxdıqdan sonra kürdlər yalnızlaşacaq və Türkiyə ordusunun hücumları qarşısında əzilib məhv olacaq.

Yeri gəlmişkən, ötən həftənin əvvəlində Ankaraya səfər edən prezidentin təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun da əsas məqsədi məhz Türkiyəni Suriyada kürdlərə qarşı əməliyyatdan çəkindirmək məqsədi güdürdü. Ancaq belə görünür ki, Türkiyə hakimiyyəti hələlik razılaşmır.

Yeri gəlmişkən, ötən həftə bölgəyə səfər edən ABŞ dövlət katibi Mayk Pompeo şənbə günü bildirib ki, o, Amerika qoşunları Suriyadan çıxandan sonra iki ölkənin orada ABŞ-ın dəstəklədiyi kürd üsyançıları qorumaq yolu üzərində razılıq əldə edəcəyinə əmindir.

“Amerikanın Səsi”nin məlumatına görə, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə danışandan sonra Pompeo deyib ki, razılıq üzərində hələ də işlər gedir. Amma elə bir razılıq əldə oluna bilər ki, türklər kürdlərə təhlükə yaratmadan ölkələrini müdafiə etməyə davam edə bilsin.

**Sitat: “Biz Türkiyə xalqının haqlarını və prezident Ərdoğanın ölkəsini terrorçulardan müdafiə etmək hüququnu tanıyırıq. Lakin biz həm də bilirik ki, terrorçu olmayan, bütün bu zaman ərzində bizimlə yanaşı döyüşənlər müdafiə olunmağa layiqdirlər və biz əminik ki, hər iki tərəf üçün faydalı nəticə əldə bilərik, yəni həm türkləri həqiqi terror təhlükələrindən qoruya və Türkiyə üçün terror riski yaratmayan insanlara qarşı hər hansı risklərin qarşısını alarıq”.**

Pompeo heç bir detal paylaşmayıb, lakin deyib ki, ABŞ-ın Suriya və İŞİD-ə qarşı mübarizə üzrə xüsusi nümayəndəsi Cim Ceffri ötən həftənin əvvəli məsələni həll etmək üçün Suriyanın şimalına səfər edib və müzakirələri davam etdirmək üçün Türkiyəyə geri dönəcək.

Qeyd edək ki, Türkiyə ordusu ötən həftə Suriyanın şimalına əlavə qüvvələr cəmləşdirməyə davam edib. Cümə günü Suriya sərhədi yaxınlığında yerləşdirilən Türkiyə qoşunlarını ziyarət edən Türkiyənin müdafiə naziri Hulusi Akar deyib ki, onun ölkəsi terrorçu hesab etdiyi kürd yarıhərbi dəstələrinə qarşı döyüşməkdə qətiyyətlidir. O deyib ki, hərbi hazırlıqlar davam edir.

Bu arada Səudiyyə şahzadəsi Türki bin Faysal ABŞ qoşunlarının Suriyadan çıxmasına qarşı xəbərdarlıq edib. BBC-yə deyib ki, bu addım İran, Rusiya və Bəşər Əsədin hakimiyyətini daha da gücləndirəcək. Krallığın keçmiş kəşfiyyat naziri və “qara qutusu” adlandırılan bin Faysal deyib ki, dünya birliyi Suriya xalqının aqibətinə laqeydlikdə günahkardır və ABŞ qoşunları çıxandan sonra vəziyyət daha da pisləşəcək.

**Sitat: “ABŞ-ın addımları, məncə, vəziyyəti daha da mürəkkəbləşdirəcək, yalnız iranlıların deyil, eləcə də rusların və Bəşər Əsədin mövqeyini daha da gücləndirəcək. Mənim fikrimcə, bu, addımın mənfi təsiri olacaq”.**

Türki bin Faysal hazırda rəsmi vəzifə tutmasa da, uzun illər kəşfiyyata rəhbərlik edib, ABŞ-da səfir işləyib. O, Səudiyyə Ərəbistanının xarici siyasətini ən yaxşı bilən şəxslərdən biri, Yaxın Şərqdə bütün mürəkkəb proseslərdən xəbərdar şəxs kimi tanınır. İndiki halda Türki bin Faysal kimi nüfuzlu bir şəxsin “xora” qoşularaq qoşunların Suriyadan çıxarılmasına qarşı olması Trampın Suriya qərarına qarşı aparılan kampaniyanın miqyasını göstərir. Ancaq aydın olur ki, Tramp Suriyadan qüvvələri çıxarmaqda qəti fikirdə olsa da, Türkiyə ilə bağlı Vaşinqtonda narahatlıq hələ də qalır. O da bəlli olur ki, Vaşinqton istənilən halda kürdləri Suriyada köməksiz buraxmaq fikrində deyil, Tramp kürdləri Türkiyənin hücumundan qorumağa çalışacaq. Bu isə Vaşinqtonla Ankaranı növbəti dəfə qarşı-qarşıya gətirə bilər. Artıq ötən gün Trampın açıqlamasından dərhal sonra Türkiyədə lirənin dəyərində ucuzlaşma qeydə alınıb. Bu isə o deməkdir ki, kürd mövzusu hələ bir müddət Vaşinqton və Ankara arasında əsas problemlərdən biri olaraq qalacaq. Baxmayaraq ki, prezident Ərdoğan yaxın zamanlarda Trampla görüşüb kürd məsələsində anlaşmağa çalışır. Ancaq hazırkı şərtlərdə anlaşma elə də real görünmür.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Zaxarovanın özünü Rusiyanın lideri kimi aparmasının pərdəarxası

## **Elçin Mirzəbəyli:** “O, ya Rusiya qanunlarından, hüquqdan üstündür, ya da dövlət içində dövlətdir”

**Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova yenə də erməni təəssübkeşliyini nümayiş etdirib, növbəti dəfə Azərbaycana qarşı bəyanat verib. O, ötən həftə keçirdiyi brifinqdə erməni mənşəli Rusiya vətəndaşlarının Azərbaycana buraxılmamasından danışıb və ölkəmizi ittiham edib:**



“Doğrudan da mən bu barədə sosial şəbəkələrdə çoxlu məlumatlara rast gəlmişəm. Bayram günləri ərzində də belə insidentlər olub. Biz onları əvvəl də qeydə almışdıq və Azərbaycan tərəfi qarşısında məsələ qaldırmışdıq. Deyirdilər və təəssüflənirdilər ki, belə hallar artıq yaxşı çıxmır və düzgün olmayan praktikadır. Amma bayram günlərində sosial şəbəkələrdə böyük material dərc edilib və bu, Rusiya vətəndaşlarına qarşı birinci diskriminasiya halı deyil. Ötən il etnik əlamətinə görə azı 16 Rusiya vətəndaşının Azərbaycana buraxılmaması qeydə alınıb”.

Politoloqlar da hesab edir ki, M.Zaxarova ermənilərin istəyini ifadə edərək o cür açıqlamalar verir və həmin qüvvələr Rusiya-Azərbaycan münasibətlərinin pozulmasında maraqlıdırlar. Mariya Zaxarova XİN-in sözçüsü olsa da hətta Rusiya prezidentinin mətbuat katibi D.Peskov onun qədər irəli gedən açıqlamalarla çıxış etmir. Zaxarovaya bu qədər xüsusi status verən, onu sıradan bir mətbuat xidmətinin rəhbəri səviyyəsindən daha yüksəyə qaldıran xarici işlər naziri Sergey Lavrovdur.

**“Xalq Cəbhəsi” qəzetinin baş redaktoru, politoloq Elçin Mirzəbəyli Mariya Zaxarovanın özünü sanki Rusiyanın lideri kimi aparması və ermənilərə daim dəstək verməsi ilə bağlı sosial şəbəkədə maraqlı yazı yazıb. E.Mirzəbəyli qeyd edib ki, dünyada BMT üzvü olan 193 dövlət və onlardan hər birinin bəzən fərqli adlar altında olsa da eyni missiyanı həyata keçirən xarici işlər nazirliyi var. Və təbii ki, hər bir xarici işlər nazirliyinin də öz sözçüsü... Amma onların arasında Rusiya Xarici İşlər Nazirliyinin mətbuat və informasiya departamentinin direktoru Mariya Zaxarovaya bənzəyəni yoxdur:** “Zaxarovanı xarici həmkarlarından fərqləndirən cəhətlərdən biri də onun eyni zamanda Rusiya Xarici İşlər Nazirliyinin rəsmi təmsilçisi statusunu daşımasıdır. Lakin bu statusun Mariya Zaxarovanı daşıya bildiyini iddia etmək bir az mübahisəli məsələdir. Çünki onun ziddiyyətli, qərəzli və əksər hallarda bir-birini təkzib edən açıqlamaları onun daşıdığı və yaxud onu daşımalı olan statusun sərhədlərinə sığmır. Azərbaycana münasibətdə isə Mariyanın xüsusi bir yanaşma tərzi var. Hətta Azərbaycan-Rusiya münasibətləri ilə bağlı Moskvanın reallığı əks etdirən mövqeyini ifadə edəndə də Zaxarova konkret diplomatik sərhədləri olan bu rəsmi yanaşmaya ədviyyat olaraq zəhər əlavə etməyi də unutmur. Azərbaycanlıları dost xalq adlandırır və dərhal bu dost xalqın maraqlarını ifadə edən kütləvi informasiya vasitələrinin, jurnalistlərin ünvanına ən ağır ittihamları səsləndirir. İşğal altında olan Azərbaycan ərazilərinə Rusiya vətəndaşlarının səfərini onların şəxsi mövqeyi kimi dəyərləndirir, işğaldan azad edilmiş Azərbaycan ərazilərinə, Cocuq Mərcanlıya Rusiya ziyalılarının səfərini ikibaşlı ifadələrlə şərh etməkdən çəkinmir və hətta dolayısıyla Azərbaycanın ərazi bütövlüyünü şübhə altına almağı da unutmur.

Ermənistanla bağlı məsələyə gəldikdə isə Zaxarovanın çiçəyi çırtlayır. Moskvanın və təbii ki, Rusiya telekanallarının Ermənistanda hakimiyyət dəyişikliyinə aparan kütləvi aksiyalara kifayət qədər kəskin reaksiyasına baxmayaraq, Zaxarova “ən çətin anda birləşməyi bacaran erməniləri böyük xalq” adlandırır. Və bütün bunların fonunda belə bir təəssürat yaranır ki, Mariya Zaxarovanın xüsusi statusu var və o, rəsmi Moskvanın mövqeyi ilə üst-üstə düşməyə bilər. Və yaxud Mariya Zaxarova Rusiya dövlətini deyil, bu dövlətin maraqları ilə yanaşı hansısa digər maraqları ifadə edən, yarımüstəqil xarici işlər nazirliyini təmsil edir. Hər halda, görünən mənzərə belədir".

E.Mirzəbəyli vurğulayıb ki, Zaxarova ya Rusiya qanunlarından, hüquqdan üstündür, ya da dövlət içində dövlətdir. Hər halda, bunu biz müəyyənləşdirməli deyilik...

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**



## Fazil Məmmədovun korrupsiya araşdırmasından kənar qalmasının ilginc təfərrüatları

### Sabiq nazir Ramiz Yediyarovu həbsdən yayındırmaqla özünü sığortalamağa çalışır; dəbdəbəli hoteldə onu 6 mühafizəçi qoruyur

**Prezident İlham Əliyev yanvarın 11-də nazirlərlə keçirdiyi müşavirədə vergi sahəsində dərin islahatlar aparıldığını deyib. Prezident daha əvvəlki dövrü nəzərdə tutaraq, "sahibkarlar incidilirdi, onlara qarşı əsassız tələblər irəli sürülürdü", - deyə qeyd edib.**

Nəzərə çatdıraq ki, əvvəlki nazir Fazil Məmmədov uzun illər ölkənin ən iri məmur oliqarxları sırasında qərarlaşaraq, böyük biznes imperiyası qurmuşdu. 5 rayonun icra başçısı postuna öz kadrlarını yerləşdirə bilmişdi. Belə iddialar da vardı ki, 17 il Vergilər Nazirliyinə rəhbərlik etmiş F.Məmmədov həmin dövrdə vergi şəklində yığılan 4 milyard manata yaxın vəsaiti büdcədən yayındırılaraq ofşorlara yönləndirə bilib. Ümumilikdə isə sabiq nazirin 15 milyarda yaxın vəsaiti qamarladığı xəbərləri yayılmışdı. Maraqlıdır ki, bu günə qədər də bu xəbərlər təkzib olunmayıb. Vəzifədən çıxarılandan sonra səhhəti qəfil pisləşən nazir əvvəlcə özünün Gəncədəki xəstəxanasında, ardından isə Türkiyədə müalicə olundu. Amma həmin günlərdə də sabiq nazirin xəstəliyinin "son dərəcə şişirdildiyi" qeyd olunurdu. Fazil Məmmədovun "səhhəti ağırdır" xəbərlərini məqsədli yaymaqla nazir vəzifəsində çalışdığı 17 ildə ələ keçirdiyi sərvətləri qorumağa çalışdığı bilinirdi.

Dövlət başçısının çıxışından da sezilir ki, Fazil Məmmədov bağışlanmayıb.

Fazil Məmmədovun vəzifədən azad edildikdən sonra xəstəxanalarda dolaşmasının özünü xilas etməyə, korrupsiya araşdırmalarından kənarda saxlamağa yönəlmiş tryuku olması yenidən gündəmə gəlib.

Məlumata görə, F.Məmmədov hazırda Şəmkirdə şad-xürrəm həyatını yaşayır. Şəmkir şəhəri, Mirzə Ələkbər Sabir küçəsi 75 ünvanında "Shamkir Citi Hotel and SPA"da məskunlaşan nazir hər gün 5-6 mühafizə dəstəsinin müşayiəti ilə ərazidə gəzir, elə oradan da Azərbaycanda və dünyanın dörd bir tərəfində olan son dərəcə böyük biznesini idarə edir. Sabiq nazirin ata yurdu Şəmkirdə isə demək olar ki, hər tində bir müəssisəsi, fabriki, istixanaları, quşçuluq fabrikləri və s. biznes strukturları var.

Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi əməkdaşlarının onun fəaliyyətini yerlərdəki - xüsusən də Şəmkir və Gədəbəydə araşdırmağa başlaması da təsadüfi deyil. İlkin yoxlamalarla müəyyən olunub ki, Fazil Məmmədovun qohum-qardaşının yaşadığı Şəmkir rayonunda 5 il əvvəl salınan parka görə büdcədən nə az, nə çox, düz 830 milyon manat silinib. Faktiki isə parkda görülən işlərin dəyəri 83 milyon manatdan da az olub. Bundan başqa, məlum olub ki, 2010-cu ildə ölkə rəhbərliyinin iştirakı ilə açılışı baş tutan Gədəbəy rayonunun yeganə stadionunu Fazil Məmmədov 2015-ci ildə özününküləşdirib. Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi əməkdaşları aylardır ki, Gədəbəyin sabiq icra başçısı Ramiz Yediyarovun fəaliyyətini araşdırırlar. Belə məlumatlar var ki, Fazil Məmmədov köhnə əlaqələrindən istifadə etməklə özünün keçmiş işçisi və buyruqçusu olmuş Ramiz Yediyarovu istintaqçıların dəmir əllərindən qoparmağa çalışır.

Fazil Məmmədovun mal-mülklərinə gəlincə isə onun Azərbaycan iqtisadiyyatına yönəlməli olan milyardları xarici ölkələrdə öz biznes şəbəkəsini yaratmağa sərf etməsi çoxlarının bildiyi məsələdir. F.Məmmədovun Ukrayna paytaxtında 5 ulduzlu hoteli, siqaret, təkər zavodu və böyük bazarı var.

Onun Şəmkirdəki mal-mülkü isə bir deyil, iki deyil. Şəmkirin girişindəki "Şəmkir səbəti" adlı hipermarketdən tutmuş, rayonun Sabirkənd kəndi ərazisindəki saysız-hesabsız istixanalara qədər gəlir gətirən hansı sahə varsa, ora sabiq nazirin olub. Keçmiş nazir "Şəmkir-Quşçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətini qardaşı Vaqif Məmmədovun adına rəsmiləşdirib. Zəyəm qəsəbəsində yerləşən, sovet dövründə "Bakı avtomobil ehtiyat hissələri" zavodunun filialı kimi fəaliyyət göstərən zavod da Fazil Məmmədovun olub. Nazirə məxsus olduğu bildirilən daha bir obyekt - "Şəmkir Ət-süd" Məhdud Məsuliyyətli Cəmiyyətidir. "Yalta Meşə" ailəvi istirahət mərkəzi də Fazil Məmmədovun xeyir-duası ilə yaradılıb və eks-nazirin əmisi oğlu Kamal Məmmədovun adına rəsmiləşdirilərək işlədilib.

Qonşu Gədəbəy rayonu ilə Şəmkir arasında yerləşən Yasamal dağında təxminən 30 hektarlıq bir ərazi də sabiq nazirin aktivinə yazılır. "Yastı meşəsi" adlanan istirahət zonası da F.Məmmədovun saysız-hesabsız obyektləri kimi fəaliyyətdə olub.

Amma bağışlanılmaması onu düşünməyə əsas verir ki, Fazil Məmmədovun səltənəti "milliləşdiriləcək".

**❑ E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**

# Mehman Hüseynov məsələsinin "şişməsinin" pərdəarxası

### Səadət Bənəniyarlı: "İnsan ömrü siyasi maraqlardan qat-qat üstündür"

### Eynulla Fətullayev: "İlk dəfə olaraq, Azərbaycanda süd məhsulları ilə aclıq keçirildi"

**Blogger Mehman Hüseynovun durumu ilə bağlı bir-birindən fərqli xəbərlər informasiya məkanında yer almaqdadır. Xüsusən də onun keçirdiyi aclıq aksiyası ilə bağlı ajiotaj təəccüb doğurur. Blogger özü aclıq aksiyasını dayandırdığını bildirib, habelə KİV-ə və ictimaiyyətə müraciət edərək, qardaşına və digər şəxslərin mövqeyinə görə məsuliyyət daşımadığını bildirib. Amma bu məsələ ətrafında maraqlı proseslərin şahidi olmaqdayıq.**

Halbuki Azərbaycanın müstəqillik tarixi boyunca bu sayaq aksiyaların sayı yetərincə olub. İstər qəzetçilər, istərsə jurnalistlər - həm azadlıqda, həm də türmədə olduğu zaman günlərlə davam edən aksiyalar keçiriblər, onlara dəstək verənlər də yetərincə olub. Bəs niyə M.Hüseynov məsələsində mənzərə bu qədər fərqli və dartışmalarla doludur?

Hüquq müdafiəçisi, ötən həftə M.Hüseynovla saxlandığı istintaq təcridxanasında görüşən Səadət Bənəniyarlı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, vətəndaş cəmiyyəti üzvləri olaraq mütəmadi olaraq bu məsələni nəzarətdə saxlayırlar. Müsahibimizin sözlərinə görə, mövzu ilə bağlı müxtəlif rəylərin olması normaldır: "Nə qədər insan varsa, o qədər də rəy var. Amma bir məqamı deyim ki, insan ömrü siyasi maraqlardan qat-qat üstündür. Bu gün insan ömründən söhbət gedirsə, obyektiv araşdırma hər şeydən önəmlidir".

**Müsahibimiz dedi ki, M.Hüseynovun gündəmdə qalması ona qarşı ikinci cinayət işinin açılması ilə bağlıdır. Cinayət işinin martın 2-nə qədər vaxtı olduğunu deyən hüquq müdafiəçisi nəticəni gözləməyin önəminə toxundu:** "Görək bu cinayət işi bağlanacaq, məhkəmə olacaq, ya yox. Bütün bunlar üçün vaxt lazımdır".

**S.Bənəniyarlı M.Hüseynovla qardaşının, atasının aclıq aksiyası məsələsində fərqli mövqelər sərgiləməsi ilə bağlı suala cavabında dedi ki, bu məsələyə məhkum blogger özü nöqtə qoyub:** "Onun bizə dediyi sözlərlə məktubu eynidir. Əsasən bu gün səhhətinin normallaşması üçün maraqlıdır. Bizə də onun səhhəti maraqlıdır".

Vəkili Şəhla Hümbətova isə yanvarın 10-da Mehmanla görüşsə də, bloggerin ona bir gün sonra yazacağı məktubla bağlı heç bir anons vermədiyini bildirib.

**Virtualaz.org saytının rəhbəri Eynulla Fətullayev "Yeni Müsavat"a açıqlamasında M.Hüseynovla bağlı yaranmış ajiotajın arxasındakı səbəblər barədə danışdı. Dedi ki, ümumiyyətlə, bəzi xarici mərkəzlər bu məsələdə bir mexanizm hazırlamışdılar:** "Bilirsiz ki, bu qüvvələr ara-sıra Azərbaycanda siyasi situasiyanı dəyişdirməyə cəhd edirdilər. Bu dəfə də Mehmanın sosial şəbəkələrdə populyarlığını, durumunun kövrəkliyini əsas götürdülər. Əlbəttə ki, cəmiyyətdə istənilən təbəqə, sosial qrup, nəinki Mehmanın, heç bir bloggerin həbsdə qalmasını istəmir. Ona görə də bu məsələdə konkret olaraq ondan Azərbaycan hökumətinə qarşı istifadəyə cəhd göstərildi. Gəlin xronoloji ardıcıllığa nəzər yetirək. Dekabrın 12-də, mərhum prezident Heydər Əliyevin anım günündə Mehmanın qardaşı Emin Hüseynov çox ağır söyüşlərlə Azərbaycan hakimiyyətini təhqir etmişdi. Mənim fikrimcə, Emin hər zaman çox yumşaq, ehtiyatlı davranışa malik şəxsdir. Özü də hüquq müdafiəçisidir. Amma birdən-birə ayın 12-də siyasi çıxış edir və təhqir edib. Bunun ardınca dekabrın 24-də Eminin daha bir çıxışı yayılıb və bu dəfə də Azərbaycan prezidentini təhqir edib. Məndə olan məlumata görə, Emin Vaşinqtondadır, orada görüşlər keçirir, siyasi məsləhətləşmələr aparır. Sanki Eminin bu iki çıxışı, ən azı belə təəssürat yaranır ki, hakimiyyəti hövsələdən çıxarmağa yönələn çağırışlar idi. Və müəyyən mənada bu mexanizmi hazırlayan mərkəzlər öz məqsədlərinə çatdılar. Hazırlanmış repetisiyadan sonra məsələ siyasiləşməyə başladı".

**"Bu zəncirdə bu halqa zəif çıxdı" deyən müsahibimizə görə, sözügedən halqa Mehman Hüseynovun özü idi. E.Fətullayev hesab edir ki, bloggerin aclıq kampaniyası bayağılaşdığı üçün ciddiyyətini itirdi:** "Dünya praktikasında iki aclıq var: quru aclıq və tam aclıq. Elə insan var ki, onun aclığı 60 gün də davam edə bilir. Eləsi də var ki, 10 gündən sonra orqanizmində fəsadlar baş verir. İlk dəfə olaraq, Azərbaycanda süd məhsulları ilə aclıq keçirildi. Bu, sanki pəhriz və ya orucluqdur. Mehman və onun vəkilləri bunu ciddiyyətdən saldılar. Beləliklə, irimiqyaslı hadisələrin də qarşısı alındı. Amma bu, müəyyən məqsədlərə hesablanmış cəhdlər idi".

**E.Fətullayev dedi ki, onda olan məlumata görə, hakimiyyət M.Hüseynovu qeyd-şərtsiz azadlığa buraxacaqdı:** "Amma bu, əvvəlki təcrübələrlə müqayisədə fərqli oldu. Siyasi texnoloqlar tərəfindən hazırlanmış texnologiya işə salındı. Bir prosesi söndürmək üçün onun ciddiyyətini azaltmaq lazım idi. Bu məsələdə onu Mehman və vəkili etdilər. Süd məhsulları ilə aclıq cəmiyyətin və xalqın idrakı, təfəkkürünə istehza etməkdir. Bəlkə də bu cür detallar Hollandiyada, Ukraynada məsələnin ciddiliyinə təsir etməzdi. Amma Azərbaycanda süd məhsulları ilə aclıq aparmaq məsələni ciddiyyətini aradan qaldırdı. Siz diqqət yetirin, cəmiyyət və müxalifət Mehmana qarşı ədalətsizliyə yox, onun aclığına kökləniб. Gəlin siz Mehmana qarşı ədalətsizlikdən, qanun pozuntularından danışın".

**Müsahibimiz söhbət zamanı daha bir məqamı vurğuladı. Dedi ki, Avropa Parlamentində Mehmanla bağlı dinləmələr təşəbbüsü edilib. Təşəbbüsün müəllifi Rebecca Harmsdır. Müsahibimiz onun adının Soros institutları ilə bağlı olduğunu xatırlatdı:** "Mən bu məsələdə Soros institutlarının iştirakını görürəm. Rebecca Harms, sonra Maykl Anderson çıxış edir facebookda. Onlar açıq şəkildə yazıb ki, Soros da, Rebecca da Azərbaycanda Mehmana azadlıq tələbi ilə çıxış edəcəklər. Bu planı Sorosa yaxın institutlar modelləşdiriblər. Xüsusi xidmət orqanları tərəfindən, 100 faiz əminəm ki, xarici mərkəzlərdə hazırlanıb. Emin olduqca nəzakətli adamdır. Onun heç zaman dilindən ağır ifadələr, ittihamlar, kimisə, xüsusən də hakimiyyət nümayəndələrini aşağılayacaq sözlər eşitməmişəm. Birdən-birə onun bu qədər fəallaşması, ortaya atılması, bu çıxışların konkret məqsədlərə hesablandığını göstərir".

**E.Fətullayev bu prosesin necə yekunlaşacağı, hakimiyyətin geri çəkilib-çəkilməyəcəyi ilə bağlı sualı da cavablandırdı. Dedi ki, artıq geri çəkilməyə ehtiyac yoxdur:** "Proses söndü, bayağılaşdı. Heç bir ciddi konfrontasiyaya gətirib çıxarmadı. Azərbaycan gerçəkliyi olduqca paradoksaldır. Sosial şəbəkələrdə vüsət almış etirazla real həyatda olan susqunluq düşündürücüdür. Azərbaycanda facebooka baxanda sanki inqilabi prosesin vüsət aldığı təəssüratı yaradır. Kompüteri söndürüb şəhərə çıxırsan, tamam başqa həyat var bayırda. Düşünürsən ki, görəsən, facebookda həmin ölkə haqda yazırlar? Şəxsiyyətin ikiləşməsi - Azərbaycan cəmiyyətinin diaqnozudur. Facebookda bir söz yazır, gerçək həyatda isə deyir ki, nə olsun, yazdım da. İcad edilmiş ikinci ölkə haqda yazır. Facebooka miqrasiya edib, icad edilmiş ölkə haqda şərhlərini yazır. Sonra real həyata qayıdır. Realda isə 10 nəfər dəstəkçi Mehmana azadlıq tələb edən aksiya keçirirdi. Biz real etirazdan danışırıq, yoxsa virtual etiraz? Bir çox ölkələrdə eynidir bu iki dünya. Bizdə isə real həyatla virtual həyat ziddiyyət təşkil edir".



**Baş redaktor dedi ki, M.Hüseynova qarşı cinayət işi qaldırılsa da, ittiham irəli sürülməyib. Müsahibimiz daha sonra proqnozlarını da bölüşdü:** "Mən belə proqnozlaşdırıram ki, ilin sonuna qədər həbsində siyasi motiv görünən şəxslərin mütləq əksəriyyəti azadlığa çıxacaq. Azərbaycanda siyasi proses yoxdur. Mən şəxsən özüm bu insanların həbsdə saxlanılmasının məqsədini anlamıram. Mən hər həftə təkrarlayırdım ki, həbsdə İlqar Məmmədov daha təhlükəli idi. İndi isə ona beş kompüter hədiyyə edilməlidir ki, status yazsın. Susqun İlqar daha təhlükəlidir, nəinki danışan, yazan İlqar. Mehmanın reportajları sosial yönümlü idi. Çox nadir hallarda siyasi reportajlar olurdu. O da bizim yazdığımız problemlərdən yazırdı. Hökumət onlara şərait yaratmalıdır ki, öz işlərini görsünlər. Onlar susqun və əli qandallı daha təhlükəlidir".

**❑ Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 10 (7180) 15 yanvar 2019

# Putindən Paşinyana təbrik məktubu - erməni şantajının nəticəsi, yoxsa at gedişi?

## Ermənistanda anti-Rusiya meylləri güclənir, İrəvan Köçəryanı "bazara" çıxara bilər; **politoloq:** " Azərbaycan torpaqları işğal altında qaldıqca Paşinyanı da rahat həyat gözləmir"



**Nəhayət, İrəvanın Moskvaya dikilmiş gözlərinə "işıq gəldi". Belə ki, Rusiya prezidenti Vladimir Putin Ermənistanın baş naziri vəzifəsinə təyinatı münasibətilə Nikol Paşinyana təbrik teleqramı göndərdi.**

**Artıq bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb. Rusiya dövlət başçısının təbrikində qeyd edilir ki, "Rusiya və Ermənistan arasında münasibətlər dostluğun və qarşılıqlı hörmətin xeyirxah ənənələrinə əsaslanır və ölkələr müxtəlif sahələrdə məhsuldar əməkdaşlıq nəticəsində zəngin təcrübə toplayıblar". (Virtualaz.org) Məktubda daha sonra bildirilir:** "Hesab edirəm ki, bizim dialoqumuz və konstruktiv birgə işimiz Rusiya-Ermənistan qarşılıqlı ittifaq fəaliyyətinin möhkəmlənməsinə, həmçinin Avrasiya məkanında inteqrasiya proseslərinin irəliləyişinə imkan yaradacaq. Bu, şübhəsiz, bizim qardaş xalqlarımızın maraqlarına cavab verir", - deyə Rusiya dövlətinin başçısı əminliklə vurğulayıb.

Maraqlıdır ki, bu təbrikdə baş nazir Nikol Paşinyanın şəxsiyyəti ilə bağlı hər hansı fikir yer almayıb. Rusiya prezidenti ötən ilin sonlarında keçirdiyi brifinqdə də Ermənistanla bağlı sualın cavabında erməni xalqı və Ermənistandan bəhs etmişdi, hökumətdən yox. Sanki Putin Paşinyan hökumətini müvəqqəti hesab etdiyi üçün hətta ona ünvanlandığı protokol xarakterli təbrikində də daha çox Ermənistan və onun xalqına xitab edir. Amma istənilən halda, 2018-ci ilin 8 mayından sonra hakimiyyət başında olan Paşinyan üçün bu, mühüm hadisə də sayıla bilər. Nəhayət, "buz" sındı, deyə, erməni hökuməti düşünə bilər.

Güman olunur ki, Ermənistan hökuməti Putinin bu jestinin qarşılığında Putinin köhnə dostu Robert Köçəryanı həbsdən buraxa bilər. Düzdür, ötən həftə Köçəryanla bağlı həbs-qətimkan tədbiri daha iki ay uzadılıb. Lakin Rusiyadan gələn təbrik məktubu Paşinyanı düşündürə bilər. Belə ki, ötən il Paşinyanı təbrik etməyən Putin Köçəryana iki dəfə, birinci ad günündə, ikinci isə Yeni il ərəfəsində təbrik yollamışdı. İndi Kremldən İrəvana təbrik məktubu gəlirsə, Paşinyan mütləq bunu dəyərləndirməlidir, əks təqdirdə, onun üçün sürprizlər hazırlanacaq.

Ermənistanda cinayət məsuliyyətinə cəlb edilən keçmiş prezident Robert Köçəryanın ofisinin rəhbəri Viktor Soqomonyan eks-prezidentin siyasi məhbus olduğunu bəyan etdi. Maraqlıdır ki, Soqomonyan Ermənistanın əsas xarici tərəfdaşlarının da Köçəryanı siyasi məhbus gözündə gördüyünü bildirib. Əslində o, "əsas xarici tərəfdaşlar" dedikdə ilk növbədə Rusiyanı nəzərdə tutur və bununla Moskvanın Köçəryanın həbsinə qarşı olduğunu bir daha xatırladır. Kreml əvvəldən Köçəryanın həbsinə qarşı idi və bunu açıq şəkildə bəyan edirdi. Lakin Nikol Paşinyan hakimiyyəti Moskvada nə qədər Putinə yaltaqlansa da, İrəvana döndükdə "rus vodkası" hesab etdiyi opponentlərini baltalamağa davam edir. Köçəryan bu siyahıda ilk pillədə qərarlaşır. Rusiya prezidenti Vladimir Putinin ötən ilin sonunda Paşinyanla Moskvada görüşündən sonra Robert Köçəryanı ad günü münasibətilə təbriki də Kremlin münasibətini açıq şəkildə bəyan etdi. Proseslərin bu istiqamətdə inkişafı Rusiyanın Paşinyan hakimiyyətini dayandırmaq üçün hansısa addım atacağı ehtimalını gücləndirir. Erməni siyasi şərhçi Razmik Akopcanyanın iddiaları bu kontekstdə diqqət çəkir.

**Publika.az xəbər verir ki, R.Akopcanyan Rusiyanın bu il Ermənistanda "dişini yoxlayacağını" iddia edir. Onun fikrincə, Köçəryan Moskva üçün əhəmiyyətlidir, çünki o, Rusiyanın maraqları üçün hər şeyi etməyə hazırdır.** "Əgər o, cinayət işindən xilas olmağı bacaracaqsa, Putinin köməyi ilə hər şeyi edəcək. Reallıq budur ki, əvvəlki hakimiyyət və onun böyük kapitalı təslim olmayıb. Onlar gizləniblər və zərbə endirmək üçün fürsət gözləyirlər. Hətta bu, Rusiyanın Ermənistana müdaxiləsi ilə də nəticələnə bilər", - deyə o bildirib.

Erməni şərhçi **Nikol Paşinyanı** susmaqda ittiham edib. Onun fikrincə, "Paşinyanın susması təkcə özü üçün yox, bütövlükdə Ermənistan üçün də baha başa gələ bilər".

V.Putinin təbriki əslində hansısa ssenarinin tərkib hissəsi də ola bilər. Yəni bu məktubun "at gedişi" rolunu da oynaması mümkündür. Belə ki, Rusiya Ermənistanın qərbyönümlü hökumətini cəzalandırmaq üçün sadəcə, fürsət gözləyəcək. Fakt budur ki, Ermənistanda Rusiyaya qarşı ictimai rəyin köklənməsi prosesi davam edir. Elə iki gün əvvəl Gümrüdəki 102-ci hərbi bazanın qarşısında etiraz aksiyası keçirildi, bazanın çıxarılması tələb olundu. Eyni zamanda İrəvan Rusiyanın himayə etdiyi "Qarabağ klanı"nın üzvlərini, hərbçiləri hədəfə alıb və onları cəzalandırmaqda israrlıdır. Lakin o da istisna deyil ki, Paşinyan sonda ya güzəştə getməyə vadar olacaq, ya da Rusiya ilə alverə gedib bir sıra addımlar atacaq.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a dedi ki, Rusiya Paşinyanı yox edib özününkünü hakimiyyət başına gətirə bilər:** "Yeni Kreml ayrı-ayrı erməni siyasətçilərindən imtina edə bilər. Ancaq Ermənistandan əsla imtina etməyəcək". Siyasi təhlilçi Putinin təbrikinə də bu prizmadan yanaşmağın tərəfdarıdır: "Bizim dediklərimiz təsdiqini tapır. Nə Ermənistan Rusiyadan qopacaq, nə də Kreml Ermənistanı başlı-başına buraxacaq. Rusiya rəsmiləri özləri deyirlər ki, Ermənistan Rusiyanın Cənubi Qafqazdakı yeganə forpostudur. Rusiya niyə forpostundan imtina etsin ki? Uzaqbaşı həmin forpostun başında dayanan şəxsi dəyişməyə çalışacaqlar". **E.Şahinoğlu onu da qeyd etdi ki,Ermənistan cəmiyyətinin bir hissəsi Rusiyanın Ermənistan üzərindəki ağalığından narazıdır:** "Onlar hətta Rusiyanın Ermənistandakı hərbi bazasının varlığının da əleyhinədirlər. Buna görə də "Rusiya, çıx get" şüarları ilə bəzən küçə yürüşlərinə üstünlük verirlər. Ancaq bu fikirləri mütləq çoxluq dilə gətirməyə qorxur. Çünki ağalarının onlara qarşı zərbə vurmalarından ehtiyat edirlər. Buna baxmayaraq, ermənilər daxildə anlayırlar ki, onlar Moskvaya qul kimi lazımdırlar".

**Bu arada, politoloq Nikol Paşinyanın Dağlıq Qarabağla bağlı siyasətindəki çalarlara da diqqəti çəkməyi vacib saydığını vurğuladı:** "Ermənistanın baş naziri Dağlıq Qarabağ separatçılarının lideri Bako Saakyanı nəzarətdə saxlamaq üçün iki üsuldan istifadə edir: ya özü tez-tez Xankəndinə gəlir, həm separatçıların mövqeyini öyrənir, həm də Dağlıq Qarabağdakı əsgər oğluna baş çəkir, ya da Saakyanı İrəvana çağırıb müxtəlif mövzuları müzakirə edir. Paşinyan separatçıların dəstəyini əldə etmək üçün üçüncü "üsul"dan da istifadə edir. Paşinyan xarici ölkələrə təyin etdiyi səfirləri Xankəndiyə göndərir. Məsələn, Paşinyanın Avstriyaya təyin etdiyi Armen Papikyan dekabrın 17-də Xankəndinə gələrək Bako Saakyanla görüşdü". **Ekspert deyir ki, burada məqsəd aydındır:** "Paşinyan demək istəyir ki, təyin etdiyi səfirlər xarici ölkələrdə "Dağlıq Qarabağ Respublikasının" maraqları üçün də çalışmalıdırlar. Təsadüfi deyil ki, hansısa ölkədə Qarabağ separatçılarının sərgi keçirməsi və ya mallarını satmağa çalışması haqda xəbərlər gəlir. Bütün bunları həmin ölkələrdə çalışan erməni səfirlər təşkil etməyə çalışırlar. Buna baxmayaraq, yenidən baş nazir təyin olunan Nikol Paşinyan işğal altındakı torpaqlar barədə ciddi düşünməlidir. Azərbaycan prezidenti İlham Əliyev son çıxışında bir daha vurğuladı ki, nə qədər Azərbaycan torpaqları işğal altındadır, Ermənistana rahatlıq verməyəcəyik. Bu, o deməkdir ki, Azərbaycan torpaqları işğal altında qaldıqca Paşinyanı da rahat həyat gözləmir".

Maraqlısı və təəccüblüsü budur ki, V.Putinin N.Paşinyana təbrik məktubundan öncə Rusiya XİN-in rəsmisi Mariya Zaxarova Azərbaycan əleyhinə bəyanat səsləndirdi, Bakıya gəlmək istəyən 16 erməniyə görə ölkəmizin Rusiya ilə normal münasibətlərinə kölgə salmağa çalışdı. Bir çoxları öz şərhlərində bildirdilər ki, bu, Zaxarovanın özfəaliyyətinin nəticəsi deyil, arxasında Rusiya hakimiyyətinin iradəsi dayanır. Rəsmi Bakının sərt cavabına Kremldən hər hansı reaksiya verilməməsi də suallar doğurur. Ən azı Rusiya səfirliyi səviyyəsində Bakını incidən Zaxarovanın mövqeyinə görə hansısa izahat verilə bilərdi. Lakin Putinin İrəvana göndərdiyi təbrikdən öncə Zaxarovanın Azərbaycana gəlmək istəyən ermənilərin halına yanması təbii ki, səbəbsiz ola bilməz. Çox təəccüblüdür, Rusiyaya qarşı çıxışlar edən ermənilərdir, ancaq Rusiya rəsmisi Azərbaycanı günahkar sayır.

**Ermənişünas alim Qafar Çaxmaqlı bildirdi ki, Rusiyanın Azərbaycanla bağlı siyasəti bəlli çıxarlara və dövləti maraqlara söykənir:** "Bəzən siyasilərin dilindən səslənən "dost", "tərəfdaş", "qardaş" kəlmələrinin də arxasında mənafe dayanır. Putinin "dost" kəlməsinin müstəqil anlamda qəbul etmək doğru yanaşma deyil, ona siyasi olaraq baxacaqsan. Zaxarovanı da bu siyasət danışdırır. Görünür, Azərbaycanla bağlı siyasətdə müəyyən bilinməyən gizlinlər mövcuddur və onun çıxışı bir mesaj olaraq da dəyərləndirilə bilər". **Q.Çaxmaqli Rusiya rəsmilərinin nədən Ermənistana qarşı bu qədər aqressiv deyillər-sualına da maraqlı cavab verdi:** "Məcbur deyil ki, onlara da eyni şəxsin dilindən səslənilsin, başqa bir adamın, deyək ki, Solovyovun dilindən onlara da daha fərqli mesajlar verilir və biz bunların şahidiyik. Ermənistanda aksiyalar da özbaşına təşkil olunmur və Rusiyanın Ermənistan siyasətindəki bəzi olumsuz məqamları aradan qaldırmaq üçün edilir. Bundan əvvəlki illərdə də 102 saylı bazanın Ermənistandan çıxarılması müxtəlif səviyyələrdə səsləndirilib. Amma buna reaksiya olubmu? Rusiya Ermənistanın nə istədiyini bilir və həmin istiqamətdə istəklərini təmin etmişdir və bu oyunbazlıq davam edəcək". **İndi niyə onlara sərt mövqe tutulmur, əvəzində heç bir suçu olmayan Azərbaycan hədəf seçilir? Q.Çaxmaqlı:** "Bunların, şübhəsiz, səbəbləri var. Rusiyaya Azərbaycan indiki halda təhdid ünsürü deyilsə də, bunun həmişə belə olacağına Moskvanın inamı yoxdur, çünki Rusiyada yaxşı bilirlər ki, Azərbaycan gələn bəlaların bir səbəbkarının onlar olduğunu bilirlər. Və M. Zaxarovanın dilindən bir az da "qabaqdangəlmişlik" edirlər. Əlbəttə, Azərbaycan buna reaksiya verməlidir. Hansı səviyyədə olmasının elə də ciddi əhəmiyyəti yoxdur".

**Ancaq Rusiya rəsmiləri də anlamamış deyillər ki, Zaxarova kimilərin bəyanatları Bakı-Moskva münasibətlərinə xələl gətirir. Lakin niyə onlara "dur" deyən tapılmır, bax, bu, çox maraqlıdır.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 10 (7180) 15 yanvar 2019

# BP-nin Xəzərdə böyük ümid bəslədiyi qaz yatağı

**BP şirkəti Azərbaycanda yeni və “Şahdəniz” qədər böyük qaz yatağı tapmaq üzrə olduğunu hesab edir. Bu barədə BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qari Cons bu günlərdə “Bloomberg”ə açıqlamasında məlumat verib. Qari Consun sözlərinə görə, Britaniyanın neft nəhəngi 2020-ci ilədək ölkədə altı yeni kəşfiyyat quyusu qazmağı planlaşdırır. Əgər onun gözləntiləri qarşılansa, şirkət Xəzər dənizində yanacaq hasil olunan “Şahdəniz” layihəsi ölçüsündə yeni qaz yatağı tapmalıdır: “”Azərbaycan gələn bir neçə il ərzində Braziliya ilə birlikdə bizim diqqət mərkəzimizdə olacaq. Bu, bizim üçün çox mühüm kəşf proqramıdır".**

## İlham Şaban: “Bu, dünyada su altında ən dərin qatlarda yerləşən blokdur”

Məqalədə yazılana görə, BP də daxil olmaqla bir çox şirkətlər neftə çıxışı olmayan avropalı alıcılara çox yaxın nəhəng kəşf edilməmiş qaz anbarlarının olduğu Avrasiya regionuna sərmayə yatırır. İyun ayında BP və “Kukoil” PJSC, eləcə də “Petronas” Xəzər dənizi ilə Türkiyə arasındakı yeni boru kəməri vasitəsilə Şahdənizin ikinci fazasından qaz nəql etməyə başlayıb. 2020-ci ildə boru kəmər sisteminin son hissəsinin tikintisi başa çatandan sonra bu qaz Yunanıstan, Bolqarıstan və İtaliyaya da nəql edilməyə başlayacaq: “Əgər BP yaxınlıqdakı kəşfiyyat quyularında daha çox qaz tapsa, yanacağı Avropaya nəql etmək üçün həmin boru kəmərlərindən istifadə edə bilər”.

Məqalədə bildirilir ki, BP “Şahdəniz-2" ilə eyni əraziyə sahib "Şəfəq-Asiman" ərazisini hədəf alır. Qazma işləri bu



ilin axırına planlaşdırılıb. Bundan əlavə, BP digər iki ərazidə də neft inkişafını nəzərdən keçirir.

Q.Consun sözlərinə görə, BP hazırda diqqətini böyük həcmdə qaz ehtiyatlarının olduğu ehtimal edilən “Şəfəq-Asiman” perspektiv strukturuna yönəldib. O deyib ki, 2019-cu ildə Xəzərin Azərbaycan sektorundakı “Şəfəq-Asiman”da ilk kəşfiyyat quyusunun qazılması planlaşdırılır.

Qeyd edək ki, “Şəfəq-Asiman” blokunun geoloji-kəşfiyyatı və işlənməsinə dair hasilatın pay bölgüsü sazişi SOCAR və bp arasında 2010-cu ildə imzalanıb. Ondan əvvəl isə “Şəfəq-Asiman” dəniz bloku üzrə sazişin əsas kommersiya prinsiplərini müəyyən edən “Sazişin əsas prinsipləri” adlı sənəd razılaşdırılmış və imzalanmışdı. Sazişin müddəti 30 ildir və sazişə əsasən BP şirkəti əməliyyatçı olmaqla müqavilədə 50 faiz paya və SOCAR isə qalan 50 faiz paya malikdir.

“Şəfəq-Asiman” bloku Bakıdan təxminən 125 kilometr (78 mil) cənub-şərqdə yerləşir. Ərazisi təxminən 1100 kvadrat kilometrdir. Bu blokda indiyədək heç bir geoloji-kəşfiyyat işi aparılmayıb. Blok dənizin dərinsulu hissəsində suyun dərinliyinin təxminən 650-800 metr olduğu bir ərazidə yerləşir və kollektorun dərinliyi təxminən 7 000 metrdir. 2012-ci ilin əvvəllərində “Giləvar” seysmik gəmisi Şəfəq-Asiman üzrə 3-ölçülü seysmik tədqiqat proqramını başa çatdırıb. 2014-cü ilin birinci yarısında tədqiqat zamanı əldə olunan məlumatların təhlili tamamlanıb və onun interpretasiyasına başlanılıb. Blokda ilk kəşfiyyat quyusunun bu il qazılması nəzərdə tutulur.

**Neft sahəsi üzrə mütəxəssis, Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanın “Yeni Müsavat”a dediyinə görə, “Şəfəq-Asiman” blokunun ehtiyatlarına ümidlər böyükdür:** “Bu barədə bir geoloq kimi Xoşbəxt Yusifzadə də dəfələrlə fikir səsləndirib. Eyni zamanda BP-dən də açıqlamalar verilib. Belə bəyanatların əsas səbəbi geoloji kəşfiyyat zamanı əldə olunan nəticələrdir. Belə ki, qayda belədir ki, geoloji kəşfiyyat işləri zamanı ehtiyatların mövcudluğuna dair məlumatlar 15 faiz təşkil etdikdə qazma işlərinə başlamaq üçün əsas sayılır. Bu o deməkdir ki, qazılacaq 6 kəşfiyyat quyusundan biri özünü doğruldarsa, kəşfiyyata çəkilən xərclər itməmiş hesab olunur. "Şəfəq-Asiman"da bu göstərici 25-30 faizdir. Buna görə də orada yeni və böyük ehtiyatların olduğuna inam böyükdür".

**Ekspertin sözlərinə görə, “Şəfəq-Asiman” ən dərində yerləşən strukturdur:** “Əgər 550 metr dərinlikdə "Şahdəniz" və “Abşeron”dursa, “Şəfəq-Asiman”da dərinlik 600-700 metrdir. Məhsuldar lay qatları 6500-7000 metr dərinlikdə gözlənilir. Orada qazma işlərini aparmaq üçün 7000 metr dərinlikdə qazmaq imkanı olan qurğuya ehtiyac vardı. Ötən il belə bir qurğu - 6 D Heydər Əliyev adına üzən qazma qurğusu istifadəyə verildi. SOCAR-a məxsusdur bu qurğu. “Şəfəq-Asiman” ölçüsünə görə də “Şahdəniz”dən böyükdür".

**İ.Şaban bildirir ki, kəfiyyat quyuları müsbət nəticə verərsə, “Şəfəq-Asiman”da hasilata 2027-28-ci illərdə başlamaq mümkündür. Blokdan hasil olunacaq qazı bazarlara daşıyacaq kəmər infrastrukturu da hazırdır:** “Cənubi Qafqaz qaz dəhlizinin ötürücülük gücü 31 milyard kubmetrdir. Şərt deyil ki, qazı aparıb Avropada sataq. SOCAR Türkiyədə ikinci böyük neft-kimya kompleksini tikməyə başlayır. Onun 2025-ci illərə hazır olacağı gözlənilir. Bu müəssisələri qazla təmin etmək lazımdır”.

❑ **Dünya SAKİT,**
**“Yeni Müsavat”**

# Havanı zəhərləyən restoranların sayı azalıb

## ETSN: “Artıq 350 ictimai iaşə obyektində mövcud qurğular quraşdırılıb”

**Restoranlar və ictimai-iaşə obyektlərində aparılan monitorinqlər öz nəticəsini verməkdədir. Artıq Bakının bir sıra küçə və prospektlərində restoranlardan qalxan qatı tüstü dumanları müşahidə olunmur. Bəzi restoranlar istisna olmaqla, artıq bir çox ictimai-iaşə obyektləri müvafiq təmizləyici qurğuları quraşdırıblar.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən “Yeni Müsavat”a bildirilib ki, dövlət tərəfindən atılan addımlar əhali tərəfindən də müsbət qarşılanır.

Məlumat verilib ki, ötən həftə ETSN, bir qrup media nümayəndələrinin də iştirakı ilə Binəqədi, Nəsimi, Nizami rayonlarında yerləşən restoran və iaşə obyektlərində monitorinqlər keçirib.

**Görülən son işlərlə bağlı “Yeni Müsavat”a açıqlama verən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Monitorinq Departamentinin direktoru Ramal Bağırov bildirib ki, artıq 350 ictimai iaşə obyektində mövcud qurğular quraşdırılıb:**

“Eləcə də hazırda 50 ictimai-iaşə obyektrində qurğuların quraşdırılması istiqamətində işlər aparılır, 100-ə yaxın obyektlə bağlı isə qurğular quraşdırılmadığı üçün qanunamüvafiq qaydada tədbirlər görülüb. Sevindirici haldır ki, artıq qurğu quraşdırılan iaşə obyektlərində atmosferə atılan tullantılar norma daxilindədir. Qurğuların quraşdırılması sıfır tullantı demək deyil, müəyyən olunan norma var, norma daxilində də müəyyən iyin və tüstüyə bənzər buxarın olması normal haldır. Mütəmadi monitorinqlər aparılacaq və iaşə obyektləri nəzarətdə saxlanılacaq, çünki qurğunun normal işləməsi və havaya normadan artıq tullantı buraxmaması üçün mütəmadi servis xidmətləri göstərilməlidir, filtirlər təmizlənməlidir. Belə hal aşkarlanarsa, tərəfimizdən tədbirlər görüləcək və əməl etməyənlər cərimələnəcəklər”.

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova “Yeni Müsavat”a bildirib ki, burada bir sıra məqamlara aydınlıq gətirmək lazımdır:**



“Əvvəla, onu deyim ki, insanlar düşünürlər ki, bu qurğular quraşdırıldıqdan sonra tüstü bacalarında, heç bir tüstü çıxmayacaq. İnsanlar tüstü bacalarından ağ dumana bənzər qaz göründə, düşünürlər ki, bu, zəhərli qazdır. Əslində isə filtrlər zəhərli qazları təmizləyir. Havaya buraxılan, sadəcə olaraq, buxardır. Necə ki, adi yemək bişirən zaman buxar çıxırsa, bu da elə bir şeydir. Tərəfimizdən müvafiq qurğuları quraşdıran restoran və ictimai-iaşə obyektlərinə nəzarət var. Eləcə də bu qurğuları quraşdıran obyekt sahibləri bilməlidirlər ki, zaman-zaman qurğunun filtrlərini dəyişmək lazımdır. Əgər filtrlər vaxtında dəyişdirilməzsə, yenə də havaya zəhərli maddələr buraxılacaq. Nazirliyin əməkdaşları tərəfindən bu məsələ də nəzarətdə saxlanılır”.

Söhbət etdiyimiz bir çox ictimai-iaşə obyektlərinin sahibləri bildiriblər ki, ölkə başçısının göstərişindən sonra onlar qurğular barəsində araşdırma aparıblar. Söylədilər ki, onlar özləri də görülən işin əhəmiyyətini anlayıb, qurğuları quraşdırıblar.

**Onu da qeyd edək ki, bir zamanlar Babək prospektində yerləşən restoranlardan havaya qatı tüstü buraxılırdı. Axşam saatlarında ərazidən tüstü əlindən keçmək mümkün deyildi. Nazirlikdən qəzetimizə bildirilib ki, artıq həmin ərazidə əvvəlki vəziyyət hökm sürmür:**

“Ərazidə yaşayan sakinlərdən bizə çoxsaylı şikayətlər olurdu. Şikayətlər əsasında bizim əməkdaşlar ərazilərə baxış keçirib, havadan nümunələr götürərək, monitorinqlər aparırdılar. Görülən tədbirlər nəticəsində həmin ərazidə artıq əvvəlki vəziyyət hökm sürmür. Bizdə videolar da var. Həmin videolardan restorana qurğu quraşdırılmadan əvvəl və sonrakı vəziyyət açıq şəkildə görünür. Görürük ki, qurğulardan əvvəl restoranların tüstü bacasından necə qatı tüstü çıxırdı. Sonradan isə bu, sadəcə olaraq, az miqdarda parla əvəzlənir. Bunu ərazidə yaşayan sakinlər də görürlər. Həmin para bənzər tüstü atmosferə heç bir qoxu da buraxmır”.

**Söhbət etdiyimiz sakinlər isə “Yeni Müsavat”a bildiriblər ki, restoranlardan hazırda havaya az da olsa qoxu buraxılır:**

“Lakin bu qoxu əvvəlki kimi insanlarda narahatlıq yaratmır. Eyni zamanda tüstü də əvvəlki kimi deyil”.

Məlumat üçün bildirək ki, prezident İlham Əliyev ötən il oktyabrın 9-da Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında əhali, ölkə üçün bir sıra vacib məsələlərə toxundu. Ölkə başçısı həmçinin havanı çirkləndirən məişət obyektlərinə də ciddi xəbərdarlıq etdi. Prezident bildirdi ki, kim əməl etməyəcəksə, o şadlıq evinin, məişət obyektinin qapısı bağlanacaq.

Lakin buna baxmayaraq, müvafiq qurğunu quraşdırmayan, havanı çirkləndirməyə davam edən restoranlar oldu. Dekabr ayında isə ölkə başçısı “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” fərmanda dəyişiklik edilməsi haqqında yeni fərman imzaladı.

Əsasnaməyə əsasən nazirliyin ekoloji tələblərin pozulması ilə əlaqədar müəssisələrdə, qurğu və obyektlərdə təsərrüfat və başqa fəaliyyətlərin məhdudlaşdırılması və ya bu fəaliyyətə xitam verilməsi haqqında vəsatət qaldırmaq hüququ olub. Dəyişikliyə əsasən artıq ETSN məhkəməyə müraciət etmədən ekoloji tələblərin pozulması ilə əlaqədar müəssisələrdə, qurğu və obyektlərdə təsərrüfat və başqa fəaliyyətlərin dayandırılması və ya qadağan edilməsi barədə qərar qəbul edə biləcək.

❑ **Əli RAİS,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 10 (7180) 15 yanvar 2019

# Moskva Krımı Rusiya ərazisi kimi tanıtmağa çalışır

**Rusiya 2014-cü ildə Krımı işğal etdikdən sonra qarşısına məqsəd qoyub ki, dünya dövlətlərinə Krımı Rusiya ərazisi kimi tanıtdırmaq lazımdır. Moskva 5 ildir bu məqsədə nail olmaq üçün müxtəlif vasitələrdən istifadə edir.**

**Bu barədə "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** bildirib. Onun sözlərinə görə, birincisi, Moskva xarici ölkələrin siyasətçilərinin və deputatların Krıma səfərlərini təşkil edir. Bəziləri Krıma səfər edirlər. Ancaq xarici ölkələrin siyasətçilərinin və deputatlarının əksəriyyəti Krıma getməkdən imtina edir: "İkincisi, Moskva Krımda müxtəlif beynəlxalq konfrans və seminarlar təşkil edir. Həmin tədbirlərdə iştirak edən şəxs Krımı Rusiya ərazisi kimi qəbul etmək məcburiyyətində qalır. Ancaq Moskva bu məsələdə də böyük nailiyyət əldə etməyib. Xarici ölkələrdən Krımdakı konfranslarda çox az nümayəndə iştirak edir. Üçüncüsü, Moskva adi turistlərin də Krıma səfərlərini təşkil etməyə çalışır. Məsələn, bəzi xarici turizm şirkətləri ilə müqavilə bağlanır ki, onlar Krıma turlar təşkil etsinlər. Dördüncüsü, Moskva bir sıra regional layihələrdə Krımın da iştirakına çalışır. Beşincisi, Moskva Krımda istehsal olunan malları xarici ölkələrdə satışa çıxarmağa çalışır. Ayrıca, Krımı Rusiya ərazisi kimi göstərən atlaslar satışa çıxarılır".

**Mərkəz sədri qeyd edib ki, Moskvanın növbəti planı Fars körfəzi və Xəzərlə Qara dəniz arasında nəqliyyat xətti yaratmaqdır. İrandakı limanlardan Krımdakı limanlara mal daşınması nəzərdə tutulub:** "Mallar İrandan Xəzər dənizindəki limana, buradan Volqa-Don çayı ilə Qara dənizə və Krıma çatdırılmalıdır. Moskva bu plana-marşruta Azərbaycanın və digər dövlətlərin qoşulmasını da istəyir. Rusiya istəyir ki, bu marşrutla yalnız İran deyil, Azərbaycan və Yaxın Şərq ölkələrinin malları da daşınsın.

Azərbaycan bu təklifə razılaşa bilməz. Çünki bu halda Azərbaycan Krımı Rusiya ərazisi kimi tanımış olacaq. Dağlıq Qarabağ kimi problemi olan Azərbaycan bir başqa separatçı bölgə ilə əməkdaşlıq edə bilməz. Azərbaycan şimal (Rusiya)-cənub (İran) nəqliyyat dəhlizinin tərkib hissəsidir və dəmir yolunun fəaliyyətə başlamasını istəyir. Azərbaycan özü bu marşrutla Krıma mal daşınmasının əleyhinə olmalıdır. Buna baxmayaraq, Rusiya bu dəmir yolunun bir hissəsini Krıma qədər uzatmağa çalışacaq. Bu mümkündür. Rusiya 2018-ci ildə Krıma körpü çəkdi. Həmin körpüdən dəmir yolu da keçir. Yeni Moskva gələcəkdə şimal-cənub dəmir yolunun bir hissəsini Krıma qədər uzada bilər".

**Politoloq Məhəmməd Əsədullazadə isə "Yeni Müsavat"a bildirdi ki, Rusiya Qərbin Ukraynadakı siyasətinə qarşı Krımı anneksiya edib. Təbii ki, Moskvanın bu siyasəti, İkinci Dünya müharibəsindən bəri Avropada sərhədlərin güc yolu ilə dəyişilməsi və işğal faktoru idi. Ona görə də bu işğaldan dərhal sonra Rusiyaya qarşı ağırlaşmış sanksiyalar tətbiq edildi. Artıq Krımı Rusiya öz ərazisi hesab edir və Rusiya siyasətində qırmızı xətt kimi müəyyən olunub:**





**Elxan Şahinoğlu:** "Bu plana-marşruta Azərbaycanın və digər dövlətlərin qoşulmasını da istəyirlər"

**Məhəmməd Əsədullazadə:** "Hətta Rusiyanın öz müttəfiqləri Krımı Rusiyanın ərazisi kimi tanımır"

"2014-cü ildən bəri demək olar ki, Krım məsələsinə görə bu ölkəyə iqtisadi sanksiyalar tətbiq olunub və getdikcə sanksiyalar genişlənir. Beynəlxalq birliyin təpkisinə baxmayaraq Kreml rəhbərliyi geri addım atmır. Üstəlik, Krımın Rusiya ərazisi kimi tanınması istiqamətində siyasət aparır. Bu, təhlükəli tendensiyadır və demək olar ki, BMT qanunlarının kobud şəkildə pozulmasıdır. Ötən ilin axırları Rusiya prezidentinin mətbuat katibi Dimitri Peskov Krımın Rusiya ərazisi kimi tanınmasını Türkiyə və İsraildən istəyəcəklərini qeyd etmişdi. Qeyd edim ki, heç bir sivil dövlət Ukraynanın ayrılmaz hissəsi olan Krımın anneksiyasını qəbul etməyəcək. Məhz Krım böhranından sonra dünyada soyuq savaşa start verildi. Ötən ilin noyabrında Kerç böhranı ilə Rusiya bir daha dünya birliyinə Krımdan vaz keçməyəcəkləri mesajını verdi. Göründüyü kimi, bu günə kimi beynəlxalq birlik, hətta Rusiyanın öz müttəfiqləri Krımı Rusiyanın ərazisi kimi tanımır. BMT-də Ukraynanın ərazi bütövlüyü səsverməyə çıxarılanda, Krım daxil olmaqla, bu ölkənin ərazi bütövlüyünə səs verilir. Bundan sonra da Rusiyanın bütün cəhdlərinə baxmayaraq Krımı öz ərazisi kimi tanıtdıra bilməyəcək. Çünki bu, gələcək işğallara presedent olar".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Qətər ABŞ və Avropaya yatırımları artırır - səbəb...

## Ərəb ölkələri ilə böhran yaşayan ada dövləti Qərbdəki "təhlükəsizlik yastığı"nı möhkəmləndirir

**Qətər İnvestisiya Fondu (Qatar Investment Authority, QIA) Avropa aktiv portfelini yenidən balanslaşdırdıqdan sonra yaxın iki ildə ABŞ-a sərmayə yatırımını 45 milyard dollara qədər artırmaq niyyətindədir.**

"Azadinform" TASS-a istinadən xəbər verir ki, bunu bazar günü fondun icraçı direktoru Mənsur İbrahim əl-Mahmud deyib. Onun sözlərinə görə, QIA hazırda ABŞ-a təqribən 30 mlrd. dollar investisiya yatırıb. Və əlavə edib ki, bu məbləğ qarşıdakı iki ildə daha 15 milyard dollar artırılaraq 45 milyard dollara çatdırılacaq.

Qeyd edək ki, Qətərin ABŞ-a yatırımları daha əvvəl də olub. Qətər Fonduna daha əvvəl rəhbərlik edən Abdulla bin Məhəmməd bin Səud əl-Tani hələ 2015-ci ildə növbəti 5 il ərzində ABŞ-a 45 milyard. dollar sərmayə yatırmaq niyyətində olduqlarını bildirmişdi.

Ancaq 2017-ci ildə Qətər böhranı başlayanda vəziyyət bir qədər dəyişib. Xatırladaq ki, 2017-ci il mayın 21-də Səudiyyə Ərəbistanında keçirilən Ərəb-İslam-Amerika Sammitindən sonra Qətər və Səudiyyə Ərəbistanı arasındakı münasibətlər kulminasiya nöqtəsinə çatıb. İyunun 5-də Səudiyyə Ərəbistanı, Bəhreyn, BƏƏ, Misir rəsmi Dohanı terrorizmə dəstək verməkdə ittiham edərək bu ölkə ilə diplomatik münasibətləri dayandırdıqlarını bəyan edib. Bundan sonra Qətərə qarşı ərəb ölkələrinin sanksiyaları başlayıb. Embarqo tətbiq olunub.




Bu ölkələr Qətər diplomatlarının 48 saat, vətəndaşlarının isə iki həftə ərzində ölkəni tərk etməsini tələb ediblər. Eyni zamanda Qətərlə hava, dəniz və quru sərhədlərini də bağlayıblar. Yeri gəlmişkən, Qətərin, sadəcə, Səudiyyə Ərəbistanı ilə quru sərhədi var və ölkənin ərzaq tələbatının böyük bir hissəsi bu yolla ölkəyə daxil olur. Bundan başqa, hava sərhədlərinin bağlanması nəticəsində Qətər Hava Yolları şirkəti bir sıra uçuşları təxirə salıb, yerdə qalan uçuşlar isə sadəcə, İran üzərindən həyata keçirilməyə başlanıb. Daha sonra Liviya və Yəmənin mühacir hökuməti də Dohaya qarşı sanksiyalara qoşulub.

Hətta bir neçə dəfə ərəb ölkələrinin Qətərə hərbi müdaxilə edəcəyi ilə bağlı xəbərlər yayılıb. Bundan sonra Türkiyə Qətərə hərbi qüvvə göndərib və ilk hərbi bazasını yaradıb. Eyni zamanda Vaşinqtonun dəstəyini almaq üçün Qətər əmirinin atası, daha əvvəlki əmir Vaşinqtona səfər edib və tez-tələsik ABŞ-dan 12 milyard dollar dəyərində hərbi təyyarə alınması müqaviləsi imzalayıb.

Ötən ilin yazında isə Qətər ABŞ-a 100 milyard dollar dəyərində yatırım layihəsi irəli sürüb. Layihəyə əsasən Qatar Hava Yolları ABŞ-ın "Boeng" şirkətinə 332 ədəd sərnişin təyyarəsi sifariş edib. Sifarişin ümumi dəyəri 92 milyard dollar olub. Bu barədə mətbuata ABŞ-Qətər Strateji Dialoq toplantısında Qətərin iqtisadiyyat və ticarət naziri Şeyx Əhməd bin Cassim əl-Sani məlumat verib.

Qeyd edək ki, ABŞ-ın Yaxın Şərq regionunda yerləşən ən böyük hərbi bazalarından biri Qətərdə yerləşir və burada 11 min ABŞ hərbçisi xidmət edir. Doha və Amerika arasında geniş biznes və ticarət əlaqələri mövcuddur. Qətərdə fəaliyyət göstərən Qətər Maliyyə Mərkəzi adlı konsorsiumun çətiri altında 40-a yaxın Amerika şirkəti, o cümlədən 20-dək neft-qaz şirkətinin olduğu ümumilikdə 500-dən çox Qətər-ABŞ şirkəti fəaliyyət göstərir. Məhz bu faktorlar Qətər hakimiyyətini qüdrətli qonşularının qəzəbindən qoruyur.

Qeyd edək ki, Fars körfəzinin ada dövləti olan Qətərin əhalisinin sayı 2,7 milyon nəfərdir. Ərazisi 11 min kv.km olan ölkənin yalnız Səudiyyə Ərəbistanı ilə quru sərhədi var. Ancaq 2017-ci il böhranından sonra krallıq quru sərhədlərini bağlayıb. Hətta bir müddət əvvəl Səudiyyə Ərəbistanı rəsmiləri Qətər sərhədində kanal çəkməklə onu qitədən ayırmağı da düşünürdü. Ancaq zəngin neft və qaz ehtiyatlarına malik olması Qətərə fantastik gəlirlər gətirib, dünyanın ən zəngin ölkələrindən birinə çevirib. Bu səbəbdən də kiçik ada dövləti bölgədə siyasi-diplomatik oyunların mərkəzi, "Əl-Cəzirə" və digər güclü media silahına malik "yumşaq güc" dövlətinə çevrilib. Yaxın Şərqdə "ərəb baharı"na qədər əksər münaqişəli məsələlər Qətərin vasitəçiliyi ilə həllini tapırdı. Bütün bunların mərkəzində isə təbii ki, Qətərin dünyada ən zəngin neft-qaz ölkələrindən biri olmasıdır. Neft pulları bu ölkəni Yaxın Şərqdə və dünyada aktiv ölkələrdən birinə çevirib və bu zaman təbii ki, neft dollarları Qətərin "təhlükəsizlik yastığı" rolunu oynayıb. Yeri gəlmişkən, Qətər rəsmiləri Avropa Birliyinə də yatırım qoyulması layihəsini irəli sürüblər. Görünür ki, regionda siyasi proseslər aktivləşdikcə sözügedən ölkənin daha böyük və etibarlı dəstəyə ehtiyacı var.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 10 (7180) 15 yanvar 2019

# Əmanətlərin tam sığortalanması dövrü başa çatır

## "Müddət uzadılmayacağı təqdirdə 4 martdan sonra bağlanacaq bankda 30000 manatdan çox əmanət saxlayanlar faktiki olaraq bu məbləğdən çox olan hissəni itirəcəklər"

**"Əgər hökumət tərəfindən hər hansı qərar verilməzsə, 50 gündən sonra əmanətlərin tam sığortalanması ləğv ediləcək". Bu sözləri hüquqşünas, iqtisadçı ekspert Əkrəm Həsənov sosial şəbəkə hesabında paylaşıb. O bildirib ki, 3 il öncə qəbul edilən qanunun bitməsinə 50 gün müddət qalıb: "Məlum olduğu kimi, Azərbaycanda 4 mart 2016-cı il tarixdən 3 il müddətinə əmanətlərin tam sığortalanması sistemi mövcuddur. Yəni fiziki şəxslərin əmanətləri tam məbləğdə sığortalıdır, bu şərtlə ki, milli valyutadakı əmanətin illik faiz dərəcəsi 15%-dən, xarici valyutadakı əmanətin illik faiz dərəcəsi isə 3%-dən çox deyil. Bu sistemin cəmi 50 günlük ömrü qalıb".**




Bəs 4 mart 2019-cu il tarixdən sonra əmanətlərin sığortalanması necə həyata keçiriləcək?

**Ekspert qeyd edir ki, "Əmanətlərin tam sığortalanması haqqında" Qanunun 5.2-ci maddəsinə əsasən 4 mart 2019-cu il tarixdən sonra bağlanmış hər bir bankda sığortalanmış əmanət yalnız 30000 manatdan çox olmamaq şərtilə kompensasiya ediləcək:** "Tutaq ki, vətəndaş 2018-ci ilin 30 mart tarixində banka 1 il müddətinə 100000 manat məbləğində illik 15%-lə əmanət qoyub. Qüvvədə olan qaydaya görə əmanət tam sığortalıdır. Yəni bank 4 mart 2019-cu il tarixədək bağlansa, əmanət tam kompensasiya ediləcək. Lakin bank 4 mart 2019-cu ildən sonra bağlansa, əmanətçiyə yalnız 30000 manat kompensasiya ediləcək".

İqtisadçı ekspertin sözlərinə görə, dövlət başçısının müəyyən etdiyi Strateji Yol Xəritəsinə uyğun olaraq bankların sağlamlaşdırılması prosesi 2018-ci ilin sonunadək başa çatdırılmadığı üçün hələ bankların bağlanması təhlükəsi qalmaqdadır. Bu isə o deməkdir ki, əmanətlərin tam sığortalanmasının müddətinin uzadılmadığı təqdirdə 4 martdan sonra bağlanacaq bankda 30000 manatdan çox əmanət saxlayanlar faktiki olaraq həmin məbləğdən çox olan hissəni itirəcəklər.

Ə.Həsənov əmanətlərin tam sığortalanmasının müddətinin uzadılacağını da istisna etmir.

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan iqtisadçı alim Vüqar Bayramov da bu müddətin uzadılmasının daha məqsədəuyğun olduğunu vurğuladı:** ""Əmanətlərin tam sığortalanması haqqında" Qanuna əsasən bu il martın 1-də əmanətlərin limitsiz sığortalanması ilə bağlı maddə qüvvədən düşür. Bu isə o deməkdir ki, köhnə qaydalar tətbiq olunacaq. 30 min manata qədər olan əmanətlər sığortalanacaq. Həmçinin 30 min manatın dollar və avro ilə olan ekvivalenti sığortalanacaq. Ancaq təbii ki, hələ martın 1-nə qədər zaman var. Müddətin uzadılması da mümkündür. Müddət başa çatanadək onun uzadılması ilə bağlı qərar qəbul edilə bilər. Biz bunu məqsədəuyğun hesab edirik. Bu müddətin uzadılmasına ehtiyac var. Əgər müddət uzadılmasa, bu, banklardan depozitlərin geri çəkilməsinə gətirib çıxara bilər. Xüsusən də böyük məbləğdə depozitlərin sığortalanması həyata keçirilməyəcək".

**V.Bayramovun sözlərinə görə, əgər qanunun müddəti uzadılmasa, istənilən məbləğdə olan əmanətlərin 30 min manatdan yuxarı hissəsi sığortalanmayacaq:** "Burada depozit sahiblərinin diqqət yetirməli olduğu bir neçə məqam var. Əmanətlərin sığortalanması ilə bağlı qaydalar prezidentin təsdiq etdiyi qanuna müvafiq olaraq Əmanətlərin Sığortalanması Fondu tərəfindən müəyyənləşdirilir. Ölkə prezidentinin təsdiq etdiyi "Əmanətlərin tam sığortalanması haqqında" Qanunda müddət göstərilir. Digər qaydalar, o cümlədən faizlə bağlı limitlər Əmanətlərin Sığortalanması Fondu tərəfindən müəyyənləşdirilir. Bu baxımdan 2018-ci ildə vətəndaş bankda 50 min manat sığortalanan əmanət yerləşdiribsə, əgər martın 1-nə qədər müddət uzadılmayacaqsa, həmin əmanətin yalnız 30 min manatı sığortalanmış olur. Bankların özü daxili sığorta mexanizmi tətbiq edilə bilər. Ancaq 2016-cı ildə qəbul edilən qanunda müddət 3 il göstərilibsə, həmin müddət çərçivəsində banklar limitsiz sığortalama hüququna malikdir. İstənilən məbləğdə olan əmanətlərin 30 min manatdan yuxarı olan hissəsi sığortalanmayacaq".

**Ekspert riski aradan qaldırmaq üçün vətəndaşlara vəsaiti bir neçə hissədə fərqli banklarda əmanət kimi yerləşdirməyi təklif etdi:** "Bu hallarda riski aradan qaldırmaq üçün yaxşı olar ki, vəsaitlər 30 min manatadək olmaq şərtilə və ya onun xarici valyutada olan ekvivalentilə bir neçə bankda yerləşdirilsin. Bu da bütün məbləğin sığortalanmasına imkan verəcək. Əgər müddət uzadılmayacaqsa, əmanətçilərin bu addımı atması daha məqsədəuyğun olardı. Üçüncü əhəmiyyətli məqam ondan ibarətdir ki, ödəniş sığorta gününə olan məzənnə ilə aparılır. Gələcəkdə manatın məzənnəsində dəyişikliklər baş verərsə, o zaman nəzərə alınmalıdır ki, 30 min manatın ekvivalenti sığortalanır. Yəni kurs dəyişərsə, bu zaman daha az məbləğdə valyutanın sığortalanacağı anlamına gəlir. Xarici valyutada depozit yerləşdirənlər bu məqamı nəzərə alsalar yaxşı olar. Bütün hallarda biz "Əmanətlərin tam sığortalanması haqqında" Qanunun müddətinin uzadılmasının tərəfdarıyıq. Bu həm banklardan əmanətlərin çəkilməsinin qarşısını alar, həm də gələcəkdə banklara daha çox vəsaitin cəlb edilməsinə imkan yarada bilər".

**Bankların bağlanmasına gəlincə, V. Bayramov qeyd etdi ki, buna MBNP qərar verəcək:** "İndi Maliyyə Bazarlarına Nəzarət Palatası çalışır ki, bankların bağlanmasını deyil, sağlamlaşdırılmasını həyata keçirsin. MBNP-də idarəetmə və kadr dəyişikliklərindən sonra bankların sağlamlaşdırılmasına münasibət dəyişib. Əgər əvvəlki dövrdə problemli bankların müflisləşməsinə üstünlük verilirdisə, indi sağlamlaşdırılması prioritetdir. Ancaq bütün hallarda bizim müşahidələrimiz onu göstərir ki, problemli kreditlərin artması bank sektoruna və bəzi bankların fəaliyyətindəki mənfi tendensiyanın qalmasına gətirib çıxarır. Sözsüz ki, bankların müflis olub-olmayacağı qərarını MBNP verəcək. Vətəndaşlar istənilən halda özləri ni risklərdən sığortalamalıdırlar".

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

**Elan**

**"Şahin-Ə" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus ştamp və möhür itdiyi üçün etibarsız sayılır.**




## "Nar"ın korporativ müştərilərinin sayı artmaqdadır

**Ölkənin ən gənc və innovativ mobil operatoru "Nar"-ın korporativ müştərilərinin sayı ildən-ilə artmaqdadır. Son 1 ildə mobil operatorun korporativ müştərilərinin sayı 30% yüksəlib.**

**Hər bir abunəçisinə xüsusi diqqət göstərən "Nar", korporativ müştəriləri ilə mütəmadi görüşlər keçirir. Görüşün keçirilməsində əsas məqsəd korporativ müştərilərə mobil operatorun yeni imkanları barədə məlumatın verilməsi və əlaqələrin gücləndirilməsidir. Növbəti dəfə "Nar" 100-ə yaxın şirkətdən 250-yə qədər korporativ müştərisinin iştirakı ilə "Cinema Plus" kinoteatrının "Nar" zalında yeni filmə tamaşa ediblər. Filmdən sonra iştirakçılar arasında lotoreya keçirilib və qalib müştərilərə "Nar" tərəfindən xüsusi hədiyyələr verilib.**

**Qeyd edək ki, biznes tərəfdaşlarının sayını sürətlə artıran "Nar" daha sərfəli şərtlərlə əməkdaşlıq təklif edir. "Nar" korporativ müştərisi olmaqla, sahibkarlar öz biznes tələblərinə uyğun olan təkliflərdən yararlanmaqla yanaşı, keyfiyyətli rabitə və sərfəli qiymətlərdən faydalana bilərlər. Belə ki, korporativ tariflərdən birini seçməklə, müştərilər sərfəli qiymətə yeni model smartfon əldə edə bilərlər. Smartfonu əldə etmək üçün 1 "Nar" nömrəsinin korporativ tarifdə olması kifayətdir. Korporativ tarif planlarına şirkətdaxili limitsiz danışıq dəqiqələri əlavə edilir. Sözügedən tariflər aylıq 8 AZN-dən başlayan abunə haqqı ilə təklif olunur. İnternetdən daimi istifadə edən iş adamları isə "Nar"-ın pulsuz 4G data modem və data nömrələrini əldə edə və 1 il müddətində, xüsusi endirimlə, aylıq 20 GB mobil internetdən yararlana bilər.**

**Korporativ tərəfdaşlıq üçün 777 telefon nömrəsi və ya business-nar@azerfon.az ailto:business-nar@azerfon.az elektron poçt ünvanı vasitəsilə əlaqə saxlamaq olar. Təkliflərdən yalnız sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və ya fiziki şəxslər yararlana bilərlər.**

**"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyona yaxın abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.**

# Dövlət şirkətləri özəlləşdirilsə, qiymətlər necə olacaq?

## Ekspertlər bu sektorda rəqabətli mühitin yaradılmasının tərəfdarıdır

**Dövlətdə aparılan struktur islahatlarının bir qolu kimi, kommersiya fəaliyyəti ilə məşğul olan və kommunal xidmət sektorunda təmsil olunan "Azərsu", "Azərişıq", "Azəriqaz", "Azəristiliktəchizat" kimi qurumların özəlləşdirilməsi də təklif olunur. Ekspertlər hesab edir ki, dünya təcrübəsində artıq çoxdandır ki, bu sektor özəl şirkətlərin ixtiyarına verilib və rəqabətli mühit formalaşdırılıb. Azərbaycanda isə bu sahədə hələ də monopolist dövlət şirkətləri fəaliyyət göstərir. Nəticədə illərdir dövlət büdcəsinə kifayət qədər ciddi yük formalaşıb. Çünki bu qurumlar həm də vaxtaşırı dövlətdən ciddi məbləğdə dotasiya alır. Ekspertlər hesab edir ki, adıçəkilən qurumların özəlləşdirilməsi büdcəni bu yükdən xilas edə bilər.**

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan iqtisadçı alim Fikrət Yusifov bildirdi ki, hazırda bu şirkətlər bazarda monopolistdir və praktik olaraq hər şey onların əlindədir: "Ancaq dünya təcrübəsi, əsasən də inkişaf etmiş ölkələrin təcrübəsi onu göstərir ki, bu sahələrin özəlləşdirilməsi və bu yolla həmin sahədə rəqabət mühitinin formalaşdırılması olduqca vacibdir. Elektrik, qaz, su, istilik təminatı ilə bağlı bir neçə özəl qurum yaradılmalı və onlar arasında rəqabət formalaşmalıdır ki, keyfiyyətli xidmət ortaya çıxsın. Bu mühitin yaranması ilk növbədə xidmətin keyfiyyətini yaxşılaşdıracaq, ikincisi, rəqabət müstəvisində şirkətlər daha ucuz xidmət təklif etməyə çalışacaqlar. Bu da bazarda monopolist qiymətlərin tənzimlənməsinə şərait yaradacaq. "Azərişıq", "Azərsu", "Azəriqaz" faktiki olaraq monopolistdir və onlar abonentlərə qiyməti diktə edirlər. İnsanların isə başqa seçim variantı yoxdur".

**F.Yusifovun sözlərinə görə, özəlləşdirmə məsələsi öz həllini tapdıqdan sonra sözügedən sahədə yol verilən neqativlər, maliyyə pozuntuları və problemlərə son qoyulacaq:** "Bir məhsulun maya dəyərinin şişirdilmiş şəkildə təqdim edilməməsi üçün mütləq bu sahə özəlləşdirilməlidir. Maya dəyərinin şişirdilməsi qiymətin qalxması, yeni tariflərin artırılması deməkdir. Bu gün su təchizatı sahəsində nə qədər problemlər var. Təkcə vətəndaşın bir sayğac dəyişdirməsi üçün nə qədər vaxt və sənədləşmə tələb olunur. Bu özəlləşmə prosesi qaçılmazdır".

**Ekspert hesab edir ki, bu proses həm də dövlət büdcəsinin yükünün azalmasına gətirib çıxaracaq:** "Dövlət bu sahəyə nəzarət etmək üçün onun koordinasiyasını həyata keçirə bilər. Xidmətin keyfiyyətini və qiymətləri isə bazar diktə edəcək, hər kəs çalışacaq ki, yaxşı xidmət göstərsin. Ancaq elə etmək lazımdır ki, vətəndaş seçim edə bilsin, şirkətlər isə müştəri itirməmək üçün dəridən-qabıqdan çıxsın. Onda bu sahədəki bütün problemlər həllini tapacaq".

**İqtisadçı ekspert Natiq Cəfərli də "Yeni Müsavat"a danışarkən vurğuladı ki, özəlləşdirmə prosesi bu sahədə xidmətin keyfiyyətini yaxşılaşdıra bilər: "Əslində bu məsələ çoxdan həllini tapmalı idi. Dövlət büdcəsinə əlavə yük olan bu qurumlar ən azından uzunmüddətli icarə müqavilələri ilə özəl sektora verilə bilər. Burada təhlükəsizliklə və digər məsələlərlə bağlı hər hansı problem yoxdur. Çox təəssüf ki, uzun illərdir müstəqil ekspertlərin çağırışlarına baxmayaraq hər hansı addım atılmayıb. İndi müəyyən addımların atılması ehtimalı var. Qazpaylayıcı, su paylayıcı, elektrik paylayıcı şirkətlərin icarəyə verilməsi ilə ən azı iki məsələ həllini tapır. Birincisi, həmin qurumlar dövlətdən ciddi dotasiya alır. Ancaq buna baxmayaraq, xidmətin keyfiyyəti də qənaətbəxş deyil. Bu məsələ aradan qalxa bilər. İkinci vacib məqam isə odur ki, vətəndaş dövlət şirkətləri ilə müqavilə bağlayarkən, həmişə vətəndaşın məsuliyyəti vurğulanır. Şirkətlərin məsuliyyəti isə göstərilmir. Ancaq özəl şirkətlər olacaqsa, vətəndaşlarla həmin kommunal xidmət şirkətləri arasında bağlanan müqavilələrdə şirkətin də məsuliyyəti qeyd olunur. Əgər xidmətdə hər hansı pozuntu olacaqsa, məhkəmələrə müraciət edib həmin özəl şirkətləri cəzalandıra bilərlər. İndi dövlət şirkətlərinin əleyhinə məhkəmələr çox zaman qərar qəbul etmir deyə, vətəndaşlar da risk edib məhkəməyə müraciət etmirlər. Ancaq özəl şirkəti çox asanlıqla məhkəməyə verə bilərlər, bu da xidmətin keyfiyyətini yüksəldən amil olacaq".**

**Özəlləşdirmə prosesində kommunal xidmət qiymətlərinin daha da yüksəlməməsi məsələsinə gəlincə, N.Cəfərli bildirdi ki, bunun üçün dövlətin üzərinə müəyyən yük düşür:** "Dövlət bu şirkətlərə müəyyən güzəştlər tətbiq etməklə qiymətin indikindən baha olmayacağı ilə bağlı ən azı 3 illik müqavilələr bağlaya bilər. Özəlləşdirmə və ya icarəetməyə verilmə şərtlərindən biri ola bilər. Bu mümkündür və beynəlxalq praktikada da qəbul olunmuş bir metoddur. Dövlətin müəyyən təşviq addımları ilə qiymətlərə nəzarət etmək və maksimal qiymətlər müəyyənləşdirmək mümkündür. Ən yaxşı halda o ola bilər ki, eyni vaxtda bir neçə şirkətin fəaliyyət göstərməsinə şərait yaradılsın və rəqabət olsun. Məsələn, Londonda 12 şirkət var ki, elektrik enerjisinin əhaliyə satışı ilə məşğuldur. Onlar arasında ciddi rəqabət gedir, bəzi şirkətlər istirahət və bayram günlərində əhaliyə pulsuz elektrik enerjisi verirlər. Bu da qiymətlərin tənzimlənməsinə yardım edir. Elə olmamalıdır ki, dövlət şirkəti bu sahədən çıxsın, əvəzində hegemon bir özəl şirkətin monopoliyası başlasın və onlar qiyməti diktə etsin".

❑ **Nərgiz LİFTİYEVA,**

# Azərbaycanda donuz qripinə qarşı tədbirlər gücləndirildi




## Yolçu Xanvəli: "Təsərrüfatlara qripə yoluxmuş və ya digər kənar adamların buraxılmasına yol verilmir"

**Qonşu Gürcüstanda donuz qripi adlandırılan A (H1N1) virusundan 16 nəfərin öldüyü artıq laboratoriya şəraitində təsdiq olunub. Azərbaycan əhalisi bu ölkə ilə sıx əlaqədə olduğundan Gürcüstana gedən vətəndaşlarımızda qeyd edilən virusa yoluxma riski yüksək hesab olunur.**

Lakin hələ ki görülən tədbirlərin sayəsində ölkəmizdə donuz qripinə yoluxan yoxdur. Mütəxəssislər bildirirlər ki, Azərbaycanda havaların isti keçməsi bu virusun yayılma riskini azaldır. Çünki A (H1N1) virusu isti havaya yox, daha çox soyuq havaya qarşı dözümlüdür. Məlumatlara görə, Azərbaycandan Gürcüstana gedənlərin sayında azalma var. Ümumilikdə turizm agentliklərinin açıqlamalarına görə, bu il Gürcüstanda qış turizmi ötən illərlə müqayisədə zəifdir. İnsanlar qripdən qorxaraq bu ölkəyə səfər etmək istəmirlər.

Ölkəmizdə müvafiq qurumlar donuz qripinin yayılmasının qarşısını almaq üçün xüsusi tədbirlər görürlər. Belə ki, **Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev** jurnalistlərə açıqlamasında bildirib ki, Azərbaycanın bütün gömrük-keçid məntəqələrində donuz qripi əleyhinə xüsusi avadanlıq quraşdırılıb. Onun sözlərinə görə, komitə bu məsələdə Səhiyyə Nazirliyi və digər aidiyyəti dövlət qurumlarla əməkdaşlıq edir: "Əhalinin təhlükəsizliyi, sağlamlığı ilə bağlı bütün parametrlər nəzərə alınıb. Hesab edirəm ki, bu sahədə biz kifayət qədər nəticələr əldə etmişik. Bu gün də gücləndirilmiş iş rejimində çalışırıq. Əhalinin həm məlumatlandırılması, eyni zamanda xəstəliyin Azərbaycana gəlməməsi üçün xüsusi dezinfeksiyaedici, karantin sahələr elan olunub. Hər bir şey nəzarətimizdədir".

**"Yeni Müsavat"a danışan Dövlət Baytarlıq Nəzarəti Xidmətinin mətbuat xidmətinin rəhbəri Yolçu Xanvəli bildirdi ki, Azərbaycanda heyvanlarda bu virus aşkar edilməyib:** "Eləcə də Gürcüstanda və digər ölkələrdə heyvanlar arasında bu qrip növü qeydə alınmayıb. Vəziyyət hazırda sabitdir. Lakin buna baxmayaraq, profilaktik tədbir olaraq bütün təsərrüfatlara tapşırıq verilib ki, təsərrüfatlar qapalı vəziyyətdə saxlanılsın. Bu təsərrüfatlara qripə yoluxmuş və ya digər kənar adamların buraxılmasına yol verilmir. Eyni zamanda tapşırıq verilib ki, təsərrüfatda donuzların qidalanması ilə bağlı baytarlıq-sanitariya qaydalarına uyğun olaraq tədbirlər həyata keçirilsin. Bu gün donuzlar arasında nə donuz qripi, nə də digər yoluxucu xəstəliklər aşkar edilib. Təsərrüfatlara baytarlıq baxışı keçirilib. Bütün təsərrüfatlarda mütəmadi olaraq dezinfeksiya işləri də həyata keçirilir. 2019-cu ilin ilk günlərindən başlayaraq yerlərdə "Epizootiya əleyhinə profilaktika, diaqnostika tədbirlər planı"na uyğun olaraq iti yoluxucu xəstəliklərə qarşı profilaktiki peyvəndləmə, diaqnostik müayinə, dehelmentizasiya, dezinfeksiya, dezinseksiya və digər tədbirlər aparılır".

Baytarlıq xidmətindən "Yeni Müsavat"a o da bildirilib ki, Qurumun Qəbələ Rayon Baytarlıq İdarəsi 2019-cu ilin tədbirlər planına uyğun olaraq rayonda heyvanlar arasında profilaktik peyvəndləmələrə başlayıb. Peyvənd vasitələri baytarlıq tədbirlərinin səmərəli və keyfiyyətlə aparılması üçün "soyuq zəncir" rejimi gözlənilməklə sahələrə termocamadanla daşınır və heyvanlara təmənnasız olaraq tətbiq edilir. İlin əvvəlindən başlayaraq iribuynuzlu, təkdırnaqlı və donuzlar arasında qarayara xəstəliyinə qarşı peyvəndləmə tədbirinə başlanılıb. Bundan başqa, iribuynuzlu heyvanlardan brüsellyoz xəstəliyinin müayinəsi məqsədilə qan nümunələri alınır. Həmçinin sahibli ev itlərində quduzluğa qarşı profilaktik tədbirlər aparılır. Tədbirlər yekunlaşdıqdan sonra ərazidə dezinfeksiya işləri həyata keçirilir. Hazırda baytar həkimlər tərəfindən bu tədbirlər ardıcıl şəkildə davam etdirilir. İribuynuzlu heyvanlarda bu tədbirlərin fevralın sonlarına qədər yekunlaşdırılması nəzərdə tutulur. Aparılan tədbirlər çərçivəsində ilin əvvəlindən indiyə kimi "Gilan Dairy Farms" kökəltmə fermasına məxsus təsərrüfatda 250 baş və ayrı-ayrı şəxsi təsərrüfatlarda 1000 başdan artıq iribuynuzlu heyvanda qarayara xəstəliyi əleyhinə peyvəndləmə tədbiri aparılıb, 350 baş iribuynuzlu heyvandan brüsellyoz xəstəliyinin müəyyən edilməsi məqsədilə qan nümunəsi götürülərək laboratoriyaya göndərilib və 520 kvadratmetr sahədə dezinfeksiya və dezinfeksiya işləri aparılıb.

Aparılan tədbirlər sayəsində baytar mütəxəssisləri qarayara, brüsellyoz və donuz qripi xəstəlikləri barədə təsərrüfat sahiblərinə ətraflı məlumat verərək baytarlıq-sanitariya qaydalarına ciddi əməl edilməsini tövsiyə ediblər. Həmçinin təsərrüfatlarda hər hansı narahatçılıq olan zaman baytar həkimi ilə sıx əlaqə saxlamalarının vacibliyi vurğulanıb.

Bildirilib ki, Dövlət Baytarlıq Xidməti tərəfindən rayon (şəhər) baytarlıq idarələri baytarlıq preparatları, lazımi ləvazimat və avadanlıqlarla təmin edilib. Cari ildə dövlət vəsaiti hesabına alınan, "soyuq zəncir" rejimi gözlənilməklə bölgü əsasında sahə baytarlıq məntəqələrinə çatdırılan biopreparatlar, dezinfeksiya, dezinfeksiya və müalicəvi dərman preparatları rayon baytarlıq idarələrinin əməkdaşları tərəfindən "Epizootiya əleyhinə profilaktika, diaqnostika tədbirlər planı"na uyğun olaraq əhalinin mal-qarasına ödənişsiz əsaslarla (pulsuz) tətbiq edilir. Hazırda xüsusi təhlükəli xəstəliklərə görə ölkədə epizootik vəziyyət sabitdir və bu sabitliyi qoruyub saxlamaq üçün DBX lazımi təşkilatı tədbirləri davam etdirir.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 10 (7180) 15 yanvar 2019



## Tənha ana tərəfindən övladlığa götürülən uşaqlar bacı-qardaş çıxdı

Amerika sakini olan bir qadın övladlığa götürdüyü oğlan uşağının himayə altına aldığı qızın qardaşı olduğunu müəyyən edib. Kolorado ştatından olan Keti Peyc bir neçə il bundan öncə boşanıb və uşaq sahibi ola bilmədiyi üçün çox əzab çəkib. Bu yaxınlarda 30 yaşı olan qadın bir neçə iş yeri, ev dəyişib və daha sonra rahib ona yetimlərin himayəçisi olmağı təklif edib. O, 2016-cı ildə dörd uşağa qayğı göstərməyə başlayıb və daha sonra anlayıb ki, himayədar ana olmağa hazırdır. 2016-cı ilin yayında ona doğum evindən zəng ediblər və bildiriblər ki, anası tərəfindən tərk edilən bir oğlan uşağını himayəsinə götürə bilər. Peyc dərhal xəstəxanaya gedib və uşağı görən kimi onu sevib. Amerikalı qadın uşağı 2017-ci ilin mayında övladlığa götürüb.

Bir ay sonra ona yenidən xəstəxanadan zəng edərək, Hanna adlı bir qızın da anası tərəfindən atıldığını deyiblər. Peyc həmin uşağı övladlığa götürməsədə, himayəsinə alıb. Amma qızı evə gətirəndə onun anasının kimliyini qoluna taxılan məlumat kağızından oxuyub və məlum olub ki, uşaqlar bacı-qardaşdırlar. Qadın daha sonra o qızı da övladlığa götürüb.

# Bu restoranda yeməyini tam yeməyəni cərimələyirlər

Birləşmiş Ərəb Əmirliklərində yeməyini tam yeməyən müştəriləri cərimələyən restoran yaranıb. Bu barədə lenta.ru saytı xəbər yayıb. Gulou Hotpot adlı müəssisə Dubayda yerləşir. Əgər müştərilər 49 dirhəm qiyməti olan xoqo adlı yeməyi sifariş verirlərsə, onu axıra qədər yeməyə məcburdurlar. Bu yeməyə sərhədsiz miqdarda inqredentlər əlavə etmək mümkündür. Bunların sırasında lapşa, ət, tərəvəzlər də yer alır. Sifariş verdikləri saatdan etibarən 2 saat müddətində müştərilər pulsuz içkilər götürə bilərlər.



Əgər yemək yeyilməmiş qalsa, ya da yarımçıq yeyilsə, ziyarətçi 50 dirhəm məbləğində cərimə ödəməlidir.

Restoran rəhbərliyi izah edir ki, bu üsul müştərilərin qidalanmaları daha həssas yanaşmaları və artıqların miqdarını azaltmaq məqsədi güdür. 2018-ci ilin sentyabrında xəbər yayılmışdı ki, alman idmançıya hüdudsuz yemək servisi edən restoranlara getmək qadağan edilib. Bu, onun min porsiya suşi sifariş etdiyi gecədən sonra baş vermişdi.

# Kişinin gizli saxladığı üç arvadı bir-birini tapdı



Çində daşınmaz əmlak agentliyində çalışan kişi eyni vaxtda üç qadınla evli olduğu üçün aləm bir-birinə dəyib. O, ilk nikahını 2015-ci ildə gerçəkləşdirib. Növbəti üç il ərzində gizli şəkildə daha iki müştərisi ilə evlənib. O, qadınları bir-birindən bir kilometr aralıda yerləşən evlərdə saxlayıb, növbə ilə hər birinin evində yaşayıb. Tez-tez evdə olmamasının səbəbini isə hər birinə ezamiyyətlərlə izah edib və durumu bu cür idarə edib.

Bu yalanı onun ikinci arvadı aşkarlayıb. Ərinin digər arvadı ilə yazışmalarını tutan qadın bunu dərhal ona bildirməyib. Növbəti "ezamiyyətlər"indən birində onu təqib edib və birinci arvadını tapıb. Daha bir şübhələndirici detal isə ərinin bir nömrədən gələn zəngləri qəbul etmək istəməməsi olub. İkinci arvadı həmin nömrəyə zəng edib və nömrə sahibinin kişinin üçüncü arvadı olduğunu üzə çıxarıb.

Bundan sonra kişinin birinci arvadı boşanma üçün müraciət edib. Digər iki arvadı isə polisə şikayət ərizəsi verib. Məlum olub ki, kişinin eyni vaxtda üç qadınla evlənə bilməsinə qanunlardakı boşluqlar imkan verib. Belə ki, hər bölgə üzrə mərkəzləşmiş məlumat bazası olduğu, bütün bölgələrin vahid məlumat bazası olmadığı üçün belə bir mənzərə yaranıb. Çoxarvadlı kişini iki ilə qədər həbs cəzası gözləyir.




**QOÇ** - Məqsədlərinizi reallaşdırmaqda təmkinlik edirsiniz. Bu isə Göy qübbəsinin xoşuna gəlmir. Özünüzdə təpər tapın. Hər adama bel bağlamayın. Çünki bu dövrdə heç nə boş-boşuna əmələ gəlmir.

**BUĞA** - Təzadlı bir gün yaşayacağınız gözlənilir. Ulduzlar sizə qarşı bir neçə istiqamətdən təzyiqlər olacağını, həmçinin perspektivli təkliflər alacağınızı bildirir. Sövdələşmələrdə təşəbbüskar olun!

**ƏKİZLƏR** - Sevgi münasibətlərində bir qədər anlaşılmazlıqlar mümkündür. Çalışın ki, bu amil mübahisə həddinə çatmasın. Səhvlərinizi etiraf etməyi bacarın. Bunun sizə yalnız xeyri dəyə bilər.

**XƏRÇƏNG** - Bir qədər gərgin gündür. Özünüzü istənilən təzyiq və təhlükələrdən qorumalısınız. Haqqınızın tapdanmasına yol verməyin. Yeri gəlsə, bu istiqamətdə sərt mövqe də nümayiş etdirin.

**ŞİR** - Risk etməkdən qorxmayın. Amma bilin ki, bu riski hansı məqsəd uğrunda edirsiniz. Başınızı qoruyun. Ulduzların düzümü şəxsi büdcənizdə müəyyən artımların olacağını bəyan edir.

**QIZ** - Astroloji göstəricilər nə qədər yeni simalarla rastlaşsanız, bir o qədər nailiyyət qazanacağınızı bəyan edir. Əgər işlə bağlı məşğul deyilsinizsə, axşam mütləq qonaq gedin.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu əsrarəngiz təqvimdə daha çox səhhətinizə fikir verməlisiniz. Nahardan sonra isə işgüzar sövdələşmələrə başlamaq, yeni əlaqələr yaratmaq xeyirlidir.

**ƏQRƏB** - Maddi firavanlığa qovuşmaq üçün geniş imkanlarınız var. Boş oturmağa çalışmayın. Pul qoxusu gələn istənilən ünvana və şəxsə müraciət edin. Qeybətcil adamlardan uzaq olun.

**OXATAN** - Bu təqvimi bürcünüz üçün həftənin ən düşərli günü kimi dəyərləndirmək olar. Ələlxüsus da əməkdaşlıq zəminində uğurlu məqamlarla rastlaşacaqsınız. Sizə aid olmayan işlərə müdaxilə etməyin.

**OĞLAQ** - Şəxsi həyatınızda önəmli dəyişikliklər etmək istəyirsinizsə, bu gündən maksimum bəhrələnin. Aldığınız təklifləri düşünmədən rədd etməyin. Axşam təzə xəbərlər gözlənilir.

**SUTÖKƏN** - Ailə zəminində müəyyən xoşagəlməzliklər gözlənilsə də, bu, yalnız günün birinci yarısını əhatə edəcək. Nahardan sonra isə xoş təsadüflərlə rastlaşacaqsınız. Axşam qonaq getməyə çalışın.

**BALIQLAR** - Müntəzəm surətdə rastlaşdığınız şəxslərlə davranışlarınıza fikir verin. Özünüzü mehriban aparın. Qabiliyyətsiz adamlarla ünsiyyəti səngidin. Varlanmaq üçün imkan qazanacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İntihar "dərsi" keçdi və ... öldü

Cənubi Karolinada baş verən bir hadisə zamanı 43 yaşlı Ceyms Gagum ironiya məqsədilə başına dirədiyi silahla "intihar etməyin ən uyğun formasını" göstərməyə çalışarkən özünü vurub və dünyasını dəyişib. "The Huffington Post"un xəbərinə görə, hadisənin şahidi deyib ki, Gagum film izləyərkən intihar edən adamın etdiyinin səhv olduğunu söyləyərək, düz olanı göstərməyə çalışıb. Silahın boş olduğunu düşünən adam 3 dəfə tətiyi çəkib. Amma dördüncü dəfə tətiyə basarkən atəş açılıb.



Polis təsdiqləyib ki, Gagum silahın dolu olduğunu fərq etməyib. Təcili yardım komandası hadisə yerinə çatanda onun dünyasını dəyişdiyini təsdiqləyib. Məlum olub ki, mərhum 2010-cu ildə evinə zorla girərək ailəsinə silah çəkən 3 oğrudan birini silahla öldürübmüş.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100